AZƏRBAYCAN RESPUBLİKASI
DAXİLİ İŞLƏR NAZİRLİYİ

POLİS AKADEMİYASI

# KRİMİNALİSTİKA

- Sxemlər
- Şərhlər
- Terminlər

Tədris-metodik vəsait

Bakı-2013

# AZƏRBAYCAN RESPUBLİKASI
# DAXİLİ İŞLƏR NAZİRLİYİ

# POLİS AKADEMİYASI

# KRİMİNALİSTİKA:
## sxemlər, şərhlər, terminlər
**(tədris-metodik vəsait)**
**(ikinci nəşr əlavə və dəyişikliklərlə)**

Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası “Dövlət və hüquq” bölməsinin 17 mart 1999-cu il tarixli 50 nömrəli protokolu ilə təsdiq edilmişdir.

**Bakı - 2013**

**Elmi redaktor:** Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının rəisi, polis general-mayoru, hüquq elmlər namizədi, dosent
Rəsulov R.İ.

**Müəlliflər:** Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının "Kriminalistika" kafedrasının rəisi, polis polkovniki
Mahmudov A.M.

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının "Kriminalistika" kafedrasının müəllimi, polis kapitanı
Əliyev B.Ə.

Korrektor: Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının "Dil hazırlığı" kafedrasının baş müəllimi, filologiya elmləri namizədi, polis mayoru
Ağayev F.N.

Rəyçilər: Bakı Dövlət universitetinin hüquq fakültəsinin "Kriminalistik və məhkəmə" ekspertizası" kafedrasının müdiri, hüquq elmləri doktoru
Səlimov K.N.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Elmi-Tədqiqat, Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutunun direktoru, hüquq elmləri doktoru
Cavadov F.M.

Mahmudov A.M., Əliyev B.Ə. Kriminalistika: sxemlər, şərhlər, terminlər (tədris-metodik vəsait). Bakı, "Qanun" nəşriyyatı, 2003. səh.

Tədris-metodik vəsait kriminalistika elminin müasir vəziyyətini əks etdirməklə yanaşı, hüquq fakültələri üçün nəzərdə tutulmuş kriminalistika fənni üzrə tədris proqramının həcminə və tələblərinə uyğun olaraq hazırlanmışdır. Kitabda kriminalistika elminin bütün hissələri üzrə ayrı-ayrı məsələlər təhlil olunmuş, qüvvədə olan Azərbaycan Respublikası CM və CPM-nin normaları nəzərə alınmaqla geniş şərh edilmiş, istifadə edilən əsas kriminalistik terminlərin mahiyyəti açıqlanmışdır.

Tədris-metodik vəsait hüquq fakültələrinin tələbləri, Polis Akademiyasının müdavim və dinləyiciləri, müəllimlər, tədqiqatçılar, hüquq-mühafizə orqanlarının əməkdaşları üçün nəzərdə tutulmuşdur.

$$Q\frac{1300130004-392}{AB022051}-03-323$$

Az2

© Qanun, 2013
Mahmudov, Əliyev

# MÜNDƏRİCAT


**Ön söz** ........................................................................ 6

**Hissə I. Kriminalistika nəzəriyyəsinin əsasları** ........................................ **8**

*Mövzu № 1.* Kriminalistika elminin predmeti, sistemi, vəzifələri, onun cinayətin açılmasında, araşdırılmasında və qarşısının alınmasında əhəmiyyəti........................................ 9

*Mövzu № 2.* Kriminalistik eyniləşdirmə və diaqnostika, onların cinayətin açılmasında və araşdırılmasında istifadə olunması........................................ 15

**Hissə II. Kriminalistik texnika**........................................ **19**

*Mövzu № 3.* Kriminalistik texnikanın ümumi müddəaları, onun cinayətin açılmasında və araşdırılmasında rolu........................................ 20

*Mövzu № 4.* Kriminalistik fotoqrafiya və videoyazı, onlardan cinayətin açılmasında və araşdırılmasında istifadə edilməsi........................................ 35

*Mövzu № 5.* Trasologiya – onun cinayətin açılmasında və araşdırılmasında təcrübi əhəmiyyəti........................................ 45

*Mövzu № 6.* Daktiloskopiya – ondan cinayətin açılmasında və araşdırılmasında istifadə edilməsi........................................ 55

*Mövzu № 7.* Kriminalistik ballistika və ondan cinayətin açılmasında və araşdırılmasında istifadə edilməsi........................................ 58

*Mövzu № 8.* Sənədlər, əlyazmalar, makina yazıları və onların cinayətin açılmasında və araşdırılmasında əhəmiyyəti........................................ 72

*Mövzu № 9.* Qabistoskopiya – ondan cinayətin açılmasında və araşdırılmasında istifadə edilməsi........................................ 94

*Mövzu № 10.* Kriminalistik qeydiyyatlar və onların cinayətin açılmasında və araşdırılmasında imkanları........................................ 105

**Hissə III. Kriminalistik taktika**........................................ **109**

*Mövzu № 11.* Kriminalistik taktikanın anlayışı və sistemi, onun cinayətin açılmasında və araşdırılmasında rolu........................................ 110

*Mövzu № 12.* İstintaq şəraiti və taktiki qərar, onlardan cinayətin açılmasında və araşdırılmasında istifadə edilməsi........................................ 113

*Mövzu № 13.* Kriminalistik fərziyyələr və ibtidai araşdırmanın planlaşdırılması.......... 115

*Mövzu № 14.* İstintaq baxışı taktikası........................................ 124

*Mövzu № 15.* Tutulma taktikası........................................ 133

*Mövzu № 16.* Axtarış və götürmə taktikası........................................ 136

*Mövzu № 17.* Dindirmə taktikası........................................ 140

*Mövzu № 18.* Tanınma üçün təqdimetmə taktikası........................................ 153

*Mövzu № 19.* İfadələrin yerində yoxlanılması taktikası........................................ 155

*Mövzu № 20.* İstintaq eksperimenti taktikası........................................ 158

**Hissə IV. Kriminalistik metodika**........................................ **160**

*Mövzu № 21.* Ayrı-ayrı növ cinayətlərin araşdırılması metodikasının ümumi müddəaları........................................ 161

*Mövzu № 22.* Mənimsəmə və ya israfetmə yolu ilə özgə əmlakını talama cinayətlərinin araşdırılmasının xüsusiyyətləri........................................ 166

*Mövzu № 23.* Oğurluq cinayətlərinin araşdırılmasının xüsusiyyətləri.......................... 169

*Mövzu № 24.* Soyğunçuluq və quldurluq cinayətlərinin araşdırılmasının xüsusiyyətləri........................................ 173

*Mövzu № 25.* Dələduzluq cinayətlərinin araşdırılmasının xüsusiyyətləri..................... 176

| | | |
|---|---|---|
| *Mövzu № 26.* | Saxta pul və ya qiymətli kağızlar hazırlama və ya satma cinayətlərinin araşdırılmasının xüsusiyyətləri.............................................................. | 179 |
| *Mövzu № 27.* | Həyat və sağlamlıq əleyhinə olan cinayətlərin araşdırılmasının xüsusiyyətləri.............................................................................................. | 183 |
| *Mövzu № 28.* | Cinsi cinayətlərin araşdırılmasının xüsusiyyətləri................................. | 189 |
| *Mövzu № 29.* | Xuliqanlıq cinayətlərinin araşdırılmasının xüsusiyyətləri....................... | 194 |
| *Mövzu № 30.* | Rüşvətxorluq və korrupsiya xarakterli cinayətlərin metodikası.............. | 197 |
| *Mövzu № 31.* | Narkotik vasitələr və psixotrop maddələrlə bağlı cinayətlərin araşdırma metodikası.............................................................................................. | 202 |
| *Mövzu № 32.* | İslah-əmək müəssisələrində məhkum olunmuşlar tərəfindən törədilmiş cinayətlərin araşdırılmasının xüsusiyyətləri........................................... | 210 |
| *Mövzu № 33.* | Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərin araşdırılması metodikası............................... | 214 |
| *Mövzu № 34.* | Hədə-qorxu ilə tələb etmə cinayətlərinin araşdırma metodikası.............................................................................................. | 219 |
| *Mövzu № 35.* | Ekoloji cinayətlərin araşdırma metodikası............................................ | 222 |
| *Mövzu № 36.* | Qəsdənyandırma və ya yanğın təhlükəsizliyi qaydalarının pozulması ilə əlaqədar cinayətlərin araşdırılmasının xüsusiyyətləri........................ | 227 |
| *Mövzu № 37.* | Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərin araşdırılmasının xüsusiyyətləri.............................................................. | 232 |
| *Mövzu № 38.* | Keçmiş illərin açılmamış cinayətlərinin araşdırılmasının xüsusiyyətləri. | 234 |
| *Mövzu № 39.* | İqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərin araşdırılmasının xüsusiyyətləri.............................................................................................. | 237 |
| *Mövzu № 40.* | Terrorçuluq cinayətlərinin ibtidai istintaqının xüsusiyyətləri................. | 240 |
| *Mövzu № 41.* | Adam oğurluğu cinayətlərinin araşdırılmasının xüsusiyyətləri............... | 246 |
| *Mövzu № 42.* | Kompyuter informasiyası sahəsində törədilən cinayətlərin araşdırılmasının xüsusiyyətləri.............................................................. | 248 |
| *Mövzu № 43.* | Mütəşəkkil cinayətkarlıqla bağlı cinayətlərin araşdırılmasının əsas istiqamətləri.............................................................................................. | 253 |
| **Hissə V.** | **Kriminalistik terminlər.........................................................................** | **260** |
| Ədəbiyyat. | ............................................................................................................. | 270 |

## ÖN SÖZ

Müstəqil Azərbaycan Respublikasında hüquqi dövlətin təşəkkül tapması, hüquq sahələrinin inkişaf etdirilməsi, yeni hüquq təfəkkürünə və yüksək professionallığa malik, sivil dövlətlərin cinayətkarlığa qarşı mübarizə təcrübəsinin mütərəqqi ənənələrini mənimsəyən ali təhsilli hüquqşünas kadrların hazırlanmasını tələb edir. Ali təhsilli polis kadrlarının yetişdirilməsində isə respublikamızda təhsilin maddi-texniki bazasının yaradılması, onun tərkib hissəsi sayılan Azərbaycan dilində keyfiyyətli tədris vəsaitlərinin hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

Bu baxımdan "Kriminalistika" kafedrasının əməkdaşları tərəfindən hazırlanmış və bu tədris-metodik vəsait respublikamızın daxili işlər orqanları üçün yüksək biliyə və peşə vərdişlərinə malik hüquqşünas kadrların hazırlanması kimi böyük maddi və mənəvi məsrəflərlə bağlı olan, gərgin zəhmət tələb edən mürəkkəb işin həllinə az da olsa kömək edəcəkdir.

Tədris-metodik vəsaitin əsas məqsədi aşağıdakılardan ibarətdir:

- müdavim və dinləyicilərə maddi sübutların aşkar olunması, qeyd edilməsi və götürülməsinin üsul və vasitələrini öyrətmək;
- ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsində tətbiq olunan taktiki üsulları və müxtəlif növ cinayətlərin ibtidai araşdırılmasında istifadə olunan metodları və təcrübi vərdişləri müdavim və dinləyicilərə aşılamaq;
- cinayətkarlığa qarşı mübarizədə əvəzedilməz xidmətə malik olan "Kriminalistika" fənninin mənimsənilməsi prosesini sistemləşdirmək və asanlaşdırmaq.

Tədris-metodik vəsait 5 hissədən ibarətdir:

Birinci hissə kriminalistika elminin predmeti, sistemi, metodları və eyniləşdirmə nəzəriyyəsindən bəhs edir.

İkinci hissə kriminalistik texnikanın ümumi müddəaları, daktiloskopiya, trasologiya, ballistika, yazının və sənədlərin kriminalistik tədqiqatı, zahiri əlamətlərə görə şəxsiyyətin eyniləşdirilməsi, kriminalistik qeydiyyat haqqında elmi biliklər şərh edilmişdir.

Üçüncü hissədə kriminalistik taktikanın ümumi müddəaları, fərziyyələr, ibtidai araşdırmanın planlaşdırılması, istintaq müayinəsi, axtarış və götürmə, dindirmə, istintaq eksperimenti və digər istintaq hərəkətlərinin keçirilməsinin taktiki əsasları haqqında məlumatlar ətraflı şəkildə verilmişdir.

Dördüncü hissədə müxtəlif növ cinayətlər üzrə ibtidai araşdırmanın təşkili, cinayət işinə başlamanın xüsusiyyətləri, araşdırmanın mərhələləri, sübut edilməli olan hallar haqqında əsaslı məlumatlar sistemləşdirilir.

Beşinci hissədə isə kriminalistika elmində daha çox işlədilən terminlərin izahlı lüğəti verilmişdir.

Tədris-metodik vəsaitin materiallarının əyaniliyini və fənnin qavranılmasının effektivliyinin artırılmasını təmin etmək məqsədi ilə müəlliflər tərəfindən kriminalistika sahəsində çoxsaylı elmi-tədqiqat işləri və ədəbiyyatlar təhlil edilmiş və ümumiləşdirilmişdir. Hər mövzu üzrə vacib aspektlər ardıcıl, məntiqi əlaqələndirilmiş formada, blok-sxem şəklində verilmişdir.

Tədris-metodik vəsaitin tərtib edilməsində kriminalistika sahəsində xarici ölkələrin ədəbiyyatlarından da geniş istifadə edilmişdir. Bunlara misal olaraq, Rusiya kriminalistləri A.Q.Filippovun və A.V.Volınskinin, R.S.Belkinin, T.V.Averyanovanın, Türkiyə kriminalisti E.Sanderin, Almaniya kriminalisti K.D.Polun, Belorusiya kriminalistləri N.İ.Porubovun, İ.S.Andreyevin və Q.İ.Qromoviçin ədəbiyyatlarını göstərmək olar.

Tədris-metodiki vəsaitin hazırlanmasında, həmçinin cinayət və cinayət-prosessual məcəllələrinin normalarından, məntiq və psixologiya elmlərinin müddəalarından geniş istifadə edilmişdir.

# I HİSSƏ

# KRİMİNALİSTİKA NƏZƏRİYYƏSİNİN ƏSASLARI

# MÖVZU № 1. KRİMİNALİSTİKA ELMİNİN PREDMETİ, SİSTEMİ, VƏZİFƏLƏRİ, ONUN CİNAYƏTİN AÇILMASINDA, ARAŞDIRILMASINDA VƏ QARŞISININ ALINMASINDA TƏCRÜBİ ƏHƏMİYYƏTİ

**Kriminalistika** – sübutların yaranması, yığılması, tədqiqi, qiymətləndirilməsi, istifadə olunması qanunauyğunluqlarının öyrənilməsi və bu qanunauyğunluqların dərk edilməsi əsasında məhkəmə tədqiqatının üsulları, metodları və cinayətlərin açılması və təqsirli şəxslərin ifşa olunması haqqında elmdir.

**Kriminalistikanın predmeti**

***Cinayət izlərinin yaranması qanunauyğunluqları***

- izlərin əmələ gəlmə prosesinin təkrar olunması qanunauyğunluqları;
- cinayətkarın hərəkətləri və kriminal nəticə arasında olan əlaqənin qanunauyğunluqları;
- cinayətin törədilməsi üsulu və bu üsulun tətbiqi izləri arasında olan əlaqənin qanunauyğunluqları;
- cinayətin törədilməsi üsulunun konkret hallardan asılılığı qanunauyğunluqları;
- ayrı-ayrı sübutlardan sübutlar sisteminin qanunauyğunluqları;
- maddi sübutların itməsi qanunauyğunluqları.

***Sübutlarla işin qanunauyğunluqları***

- izlərin yığılması (aşkar, qeyd, götürmə, saxlama);
- sübutların tədqiqi;
- sübutların qiymətləndirilməsi;
- cinayət işi üzrə sübuta yetirilməli halların araşdırılması üçün sübutlardan istifadə edilməsi.

**Kriminalistika elminin sistemi**

***Kriminalistik (istintaq) metodika***

*Ayrı-ayrı növ cinayətlərin istintaq metodikasının işlənib hazırlanması*

*Ümumi müddəalar:*

İstintaq metodikasının hüquqi əsaslarının tədqiqi; cinayətin törədilməsi üsullarının öyrənilməsi; istintaq təcrübəsinin ümumiləşdirilməsi; mütəxəssislərin və ictimaiyyətin imkanlarının öyrənilməsi; istintaq metodikasının işlənib hazırlanması üçün əməliyyat-axtarış tədbirlərindən və cinayətkarların şəxsiyyəti haqqında məlumatlardan istifadə olunması.

***Kriminalistik (istintaq) taktika***

*Ayrı-ayrı prosessual hərəkətlərin keçirilməsində xüsusi taktiki üsulların işlənib hazırlanması*

*Ümumi müddəalar:*

Kriminalistik fərziyyələr haqqında təlim, planlaşdırmanın prinsipləri, müstəntiqin davranış xəttinin seçilməsi qanunauyğunluqları.

***Kriminalistik texnika***

Texniki vasitələr; sübutların yığılması üsulları; sübutların tədqiqinin metodikası.

*Ümumi müddəalar:*

Təbii və texniki elmlərin nailiyyətlərinin istifadə olunması; kriminalistik texnikanın tətbiqinin hüquqi əsasları; texniki vasitələrin tətbiqinin prosessual və texniki tərtibatı; cinayətin xəbərdarlıq edilməsində; açılmasında və məhkəmə baxışında kriminalistik texnikanın tətbiq edilməsinin formaları.

***Ümumi kriminalistik nəzəriyyə***

Kriminalistikanın predmetini, vəzifələrini və metodoloji əsaslarını müəyyənləşdirmək, qarışıq elmlərlə əlaqəsinin öyrənilməsi, onun inkişaf prosesinin tədqiqi.

## KRİMİNALİSTİKANIN SİSTEMİ

**Kriminalistika elminə giriş**

| ***Kriminalistik texnika*** | ***Kriminalistik (istintaq) taktika*** | ***Ayrı-ayrı növ cinayətlərin araşdırma metodikası*** |
| --- | --- | --- |
| *Kriminalistik texnikanın ümumi müddəaları* | *Kriminalistik taktikanın ümumi müddəaları* | *Ayrı növ cinayətlərin araşdırma metodikasının ümumi müddəaları* |
| Kriminalistik eyniləşdirmə. Məhkəmə (kriminalistik) fotoqrafiyası. Trasologiya (izlər haqqında kriminalistik təlim). Məhkəmə (kriminalistik) ballistika. Sənədlərin texnika kriminalistik tədqiqi. Zahiri görünüşünə görə şəxsin kriminalistik eyniləşdirilməsi. Kriminalistik qeydiyyat. | Araşdırmanın təşkili və planlaşdırılması. İstintaq fərziyyələri. İstintaq eksperimenti və ifadənin yerində yoxlanılması taktikası. Axtarış taktikası. Dindirmə taktikası. Tanınma üçün təqdim etmə taktikası. Ekspertizanın təyin edilməsi və keçirilməsi. İstintaq və əməliyyat orqanlarının qarşılıqlı fəaliyyətinin ümumi müddəaları. Cinayətlərin qarşısının alınması və açılmasına ictimaiyyətin cəlb edilməsi. | Talama cinayətlərinin ibtidai araşdırması. Qəsdən adam öldürmə cinayətlərinin ibtidai araşdırması. Soyğunçuluq və quldurluq cinayətlərinin ibtidai araşdırması. Oğurluq cinayətlərinin ibtidai araşdırması. Yol hərəkəti qaydalarının və hərəkət təhlükəsizliyinin pozulması cinayətlərinin ibtidai araşdırması. Qəsdən yandırma və yanğın təhlükəsizliyi qaydalarının pozulması cinayətlərinin ibtidai araşdırması. Ekoloji cinayətlərin ibtidai araşdırması. |


Kriminalistikanın tətbiqi sahələri
Əməliyyat-axtarış fəaliyyətində
Məhkəmədən kənar xarakterli məsələlərin həllində
İbtidai araşdırma
Mülki işlər üzrə məhkəmə icraatında
Məhkəmə istintaqında


Metodların qiymətləndirmə meyarı
Mümkünlük
Səmərəlilik
Əlverişlilik
Sadəlik və etibarlılıq
Təhlükəsizlik
Elmilik

## KRİMİNALİSTİKANIN DİGƏR ELMLƏRLƏ ƏLAQƏSİ




Müşahidə
Ölçmə
Təsvir etmə
Eksperiment
Modelləşdirmə
Ümumi metodlar
Kriminalistikada istifadə olunan elmi-dərketmə metodları
(R.S.Belkin)
Xüsusi metodlar
Sırf kriminalistik metodlar
Digər elmlərdən alınmış metodlar
Texniki kriminalistik metodlar (fotoqrafiya, ballistika)
Struktur-kriminalistik metodlar (hadisə yerinə baxış)
Riyazi, fiziki, kimyəvi, antropoloji, antropometrik, sosioloji


Kriminalistikanın inkişaf qanunları
Mövcud olan və yaranan kriminalistik konsepsiyaların əlaqəlilik və varislik qanunu
Başqa elmlərin qabaqcıl nailiyyətlərini məhkəmə icraatının məqsədlərinə uyğunlaşdırma qanunu
Cinayətkarlığa qarşı mübarizə təcrübəsinin tələblərinə kriminalistik tövsiyələrin uyğunluğu və bu təcrübənin kriminalistika elminin müddəaları bazası əsasında təkmilləşdirilməsi qanunu

## MÖVZU № 2. KRİMİNALİSTİK EYNİLƏŞDİRMƏ VƏ DİAQNOSTİKA, ONLARIN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA İSTİFADƏ OLUNMASI

**Eyniləşdirmə və qrup mənsubiyyətinin müəyyən edilməsi arasında olan fərqlər**

Eyniləşdirmənin vəzifəsi fərdi-müəyyən obyektin təyin edilməsindən ibarətdir. Eyniləşdirmə istintaq prosesində həmin obyektlə araşdırılan müəyyən hallar arasında səbəbli əlaqənin olmasını göstərir.

Qrup mənsubiyyətinin müəyyən edilməsi verilmiş obyektin müəyyən qrup təşkil edən digər obyektlər kimi olması faktını təsdiq edir. Qrup mənsubiyyəti haqqında nəticə verilmiş obyektin araşdırılan hallara mümkün aidiyyətini ancaq təsdiq edir.

**Ekspert eyniləşdirilməsinin şərtləri**

Müvafiq eyniləşdirən və eyniləşdirilən obyektlərin və ya onların surətləri olduqda eyniləşdirmə bir eyniləşdirilən obyekt və onun surəti üzrə aparıla bilər.

Eyniləşdirmə dərk etmə prosesi kimi dialektik məntiqin tələblərinə müvafiq olaraq həyata keçirilməlidir. Bu, bütün prosesin müəyyən ardıcıllığını bildirir.

Eyniləşdirilən obyektdə eyniləşdirən obyektin fərdi əlamətlər məcmusu əks olunduqda və eyniləşdirməyə qədər bu əlamətlər nisbi dəyişilməz halda saxlandıqda.

**Qrup mənsubiyyətinin müəyyən edilməsi** – bu öyrənilən obyektin müəyyən qrupa obyektin aid olması məqsədilə aparılan tədqiqat prosesi başa düşülür.

**Qrup mənsubiyyətinin müəyyən edilməsinin tipik səbəbləri**

***Birinci səbəb.*** Eyniləşdirilən obyektdə əks olunan əlamətlər eyniliyin müəyyən edilməsi üçün kifayət etmədikdə.

***İkinci səbəb.*** Eyniliyi müəyyən edilən obyekt dəyişikliyə uğradıqda və onun cismində əmələ gələn yeni əlamətlər eyniləşdirilən obyektdə olan əlamətlərlə uyğun gəlmir.

***Üçüncü səbəb.*** Eyniləşdirilən obyekt müəyyən olunub (məs.17), lakin eyniləşən (işin məxsus olduğu obyekt) müəyyən edilməyib.

***Dördüncü səbəb.*** İzlərin əmələ gəlmə mexanizminin xüsusiyyətləri elədir ki, müəyyən edilən əlamətlər konkret obyekti fərdiləşdirməyə imkan vermir.

***Beşinci səbəb.*** Obyektin eyniləşdirilməsi mümkün olmadıqda.

***Altıncı səbəb.*** Bəzi hallarda eyniləşdirənin keçirilməsinə ehtiyac olmur, çünki qrup mənsubiyyətinin müəyyən edilməsi hüquqi məsələlərin həll edilməsi üçün kifayət edir.

**Kriminalistik diaqnostika** – bu obyektlərin kəmiyyət və keyfiyyət göstəricilərinin xarakteristikasını aşkar etmək məqsədilə araşdırılan hadisənin ayrı-ayrı hallarını müəyyən etməyə imkan verən tədqiqat prosesidir.

Diaqnostika yunan sözü "diagnostikos" olub – "dərk etmə bacarığı" mənasını verir.

**Diaqnostika tədqiqatının məqsədi**

- obyektin xassəsini, vəziyyətini və onun verilmiş xarakteristikaya uyğunluğunu müəyyən etmək üçün;
- hərəkətin baş vermə mexanizminin tədqiqi üçün;
- faktlar arasında səbəbli əlaqəni müəyyən etmək üçün.

## Kriminalistik diaqnostikanın vəzifələri

- Cinayət hadisəsi şəraitinin məkan quruluşunun müəyyən edilməsi
- Hadisənin ayrı-ayrı mərhələlərinin mexanizminin müəyyən edilməsi
- Hadisə yeri şəraitinin maddi quruluşunun təyin edilməsi
- Cinayət hadisəsinin zaman xarakteristikasının müəyyən edilməsi
- Hərəkət obyektlərinin xassələrinin, onların sayının, funksiyalaşma xarakterinin təyin edilməsi
- Səbəbli nəticə əlaqələrinin keçmişinin tədqiqi
- Hərəkətlərin səbəbli-nəticə əlaqələrinin proqnozlaşdırılması
- Cinayət hadisəsinin bütövlükdə mexanizminin müəyyən edilməsi
- Şəraitin proses iştirakçılarının ifadə etdikləri hadisənin mexanizminə uyğunluğunun müəyyən edilməsi
- Cinayət hadisəsinin səbəb və şəraitlərin elementlərini təşkil edən kriminogen amillərin müəyyən edilməsi

# II HİSSƏ

# KRİMİNALİSTİK TEXNİKA

## MÖVZU № 3. KRİMİNALİSTİK TEXNİKANIN ÜMUMİ MÜDDƏALARI, ONUN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA ROLU

**Kriminalistik texnika** – təhqiqat, ibtidai istintaq, məhkəmə orqanları tərəfindən maddi sübutların toplanmasında və tədqiq edilməsində, həmçinin ekspert-kriminalist müəssisələrində tədqiqat məqsədləri üçün istifadə olunan texniki vasitə, üsul və metodların sistemi deməkdir.

**Kriminalistik texnikanın sistemi**

- Kriminalistik texnikanın əsasları (ümumi müddəalar)
- Məhkəmə fotoqrafiya və kinomotoqrafiya, videoyazı
- Gələn haqqında kriminalistik təlim (trasologiya)
- Kriminalistik ballistika
- Kriminalistik partlayışşünaslıq
- Sənədlərin kriminalistik tədqiqi
  - Yazının kriminalistik tədqiqi və müəllifşünaslıq
  - Sənədlərin texniki-kriminalistik tədqiqi
- Kriminalistik qeydiyyat
- Zahiri əlamətlərə görə şəxsiyyətin eyniləşdirilməsi
- Kriminalistik odorologiya
- Məhkəmə fokoskopiyası


Texniki kriminalistik üsullar
Texniki vasitələrlə işləmə qaydaları, müəyyən əməliyyatlar və hərəkətlər sistemi
Məsələn: hadisə yerində şəkilçəkmənin üsulları; axtarıcı cihazlarla işləmə qaydaları və s.
Maddi sübutların yığılmasının və tədqiqinin texniki üsulları
Məsələn: müxtəlif predmetlər üzərində görünməyən əl-barmaq izlərinin aşkar və qeyd edilməsi
Texniki vasitələrdən istifadə etmədən ayrı-ayrı kriminalistik məsələlərin həlli üsulları
Məsələn: insanın zahiri görünüşünün qeyd edilməsi

**Kriminalistik texnikanın üsul və vasitələrinin tətbiqinin əsas formaları, onları tətbiq edən subyektlər**

- Əməliyyat işçiləri əməliyyat-axtarış tədbirlərinin və istintaq hərəkətlərinin keçirilməsində
- Müstəntiq – ayrı-ayrı istintaq hərəkətlərinin və ilkin tədqiqatların keçirilməsində
- İstintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində iştirak edən mütəxəssis
- Ekspertlər – məhkəmə ekspertizaların və ilkin (xüsusi) tədqiqatların keçirilməsində
- İnzibati xidmətlər – cinayətin qarşısının alınmasında və sübutların yığılmasında
- Məhkəmənin tərkibi – məhkəmə baxışında




***Texniki-kriminalistik vasitələr və üsullar sadalanan şərtlərlə uyğundursa, onlar tətbiq edilə bilər.***

## Texniki-kriminalistik vasitələrin təsnifatı

***Tətbiqi sahəsinə görə***

Cinayət prosesində istifadə olunan texniki-kriminalistik vasitələr.
Əməliyyat-axtarış fəaliyyətində istifadə olunan texniki-kriminalistik vasitələr.
Mülki prosesdə istifadə olunan texniki-kriminalistik vasitələr.
İnzibati fəaliyyətdə istifadə olunan texniki-kriminalistik vasitələr.

***Hüquqi tənzimlənmə dərəcəsindən asılı olaraq***

- tətbiqi ümumi hüquqi tənzimlənməyə əsaslanan texniki-kriminalistik vasitələr;
- tətbiqi birbaşa qanunla nəzərdə tutulan texniki-kriminalistik vasitələr;
- tətbiqi qanunla mütləq şəkildə nəzərdə tutulan texniki-kriminalistik vasitələr.

***Mənşəyinə görə***

- kriminalistik məqsədlər ilkin yaradılmış texniki-kriminalistik vasitələr;
- başqa sahələrdə yaradılmış və kriminalistik vasitələrin həlli üçün uyğunlaşdırılmış istifadə olunan texniki-kriminalistik vasitələr;
- digər elm sahələrindən alınmış və heç bir dəyişiklik edilmədən istifadə olunan texniki-kriminalistik vasitələr.

***Təyinatına görə***

- sübutların aşkar edilməsi üçün istifadə olunan texniki-kriminalistik vasitələr;
- sübutların qeyd edilməsi və götürülməsi üçün istifadə olunan texniki-kriminalistik vasitələr;
- sübutların tədqiqi üçün istifadə olunan texniki-kriminalistik vasitələr;
- cinayətlərin qarşısının alınması üçün nəzərdə tutulmuş texniki-kriminalistik vasitələr;

*Ardı növbəti səhifədə*

***Texniki kriminalistik vasitələrə aid olduğu bilik sahəsinə görə***

- fiziki;
- kimyəvi;
- fiziki-kimyəvi;
- elektron;
- akustik;
- bioloji və s.

***İstifadə dərəcəsinə görə***

Məhdud sahədə (bir funksiyanı yerinə yetirən).

Universal (çoxfunksiyalı).


Sübutların qiymətləndirilməsi
Cinayətin açılmasında və qarşısının alınmasında kriminalistik texnika üzrə xüsusi biliklərin tətbiqi
Sübutların yığılması
Sübutların tədqiqatı
Sübutların aşkar edilməsi
Sübutların götürülməsi
Sübutların qeyd edilməsi
Sübutların saxlanılması
İlkin tədqiqat
Ekspert tədqiqatı


İzlərin və maddi sübutların ilkin tədqiqinin keçirilməsində istifadə olunan elmi-texniki vasitələr
Əl-barmaq (papilyar) izləri ilə iz üçün vasitələr
Ayaq, təkər potentorunun, sındırma alət izləri ilə iş üçün vasitələr
Mikroobyekt və qan izləri ilə üçün vasitələr
Meyitin maskasının çıxarılması, onu əl-barmaq izlərinin götürülməsi və tuaheti üçün vasitələr
Fotoşəkilçəkmə və videoyazı üçün vasitələr

**Texniki-kriminalistik vasitələrin tətbiqi əsasları**

- **Normativ hüquqi aktlar**
  - Qanun və qanun qüvvəli normativ aktlar
- **Prosessual sənədlər**
  - Müstəntiqin qərarı, məhkəmənin qərardadı və ya hökmü
- **Qeyri-prosessual aktlar**
  - Xidməti sənədlər (qeydlər, raportlar, arayışlar və s.)


Texniki-kriminalistik vasitələrin və metodların tətbiqi formaları
Prosessual
İstintaq baxışı eksperimentin və başqa istintaq hərəkətlərinin keçirilməsində
Məhkəmə (kriminalistik) ekspertizaların keçirilməsində
Qeyri-prosessual
Əməliyyat-axtarış tədbirlərinin keçirilməsində
Kriminalistik qeydiyyatı üzrə yoxlama zamanı
Mütəxəssis-kriminalistlər tərəfindən ilkin tədqiqatların keçirilməsində
Ekspert-kriminalistlər tərəfindən tövsiyələrin alınması zamanı
Pasport-masa xidmətlərinin, PPX sahə müvəkkillərinin işində

**Kriminalistik texnikadan istifadə olunması barədə protokolda əks olunan məlumatların sxematik ardıcıllığı**

**Tətbiq edilib**

- Kim tərəfindən?
- Harada?
- Nə vaxt?
- Nə ilə əlaqədar?
- Hansı obyektlərə münasibətdə?
- Nə üçün?
- Nə?

**Onun tətbiqi nəticəsində aşkar edilib və ya alınıb**

- Nə?
- Nə cür?

**Tədqiqat zamanı aşkar edilib**

- Hansı əlamətlər?

# Axtarıcı texniki-kriminalistik vasitələr

**Mexaniki şup** → Təyinatı çoxda böyük sıxlıqla malik olmayan yerlərdə müxtəlif əşyaların axtarılmasından ifantdir (torpaqda, yumşaq kubiklərdə, ərzaq məhsullarında və s.).

**Maqnit axtarıcı** → Metaldan hazırlanmış məmulatların axtarılması üçün nəzərdə tutulmuşdur (suda, qarda, qumda və s.).

**Metalaxtarıcı** → Konsluksiya elementləri qara və əlvan metallardan hazırlanmış olan əşyaların və məmulatların axtarılması üçün elektron cihazlardır.

**Tral** → Meyit, onun hissələrinin, əşyaların suda axtarılması təyinatına malik mexaniki qurğudur.

**Elektrik indikatoru** → Qurğuların elementlərində gərginliyin aşkar edilməsi təyinatına malik elektrik cihazdır.

**Qazanalizatoru** → Torpağa basdırılmış meyitin aşkar edilməsi təyinatına malik fiziki-kimyəvi cihazdır. Meyitin çürüməsi nəticəsində torpaq nümunələrində olan qaza oxşar maddələrin ekspert analizinə əsaslanır.

**Elektrosup** → Torpağa basdırılmış meyitin aşkar edilməsi təyinatına malik elektrik cihazdır.

**Çətin daxil olan yerlərdə əşyaların axtarılması üçün optik vasitələr** →


Qeyd etmənin texniki-kriminalistik vasitələri üsulların metodları
Fotoçəkiliş
Kinoçəkiliş
Videoyazı
Səsyazma
Modelləşdirmə (izlərin surətinin və əksinin hazırlanması)
Ölçmələrin aparılması
Qeyd etmənin qrafik üsullar

**Sübutların tədqiqinin texniki-kriminalistik vasitələri, üsulları və metodları**

- Optik (mikroskopik)
- Rentgen şüalarında tədqiqat
- Spektran analiz
- Qaz dromotoqafiyası
- Ultrabənövşəyi şüalarda tədqiqat
  - Əks olunmuş ultrabənövşəyi şüalarda tədqiqat
  - Ultrabənövşəyi şüalarla qıcıqlandırılan lyuminesensiyanın tədqiqi
- İnfraqırmızı şüalarda tədqiqat
  - Əks olunmuş infraqırmızı şüalarda tədqiqat
  - Spektrun görünən hissəsində şüalarla qıcıqlandırılan infraqırmızı lyuminesensiyanın tədqiqi
- Neytron aktivləşdirmə analizi

**Sübutların aşkar olunmasında, qeyd edilməsində və götürülməsində tətbiq edilən vasitələr və üsullar**

- Dəri naxışlarının aşkar olunması və qeyd edilməsi vasitələri; daktiloskopiya vasitələri
  - Surətlərin hazırlanması üçün materiallar
  - Texniki vasitələrin dəstləri
- İşıqlandırma vasitələri
  - Optik cihazlar (böyüdücülər, mikroskoplar, işıq süzgəcləri)
  - Foto-kino aparaturaları və ləvazimatları
  - Səs və video çəkiliş üçün istifadə olunan vasitələr
- Axtarıcı cihazlar (metal və meyit axtaranlar)
  - Ölçücü vasitələr (mikrometr, xətkeş, ştangenpərgar)
  - Sxemlərin və planların çəkilməsi üçün ləvazimatlar

## MÖVZU № 4. KRİMİNALİSTİK FOTOQRAFİYA VƏ VİDEOYAZI, ONLARDAN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA İSTİFADƏ EDİLMƏSİ

**Məhkəmə (kriminalistik) fotoqrafiyası** – kriminalistika texnikasının bir sahəsi olub, cinayətlərin istintaqı zamanı fotoqrafiyanın tətbiqi məsələlərini öyrənir.

**Məhkəmə (kriminalistik) fotoqrafiyasının xüsusiyyətləri**

Tətbiqinin xüsusi sahələri (əməliyyat, istintaq və ekspert təcrübəsində)

Şəkilçəkmənin müəyyən obyektləri (cinayət faktı ilə bağlı)

Şəkilçəkmənin xüsusi məqsədləri (cinayət işi üçün)

Şəkilçəkmənin spesifik metod və üsulları

Xüsusi aparatlar və ləvazimatlar

Şəkilçəkmənin həyata keçirən müəyyən şəxslərin dairəsi

Fotoşəkillərin tərtib edilməsinin xüsusi qaydaları (fotocədvəllərdə)

**Məhkəmə (kriminalistik) fotoqrafiyası**

**Şəkilçəkmənin üsulları**

Məhkəmə fotoqrafiyasının əməliyyat-taktiki və məlumat xarakterli məsələlərin həllində istifadə olunmasına yönəlmiş qaydalar və tövsiyələr.

**Məhkəmə fotoqrafiyasının metodları**

Obyektlərin fiziki əlamətlərini nəzərə alaraq, şəkilçəkmənin məqsədlərinə uyğun olaraq fototexniki vasitələrin seçilməsi və onların tətbiq edilməsi üzrə qaydalar və tövsiyələr.

- Əksedici şəkilçəkmənin metodları
- Tədqiqedici şəkilçəkmənin metodları

**Şəkilçəkmənin növləri**

Kriminalistik obyektlərin xüsusiyyətlərinə müvafiq şəkilçəkmədə tətbiq edilən üsul və metodların məcmusu.

## FOTOŞƏKİLÇƏKMƏ

**I** Fotoqrafiyanın üsul və metodlarının seçilməsi və aparatın hazırlanması

**II** Fotoşəkilçəkmə nöqtələrinin və (mövqe) üsulunun təyini

**III** Şəkilçəkmə şəraitinin müəyyənləşdirilməsi

**IV** Ekspozisiya vermə

## EKSPOZİSİYA OLUNMUŞ FOTOMATERİALLARIN LABORATORİYA EMALI



| İstintaq hərəkətlərinin keçirilməsində fotoşəkilçəkmənin tətbiq edilməsinin prosessual qaydada tərtib edilməsi | |
|---|---|
| **İstintaq hərəkətinin protokolunda göstərilir** | **Fotocədvəlin tərtib edilməsi** |
| 1. İşıqlandırma şəraiti.<br>2. Fotoşəkili çəkilmiş obyektlərin siyahısı.<br>3. Şəkilçəkməni həyata keçirən şəxs haqqında məlumat.<br>4. Şəkilçəkmə şəraiti və texniki vasitələr haqqında məlumat (fotoaparatın növü, obyektin markası, plyonkanın həssaslığı, diafraqma, gözləmə vaxtı).<br>5. İstintaq hərəkətinin keçirilməsində iştirak edən şəxslərə şəkilçəkmənin tətbiq edilməsi haqqında xəbərdarlıq edilməsini göstərmək. | 1. Fotoşəkillərin fotocədvələ yapışdırılması.<br>2. Fotoşəkillərdə cinayət işi üçün əhəmiyyət kəsb edən detalları oxlarla, hərflərlə, rəqəmlərlə və digər şərti işarələrlə göstərmək.<br>3. Fotoşəkilin altında göstərmək: nəyin şəkli çəkilmişdir, hansı fotoqrafiya vasitələrindən istifadə olunub.<br>4. Fotocədvəli müstəntiqin və şəkilçəkməni həyata keçirən şəxsin imzaları ilə təsdiq etmək. |
| | |



Şəkilçəkmənin obyektləri
Canlı şəxslər (təqsirləndirilən, şübhə edilən şəxslər (zərərçəkənlər)
Meyitlər
Hadisə yeri, axtarışın keçirildiyi yer
Sənədlər
Açıq sahələr
Binalar və mənzillər
Ayrı-ayrı əşyalar
İzlər
Həmçinin ayrı-ayrı istintaq hərəkətlərinin gedişatının və nəticələrinin fotoşəkili çəkilir
Maddi sübutlar


Şəkilçəkmənin üsulları
İstiqamətləndirici
Hadisə yerinin onu əhatə edən sahə ilə birlikdə çəkilmiş fotoşəklinə deyilir
İCMAL
Hadisə yerinin ətrafındakı sahədən təcrid olunmuş halda çəkilmiş fotoşəklinə deyilir
MƏRKƏZ
Hadisə yerinin daha mühüm sahələrinin çəkilmiş fotoşəkillərinə deyilir
MÜFƏSSƏL
Hadisə yeri şəraitinin detallarının, izlərin və sübut əhəmiyyəti kəsb edən predmetlərin çəkilmiş fotoşəklinə deyilir


Əksedici şəkilçəkmənin üsulları və metodları
Metodları
Üsulları
Adi
Xətti
Panoram
Dairəvi
Stereoskopik
Xüsusi aparatla
İrimiqyaslı (makroşəkilçəkmə)
Stereokomplektlə
Ölçülü
Miqyas xətkeşlə
Tanınma
Xüsusi aparatla
Fotoreproduksiya
Refleks

## Detal şəkilçəkmə qaydaları

- Geniş planda çəkmək
- İri miqyaslı xətkeş tətbiq etmək
- Plyonkanın səthini izin və ya obyektin səthi ilə paralel tutmaq

## Meyitin fotoşəklinin çəkilməsi qaydaları

- Ətraf mühitlə birlikdə və ondan təcrid olunmuş vəziyyətdə çəkmək
- Meyitin vəziyyətini əks etdirmək üçün fotoşəklini yuxarıdan çəkmək
- Şəxsiyyəti müəyyən edilməmiş meyitləri tanınma şəkilçəkmə qaydaları üzrə çəkmək
- Hər iki yan tərəfdən şəkil çəkmək
- Meyitin üzərində olan zədələri əks etdirmək üçün mərkəz və detal şəkilçəkmə üsulunu tətbiq etmək


Tədqiqedici fotoqrafiyanın metodları
Mikroşəkilçəkmə
Kontrastların dəyişilməsi
Xüsusi işıqlandırma şəraitində şəkilçəkmə
Görünməyən şüalarda şəkilçəkmə
Rəngləri fərqləndirmə
Diffuz-surətçıxartma metodu
Əksləri üst-üstə qoyma
Kontrast işıqlandırma
Kimyəvi gücləndirmə
Keçən işıqda
Kölgəsiz
Çəpəki işıqda
İnfraqırmızı
Ultrabənövşəyi
Rentgen şüaları
Qammoqrafiya
Betaqadioqrafiya

## MÖVZU № 5. TRASOLOGİYA – ONUN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA ƏHƏMİYYƏTİ

**Trasologiya** – kriminalistik texnikanın bir sahəsi olub, məhkəmə sübutlarını əldə etmək məqsədi ilə təbii və texniki elmlərin nailiyyətlərindən istifadə edərək izlərin aşkar edilməsi, götürülməsi və tədqiq edilməsinin elmi-texniki üsul və vasitələrini müəyyən edir.






**Trasologiyada izlərin təsnifatının əsasları**

- İzi əmələ gətirən obyektlərin cinsinə görə
- İzi qəbul edən obyektin səthində əmələ gələn dəyişikliklərin xarakterinə görə
- İzi əmələ gəlmə anında obyektin vəziyyəti və izin yerləşməsi yerinə görə

**İz əmələ gətirən obyektlərə görə izlərin təsnifatı**

- Əl izləri
- İnsanın və heyvanın ayaq izləri
- Ayaqqabı izləri
- İnsanın diş izləri
- Relssiz nəqliyyat vasitələrinin izləri
  - Avtomobillər
  - Motosikletlər, motoroller, mopedlər, velosipedlər
  - Traktorlar
  - At-araba nəqliyyatı
  - Kirşə və ayaq xizəyi
- Sındırma alət və vasitələrin izləri


**İzlərin təsnifatı**
(əmələ gələn dəyişikliklərin xarakterindən asılı olaraq)
Səthi
Həcmi
Keçən
Köçürülən
Rəngli
Rəngsiz
Zəif görünən
Görünməyən


**İzlərin təsnifatı**
(izlərin əmələ gəlməsi vaxtı obyektlərin vəziyyətindən asılı olaraq)
Statik əkslər, izlər (avtomobilin təkər izləri)
Dinamik-sürüşmə, kəsilmə, doğrama (mişarlanma izləri
Yerli (lokal) izlər izi qoyan obyektlə üzərinə düşən obyektin təmasda olduğu sahədə əmələ gələn izlər adlanır (məs., torpaqda qalan ayaq izləri)
Ətraf (periferik) izlər – izi qoyan və üzərinə iz düşən obyektlərin təmasda olduqları sahənin hüdudlarından kənarda əmələ gələn izlər adlanır

**Ayaqqabı izinin elementləri**

***Uzunluğu***
- ümumi;
- pəncə;
- aralıq hissə;
- daban.

***Eni***
- pəncə (ən enli hissəsi);
- aralıq hissə (ən ensiz yerdə);
- daban (ən enli hissəsi və ya qabaq kəsiyi).

***Dərinliyi***
- pəncənin qabaq hissəsində;
- dabanın qabaq və arxa kəsiyində.

**İz yolunun elementləri**

- Sağ ayaq addımının uzunluğu
- Sağ ayaq pəncəsinin dönmə bucağı
- Sol ayaq addımının uzunluğu
- Sol ayaq pəncəsinin dönmə bucağı
- Addımların eni

**Ayaq və ayaqqabı izləri aşağıdakıları müəyyənləşdirməyə imkan verir**

- cinayətkarların sayı;
- onların cinsi, boyu, yaşı;
- hərəkət istiqaməti;
- onların şəraitlə tanışlıq dərəcəsi;
- hərəkətin xarakteri;
- cinayətin törədilməsi vaxtı.

# SINDIRMA ALƏT VƏ VASİTƏLƏRİ İZLƏRİ

**Sındırma alətlərinin təsnifatı**

***Təsir etmə təbiətinə görə*** - mexaniki təsir, termiki təsir, partlayış enerjisinə əsaslanan.

***Hazırlanma üsuluna görə*** - sənaye, əldədüzəltmə, kustar.

***Təyinatına görə*** - istehsalat və məişət təyinatlı, xüsusi hazırlanmış, tikinti və digər konstruksiyalı, təbii mənşəli.

***Hadisə yerində olma mənbəyinə görə*** - cinayətkar tərəfindən gətirilən, hadisə yerində təsadüfi olan.

***Qıfılların açılması üçün istifadə olunan alətlər*** – kilidaçanlar, xüsusi kəlbətinlər, digər əşyalar.

**Sındırma izlərinin təsnifatı**

- sıxma izləri;
- sürüşmə izləri;
- kəsmə izləri;
- mişarlama izləri;
- deşmə izləri;
- zərbə izləri.

**Sındırma izlərinin tədqiqində aşağıdakılara diqqət yetirilməlidir**

- görünmə dərəcəsinə;
- izin forması, relyefi və təsir xüsusiyyətlərinə;
- izdə olan mikrohissəciklərə;
- sındırma aləti üzərində qalan mikrohissəciklərə.

## AVTONƏQLİYYATLARIN İZLƏRİ

**İzlərin elementləri**

- İzin eni
- Təkrar izinin eni
- Təkrar dairəsinin izdə uzunluğu
- Protektorların şəkillərinin quruluşu

**Nəqliyyat vasitələrinin izləri aşağıdakıları müəyyənləşdirməyə imkan verir**

- avtomobilin, motosikletin, motorollerin, mopedin növü və modeli;
- hərəkətin istiqaməti;
- hərəkətin sürəti;
- tormoz yolunun uzunluğu;
- yüklənmə dərəcəsi və daşınan yükün xarakteri;
- toqquşma zamanı nəqliyyat vasitələrinin qarşılıqlı vəziyyəti.

**İstintaq hərəkətinin protokolunda izlər haqqında məlumatların qeyd edilməsi**

- predmetin adı və onun xarakteristikası;
- predmetin hansı hissəsində, nə cür, hansı texniki vasitələrin tətbiqi ilə izlər aşkar olunub;
- izlərin növü (qəbul edilmiş təsnifata əsasən), onların sayı, onların bir-birinə və başqa oriyentirlərə nisbətən yerləşməsi, ayaq və ayaqqabı izinin istiqaməti;
- izlərin (papilyar naxışların, protektorun, ayaqqabının alt hissəsindəki naxışların və s.) konfiqurasiyası, ölçüsü, aydın əks olunan xüsusiyyətləri və s.;
- izlərin qeyd edilməsi, götürülməsi üsulları və hansı vəziyyətdə protokola əlavə edilib.

**Tamın hissəyə görə müəyyən edilməsində istifadə olunan ümumi mənşəli əlamətlər qrupu**

Obyektin hissələrə bölünməzdən əvvəl yaranmış əlamətləri. Bu əlamətlər obyektin xarici quruluşunu xarakterizə edir: forması, ölçüsü, relyefinin xüsusiyyətləri (məs: alətin tətbiq izləri, pas).

Obyektlərin istifadəsi zamanı qarşılıqlı təsir nəticəsində yaranan əlamətlər (məs: çexolda avtomobilin kanat izləri).

Obyektlərin hissələrə bölünməsi vaxtı əmələ gələn əlamətlər, parçalanma zamanı əmələ gələn relyef səthlərinin xüsusiyyətləri və ümumi konfiqurasiyası.

Predmetlərin bir dəstdə olduğu zaman, onlar üzərində təsadüfi yaranan əlamətlər (məs: sənəd üzərindəki qatlanma xətti, paltar üzərində mürəkkəb ləkəsi).

Predmetin verilmiş komplektə aid olmasını göstərən istehsalat mənşəli əlamətlər (məs: markirovka qeydiyyatları).


Həllədicilər
Emulsiyalar
Suspenziyalar
Kristal
Amorf
Maye
Qazaoxşar
Bərk
Əmələgəlmə mexanizminə görə
Aqreqat halına görə
Mənşəyinə görə
Mexaniki ayrılma
Mexaniki parçalanma
Termiki və ya kimyəvi təsir
Mikroobyektlərin təsnifatı
Cinayətkardan (onun bədəni, geyimi, ayaqqabısı və s.)
Zərərçəkmiş şəxsdən (onun bədəni, geyimi, ayaqqabısı və s.)
Cinayətin alətlərindən
Nəqliyyat vasitələrindən
Hadisə yerinin şəraitindən
Maddələrin təbiətinə görə
Üzvi
Qeyri-üzvi
Təbii
Bitki hissələri və heyvan orqanizminin qalıqları, mikroorqanizmlər, neft, torf, kömür, təbii qazlar və s.
İnsan fəaliyyətinin məhsulları
Liflər, boyaq maddələri, neft məhsulları, polimerlər, dərman preparatları, kimyəvi birləşmələr, insan orqanizminin qalıqları və s.
Təbii
Torpaq, civə, duzlar, oksidlər, təbii halda metallar, təbii sular və s.
İnsan fəaliyyətinin məhsulları
Şüşə, keramika, metallar, xəlitələr, tikinti materialları, kimyəvi birləşmələr, turşular və s.

## HADİSƏ YERİNDƏ MİKROOBYEKTLƏRLƏ İŞ



**Mikroobyektlərlə iş üçün istifadə olunan texniki vasitələr 5 qrupa bölünür**

**I qrup**

Mikroobyektlərin axtarışı, aşkar edilməsi və onlara baxış keçirilməsi üçün nəzərdə tutulmuş vasitələr.

**II qrup**

Mikroobyektlərin götürülməsi üçün nəzərdə tutulmuş vasitələr.

**III qrup**

Mikroobyektlərlə iş üçün nəzərdə tutulan texniki vasitələr.

**IV qrup**

Mikroobyektlərlə qablaşdırılması və saxlanması üçün vasitələr.

**V qrup**

Əlavə yardımçı vasitələr.

## MÖVZU № 6. DAKTİLOSKOPİYA – ONDAN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA İSTİFADƏ OLUNMASI

**Daktiloskopiya** – kriminalistik texnikanın bir sahəsi olub, şəxsiyyətin eyniləşdirilməsi, kriminalistik qeydiyyatın aparılması və cinayət törətmiş şəxsin axtarılması məqsədilə papilyar naxışları öyrənir.

**Əl içi dərisinin üst hissəsinin relyefinin elementləri**

- Papilyar xətlər axını
  - Delta
  - Papilyar xətlər
    - Məsamə
    - Papilyar xətlərin quruluşunun detalları
    - Papilyar xəttin kənarı
- Dərinin xırda qırışları
- Fleksor (qatlama) xətləri
  - Falanqalar arası xətlər
  - Ovucun qatlanma xətləri


Papilyar naxışların xassələri
Fərdilik
Daimilik
Bərpa olunma


Qövsi naxışlar 5% delta olmur
İlgək naxışlar 65% bir deltası olur
Dairəvi naxışlar 30% iki və daha artıq deltası var
Papilyar naxışların növləri


Görünməyən əl-barmaq izlərinin aşkar edilməsi üsulları
Fiziki metodlar
Kimyəvi metodlar
Fiziki-kimyəvi metodlar
Optik xassələrə
Lüminessensiya analizi
Molekul xassələrə əsaslanan
İzi qəbul edən səthin üst hissəsinə keçmək xassələrinə əsaslanan
Tozlar
Maye boyalar
Termik-vakuum tozlandırma
İstilik xassələrinə əsaslanan
Termoqrafiya
Elektrostatik xassələrə əsaslanan
Elektrostatik potensaloqrafiya
Xloridlərlə qarşılıqlı əlaqə xassələrinə əsaslanan
Azotlu-gümüş
Azot tərkibli birləşmələrlə qarşılıqlı təsir xassəsinə əsaslanan
4%-li dimetilamino qəhvəyi aldehid
Tanin
Ortotolidin
Alloksan
Ninhidrin
Turşu tərkibli maddələrlə qarşılıqlı təsir xassəsinə əsaslanan
Sudan III və şarlaxort
Osmium turşusu
Avtoradioqrafiya
Yod buxarları
Külə dönmüş üzvi maddələr

# MÖVZU № 7. KRİMİNALİSTİK BALLİSTİKA VƏ ONDAN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA İSTİFADƏ EDİLMƏSİ

**Kriminalistik ballistika** – kriminalistik silahşünaslığın bir hissəsi olub, cinayət işlərinin istintaqı zamanı qarşıya çıxan məsələlərin həlli məqsədilə odlu silahların, döyüş sursatlarının və onların tətbiqi izlərinin aşkar edilməsinin, qeyd edilməsinin, götürülməsinin və tədqiqinin texniki vasitələrini, kriminalistik üsul və metodlarını işləyib hazırlayır.

**Kriminalistik ballistikanın vəzifələri**

***Eyniləşdirmə xarakterli***

- gülləyə görə silahın eyniləşdirilməsi;
- gilizə görə silahın eyniləşdirilməsi;
- detalın silaha aid olmasının müəyyənləşdirilməsi;

***Diaqnostik xarakterli***

- silahın növünü, sistemini və modelini müəyyənləşdirmək;
- obyektin odlu silaha aidiyyətini müəyyənləşdirmək;
- silahın texniki vəziyyətini və atəşə yararlığını müəyyənləşdirmək;
- silahdan atəşaçma faktorunu müəyyənləşdirmək;
- silahın hazırlanma üsulunu müəyyənləşdirmək;
- tətiyə təsir etmədən silahdan atəşaçma mümkünlüyünü müəyyənləşdirmək.

**Məhkəmə ballistik tədqiqatının obyektləri**

- Tapançalar, revolverlər
  - Avtomatlar, karabinlər, lüləsi kəsik tüfənglər
  - Tüfənglər, ov silahları
  - Atəşaçma üçün istifadə edilən qeyri-müəyyən quruluşa malik silahlar və atəşaçan qurğular
- Odlu silahın tətbiqi izləri (məs: maneələrdə zədələr və s.)
- Patronlar
  - Atılmış gilizlər
  - Atılmış güllələr, mərmilər
  - Barıt dolumu
  - Tıxaclar

**Odlu silah** – barıtın və ya digər alışan maddələrin yaranmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silahdır.

**Döyüş sursatı** – müvafiq silah növündən atəş açmaq üçün nəzərdə tutulmuş konstruktiv qurğu və əşyalardır.

**Qaz silahı** – gözyaşardıcı, qıcıqlandırıcı, zəhərləyici, sinir-iflic və ya başqa güclü təsir göstərən digər maddələrin tətbiqi ilə canlı hədəfin müvəqqəti sıradan çıxarılması üçün nəzərdə tutulmuş silahdır.

**Ov silahı** – vəhşi heyvanların və quşların ovlanması üçün nəzərdə tutulmuş yivli və yivsiz lüləli odlu, soyuq, o cümlədən soyuq atıcı və pnevmatik silahdır.

## Odlu silahların təsnifatı

### Hazırlanma üsuluna görə

- zavod;
- kustar;
- əldədüzəltmə;
- uyğunlaşdırılmış.

### Təyinatına görə

- döyüş;
- xidməti;
- idman;
- mülki;
- təlim;
- ov.

### Döyüş mexanizminin konstruksiya xüsusiyyətlərinə görə

- qeyri-avtomatik;
- yarımavtomatik;
- avtomatik.

### Lülənin uzunluğuna görə

- qısa lüləli (20 sm-ə qədər);
- orta lüləli (20-50 sm-ə qədər);
- uzun lüləli (50 sm-dən böyük).

*Ardı növbəti səhifədə*

**Lülənin kanalının quruluşuna görə**

- hamarlüləli;
- yivli;
- hamaryivli (paradokslar);
- kombinə olunmuş (müxtəlif kanal quruluşuna malik bir neçə lüləsi olan silah başa düşülür).

**Çapına görə**

- İki qarşı-qarşıya olan yivlər arası sahə arasındakı məsafə çapı müəyyən edir. Bəzi ölkələrdə çap mm-lə (Rusiya, Avropa ölkələrində), bəzi ölkələrdə isə düymlə (Amerika, İngiltərə) ölçülür.
- Hamarlüləli ov silahlarının kalibri mm-lə deyil, şərti olaraq bir funt qurğusundan (454 qr) həmin silahın kalibrinə uyğun hazırlanan kürəsi güllələrin sayı ilə müəyyən olunur (məs: 16 kalibrli silah üçün 16 ədəd güllə).


Cinayətin törədilməsi vaxtı istifadə edilən silahın yerləşməsi ehtimal olunan yerlər
Hadisə yeri və onu əhatə edən sahələr (əgər silah cinayətkar tərəfindən tullanıbsa, gizlədilibsə və ya itirilibsə)
Şübhə edilən şəxsin geyimi (əgər o, silahı özündə gəzdirməyi davam edirsə)
Silahı gizlədə bilən ümumi istifadə və başqa yerlər
Şübhə edilən şəxsin yaşayış və iş yerləri


Unitar (vahid) patronun tərkib hissələri
Giliz
Piston
Mərmi (güllə, qırma, karteç)
Tıxac (ov patronları üçün)
Barıt dolumu

**Silahla davranışın kriminalistik qaydaları**

- silah üzərində ola bilən izləri qorumaq və öz əl-barmaq izlərini saxlamamaq məqsədi ilə silahı əlcək və ya əl ilə onun kənar, ya da çıxıntılı hissəsindən tutmaqla götürmək;
- lülə kanalını ətrafdakılara və özünə tuşlamamaq;
- barıt dənələrinin qalıqlarını qorumaq məqsədi ilə silahın lülə kəsiyini aşağı əymək;
- silahı mütləq boşaltmaq;
- sandığı dəstəkdən, patronu patron qabından çıxardıqdan sonra silahın mexanizmləri ilə heç bir hərəkət etməmək;
- lülə kanalına heç bir predmet salmamaq;
- tətiyi basmamaq.

**Protokolda silah haqqında əks olunan məlumatlar**

- silahın yerləşdiyi yer, onun vəziyyəti və lülə kanalının istiqaməti;
- modeli, çapı və nömrəsi;
- metal və digər səthlərin rəngi;
- mexanizmlərin vəziyyəti (çaxmaq, tətik, qoruyucu);
- sandıqda və patron qabında patronların olub-olmaması;
- yivlərin sayı və istiqaməti;
- lülə kanalının vəziyyəti (yağlı, hisli, korroziyalı);
- əl-barmaq izlərinin və kənar maddələrin olması (qan, torpaq və s.);
- silahın müayinəsi zamanı mexanizmləri ilə edilən dəyişikliklərin xarakteri.

**Silahların kriminalistik tədqiqində həll edilən əsas məsələlər**

- bu əşya odlu silaha aiddirmi (zavod və ya kustar üsulu ilə hazırlanıbmı);
- təqdim edilmiş silah hansı növə, çapa və modelə aiddir;
- təqdim edilmiş silah sazdırmı və atəş açmaq üçün yararlıdırmı (o, nasaz ola bilər, amma atəş açmaq üçün yararlı ola bilməz);
- təqdim edilmiş silahdan atəş açılıbmı;
- bu silahdan təqdim edilmiş patronlarla atəş açmaq mümkündürmü;
- tətiyi çəkmədən bu silahdan atəş açmaq olarmı;
- təqdim edilmiş silahda hansı markirovka qeydiyyatları dəyişikliyə məruz qalıb.

**Yivli avtomatik silahın detallarının giliz üzərində saxladıqları izlər**

- Sandığın dodaq izləri
- Doldurma və gilizi tullayan zaman tullayıcının qarmaq izləri
- Atəş zamanı vurucu milin izləri
- Atəş zamanı gilizin oturacaq hissəsində çaxmaq izləri
- Atəş zamanı patron qabının divar izləri
- Əksedicinin izləri

**Protokolda əks olunan məlumatlar**

**Gilizlər haqqında**

- yerləşdiyi yer və vəziyyəti;
- materialı, növü, forması (silindrik, butulkavari), ölçüsü (uzunluğu, oturacağın və lülə kəsiyinin daxili diametri);
- giliz korpusunun və pistonun rəngi;
- oturacaq hissəsində olan markirovka qeydiyyatları;
- güllənin bərkidilmə üsulu;
- vurucu milin izinin xarakteristikası (forması, yerləşməsi, ölçüsü);
- gilizdə olan deformasiyalar, cızıqlar, əlavə maddələr və yanmış barıt izi.

**Güllələr haqqında**

- yerləşdiyi yer və vəziyyəti;
- materialı, növü, örtüyün olması və onun rəngi;
- ölçüsü (uzunluğu, diametri) və ucunun forması (iti, hamar, dairəvi);
- lülə kanalı, yivlərin sayı və istiqaməti;
- deformasiyanın və əlavə maddələrin olması;
- gilizə bərkidilməsi üsulu;
- markirovka qeydiyyatların olması;
- maneədən çıxardılma üsulu.

**Giliz və güllələrin müəyyən model silahdan atılmasını göstərən əlamətlər**

- **Güllə üzərində olan izlərə görə**
  - Yivlərin sayı və istiqaməti
  - Yivlərin eni və əyilmə bucağı
- **Giliz üzərində olan izlərə görə**
  - Vurucu milin yerləşməsi və forması
  - Tullayıcı və əksedici izlərinin qarşılıqlı yerləşməsi
  - Avtomat silahın gilizlərinin tapıldığı yer (tullanma bucağı)
- **Giliz və güllələrin konstruktiv əlamətlərinə görə**
  - Materialın xarakteri və onun rəngi
  - Forması
  - Ölçüləri
  - Güllənin çəkisi

**Maneələrdə olan atəş izlərinin təsnifatı (güllə zədələrinin əlamətləri)**

- **Atəşin əsas izləri**
  - Dəlib keçən güllə zədələri
  - Kor güllə zədələri
  - Güllələrin, mərmilərin, kartecləri rikoşet izləri (səkdirmə izləri)
- **Atəşin əlavə izləri**
  - Qazların təsiri nəticəsində mexaniki dağılmalar (zərbə dalğası)
  - Maneənin yanması
  - Atəş hissələri
  - Maneəyə daxil olmuş barıt dənələri
  - Lülənin ön kəsiyinin izi (ştansmarka)
  - Maneənin üzərində güllənin sürtünmə dairəsi
  - Silah yağının damcıları (yağ hissəcikləri)


Atəş məsafəsi
Məsafə sm-lə
Yaxından (dirəyib) atmaq
Yaxın atəş
Uzaq atəş
Lülə kəsiyi maneənin səthinə sıx söykənmiş vəziyyətdədir
Tapançalar, revolverlər=50-80 sm. Karabinlər, avtomatlar=100 sm. Ov silahları=250-300 sm.
80-100-300 sm.
Atəşin əlavə izləri:
maneənin səthinin geniş dağılması;
ştansmarka.
Maneənin səthində əlavə atəş izləri
Kütlənin sürtünmə dairəsindən başqa əlavə izlərin olmaması
Əlamətlər

| Güllənin uçuş xəttinin müəyyən edilməsi üsulları | | |
|---|---|---|
| Bir maneədə olan dəlib keçən güllə dəliyinin mərkəzini digər maneədə olan güllə izi ilə tutuşdurmaq | İki maneədə olan dəliklərin mərkəzlərini tutuşdurmaq (iki çərçivəli pəncərənin şüşələrində) | Kor güllə kanalını mərkəzinə yerləşdirilmiş oxa əsasən tutuşdurma (əgər onun dərinliyi güllənin iki diametrindən çoxdursa) |
| | | |



**Odlu silah zədələri haqqında protokolda əks olunan əsas məlumatlar**

- maneənin növü və xassəsi;
- maneədə zədənin yerləşməsi (məs: kəllənin sağ gicgah sümüyü hissəsində);
- bir neçə zədənin qarşılıqlı yerləşməsi;
- zədələrin forması və ölçüləri (diametr, kanalın dərinliyi, uzunluğu);
- atəşin əlavə izlərinin xarakteristikası (forması, rəngi, hissin intensivliyi).

**Odlu silah zədələrinin tədqiqində həll edilən əsas məsələlər**

- bu odlu silah zədəsidirmi;
- zədələr hansı növ və kalibr silahdan əmələ gələ bilər;
- atəş hansı məsafədən və istiqamətdən açılıb;
- maneəyə atəş hansı ardıcıllıqla açılıb;
- zərərçəkən onlardan hansı ilə yaralanıb;
- atəş zamanı silahla zədələnmiş obyektin nisbi vəziyyəti necə olub;
- bu anda zərərçəkən hansı vəziyyətdə olub.

**MÖVZU № 8. SƏNƏDLƏR, ƏLYAZMALAR, MAKİNA YAZILARI VƏ ONLARIN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA ƏHƏMİYYƏTİ**

**Kriminalistikada sənəd** – hər hansı baş vermiş və ya nəzərdə tutulmuş fakt və hallar haqqında məlumatların qeyd (əks) edildiyi maddi obyektdir.



## Sənədlər – maddi sübutlar ola bilər

- ***Cinayətin törədilməsi vasitəsi*** — Məsələn, saxta qaimələr, hesablar, çeklər və s.
- ***Cinayətin gizlədilməsi vasitəsi*** — Məsələn, anonim məktublar (araşdırmanı yanlış istiqamətə yönəltmək məqsədi ilə)
- ***Cinayətin qəsdinin bilavasitə obyekti*** — Məsələn, oğurlanmış, yandırılmış və ya parçalanmış sənədlər

## Maddi sübut olan sənədlərlə davranış qaydaları

| | |
|---|---|
| Maqqaşla, əlcəklə, ya da künclərdən tutmaqla ələ götürmək | Onlar üzərində ola bilən əl-barmaq izlərini məhv etməmək və öz əl-barmaq izlərini saxlamamaq üçün |
| Onlar üzərində yazılar, qeydlər etməmək: möhür və ştamp əkslərini qoymamaq | Sənədin xarici görünüşünü dəyişməmək üçün |
| Əyməmək və əlavə qatlamalar etməmək | Sənədin əzilməsinin və orada olan qeydlərin korlanmasının qarşısını almaq üçün |
| İşə tikməmək, sancaqla bərkitməmək, işə ayrıca zərfdə əlavə etmək | Sənədin xarici görünüşünü saxlamaq və onun sonrakı tədqiqatını təmin etmək üçün |


Sənədlərin kriminalistik tədqiqatının növləri
Yazının kriminalistik tədqiqatı
Sənədlərin texniki-kriminalistik tədqiqatı


Yazını tam xarakterizə edən eyniləşdirmə əlamətlərinin təsnifatı
Yazılı nitqin əlamətləri
Yazı xəttinin əlamətləri
Yazının topoqrafik əlamətləri (bütün mətnin və onun ayrı-ayrı hissələrinin yerləşməsinin xüsusiyyətləri
Yazının xüsusi vərdişləri

**Yazı nitqinin əlamətləri**

- Yazının ifadə üslubu - əlyazmanın kompozision quruluşu və ifadə olunduğu dil (arxitektonika)
- Ümumi qrammatik səviyyə, yazını icra edən şəxsin ümumi qrammatik qaydaların mənimsəmə dərəcəsi
- Leksika – söz ehtiyatı: yazını icra edən şəxsin leksik əlamətlərini, onun ümumi təhsil səviyyəsini, professional inkişafını xarakterizə edir. Leksikanın xüsusiyyətləri: arxaizm, neologizm, dialektizm, jarqon sözlər və s.

**Yazının topoqrafik əlamətləri**

- Vərəqin kənarlarında boş qoyulan yerlərin həcmi və forması
- Sətirlərin forması və istiqaməti
- Sətirlər və sözlər arasındakı intervalların ölçüləri
- Abzasın yerləşməsi və ölçüləri
- Durğu işarələrin, əlavələrin, səhifələrin, numerasiyanın yerləşməsi
- Tarixin yerləşməsi
- Sərlövhələrin və müraciətlərin yerləşməsi
- İmzanın yerləşməsi
- Zərfin üzərində ünvanın yerləşməsi


Yazının xüsusi vərdişləri
Mətnin ayrı-ayrı hissələrin ayrılması üsulları (sərlövhə, ayrı-ayrı sözlər və ya cümlələr və s.)
Tarixlərin özünə məxsus icra edilməsi (rum və ya ərəb rəqəmləri, sözlə və s.)
Düzəlişlərin verilməsinin vərdiş edilmiş üsulları (qaralamaq, yeni qeydlər əlavə etmək və s.)
Bir sətirdən digərinə keçərkən heca işarələrinin olub-olmaması, onların təkrarlanması
Səhifələrin nömrələnməsi üsulu


Yazı xəttinin xassələri
Fərdilik – yazan şəxsin yazı işarələrinin icrasında istifadə etdiyi özünəməxsus hərəkətlərdir
Sabitlik (nisbi dəyişilməzlik) – az və ya çox vaxt ərzində yazı xəttində özünəməxsus xüsusiyyətlərin saxlanması kimi başa düşülür. Yazı xəttinin sabitliyinin əsasını dəyişməz yazı vərdişi və dinamik stereotip təşkil edir


Yazı xəttinin əlamətlərinin təsnifi
Ümumi
Əsasən qrup əhəmiyyəti kəsb edir
Xüsusi
Yazı işarələrinin və onların elementlərinin icrasının xüsusiyyətlərini müəyyən edir. Şəxsin yazı xəttinə görə eyniləşdirilməsində həlledici əhəmiyyət kəsb edir

**Yazı xəttinin ümumi əlamətlərinin xarakteristikası**

**Vərdişlik**

Yazını icra edən şəxsin müasir sürətli yazı sistemindən istifadə etmək bacarığını əks etdirir, hərfi işarələrin və onların birləşmələrinin icrasında hərəkətlərin koordinasiyası və yazının sürəti ilə müəyyənləşdirir.

- Yüksək vərdişi
- Orta vərdişi
- Aşağı vərdişi

**Mürəkkəblik (quruluşu)**

Yazı işarələrinin və onların konfiqurasiyasının hansı hərəkətlə (sadə, mürəkkəb) yerinə yetirilməsini göstərir.

- Mürəkkəbləşmiş
- Bəsit
- Sadə

**Ümumi forma və hərəkətin istiqaməti**

Yazı işarələrinin icrasında və birləşməsində, hərəkətin istiqamətində və formasında əks olunur.

- Dairə ilə (sağa dairə ilə, sola dairə ilə)
- Bucaqla
- Düzxətli, əyrixətli

*Ardı növbəti səhifədə*

**Sürət vermə**

Hərəkətin üfüqi davamlılığını xarakterizə edir: işarələrin eninə görə hündürlüyünü və onlar arasında məsafəni müəyyən edir.

- Yayılmış (aralı)
- Orta sürətlə
- Sıx (hərflərin eni, hündürlüyündən azdır)

**Əlaqəlik**

Yazı alətini ayırmadan yazı işarələrini fasiləsiz hərkətlərilə əlaqələndirmək bacarığı

- Seyrək (1-2 işarə)
- Orta əlaqəlilik (3-4 işarə)
- Yüksək əlaqəlilik (5 və daha çox işarə)

**Əyilmə**

Yazı işarələri oxunan yazının sətir xətlərinə nisbətən mövqeyi

- Solmeylli
- Sağmeylli
- Düz (şaquli)

*Ardı növbəti səhifədə*

**Ölçü**

Sətir hərflərinin hündürlüyünü müəyyən edir.

- Xırda (2 mm-dən az)
- Orta (3-4 mm)
- İri (5 mm-dən çox)

**Təzyiq etmə**

Yazı işarələrinin icrası zamanı yazı alətinə yönələn təzyiq və onun intensivliyi.

- Zəif təzyiqetmə
- Orta təzyiqetmə
- Güclü təzyiqetmə

**Yazı xəttinin xüsusi əlamətləri**

| | |
|---|---|
| **Hərəkətlərin forması** | Yazı işarələrinin elementlərinin cizgilərini xarakterizə edir (düz xətli, əyri xətli, bucaqla) |
| **Hərəkətlərin istiqaməti** | Aşağıdan yuxarı, yuxarıdan aşağı, soldan sağa və ya sağdan sola və s. |
| **Hərəkətlərin sıxlığı** | Ayrı-ayrı yazı işarələrinin və onların elementlərinin böyüdülməsi və ya kiçildilməsi ilə xarakterizə olunur |
| **Hərəkətlərin birləşməsi növü** | Bitişik və ya intervalla (vərdiş edilmiş fasilə ilə) |
| **Hərəkətlərin sayı** | Yazı işarəsinin icrası zamanı edilən hərəkətlərin sayının azaldılması və ya çoxaldılması hallarında büruzə verilir |
| **Hərəkətlərin ardıcıllığı** | Yazı işarələrinin elementlərinin icra ardıcıllığı yazı nümunəsinə uyğun gəlmədikdə seçilir |
| **Hərəkətin yerləşməsi** | Yazı işarəsinin elementlərinin yazı sətir xəttinə nisbətən yerləşməsi, həmçinin elementlərin qarşılıqlı vəziyyətini xarakterizə edir |
| **Hərəkətlərin mürəkkəbliyi** | Konkret yazı işarəsinin quruluşunu xarakterizə edir: icra zamanı hərəkətin sadələşməsində və yazı işarələrinin elementlərinin əlaqələndirilməsində seçilir |

**Yazı xəttinin sərbəst nümunələrinə göstərilən əsas tələblər**

| *Əmələ gəlməsi gerçəkliyi (şübhəsizliyi)* | *Tədqiq edilən sənədə uyğunluğu* | *Nümunələrin kifayət qədər olması (say etibarilə)* |
|---|---|---|
| Sənədin başqa şəxs tərəfindən yox, bilavasitə bu şəxs tərəfindən icra olunması | Nümunələrin yazılma vaxtına, formaya, mahiyyətə mütləq yaxın olmalı, eyni dildə, eyni tipli kağızda və analoji yazı alətləri ilə icra olunmalıdır | Əlyazmalar 2-3 səhifə, imzalar 10-15 səhifə (hər səhifədə 10-15 imza olmaq şərti ilə) |

**Yazı xəttinin bilərəkdən dəyişməsi üsulları**

- Tez-tez yazmaqla xəttin maskalanması
- Çap hərfləri formasında icra edilməsi
- Yazının sağ və sol əl ilə icra edilməsi
- Başqa şəxsin yazı xəttinə bənzətmə

**Əlyazma sənədlərin kriminalistik tədqiqatı imkanı verir**

- sənədin müəllifi haqqında məlumatlar toplamaq;
- sənədin eyni və ya müxtəlif şəxslər tərəfindən icra edilməsini müəyyənləşdirmək;
- sənədin konkret şəxs tərəfindən icra olunması mələsini həll etmək.

**Sənədlərin texniki-kriminalistik tədqiqinin obyektləri**

- Saxtalaşdırılmış sənədlər
- Tipoqrafiya və makina mətnləri
- Sənədlərin materialları – kağız, yapışqan, ştrixlərin rəngləri
- Möhür və ştampın əksləri
- Zədələnmiş sənədlər
  - Cırılmış
  - Yandırılmış
  - Qaralanmış və rəngini itirmiş mətnlər
- Gizli yazılmış (gözə görünməyən və şifrli müəyyən mənada) mətnlər

**Sənədlərin saxtalaşdırılması növləri**

- Tam saxtalaşdırma – sənəd və onun rekvizitlərinin tam hazırlanması
- Qismən saxtalaşdırma – həqiqi sənədin mahiyyətinə və ya ayrı-ayrı rekvizitlərinə dəyişikliklərin edilməsi

**Sənədlərin saxtalaşdırılması növləri**

- Pozma – mətnin hissəsinin mexaniki yolla təmizlənməsi
- Kimyəvi təmizləmə - mətnin kimyəvi reaktivlər və həlledicilər vasitəsilə təmizlənməsi
- Yazıya əlavə
- Hissələrinin dəyişdirilməsi
  - Ayrı-ayrı əlavələrin yapışdırılması
  - Fotoşəkillərin yenidən yapışdırılması
  - Vərəqlərin yapışdırılması

**Sənədlərin qismən saxtalaşdırılmasının əlamətləri**

**Pozma zamanı**

- kağızın üst təbəqəsinin quruluşunun pozulması (liflərin parlaqlığının zəifləməsi və yox olması);
- kağızın nazikləşməsi (işıq keçirmə qabiliyyətinin artması);
- kağızda olan cizgilərin, mühafizə təbəqəsinin və blankın başqa çap elementlərinin zədələnməsi;
- pozulmuş ştrixlərin qalıqları;
- yeni icra edilmiş mətnin ştrixlərində rənglərin bulanıqlığı.

**Kimyəvi pozma zamanı**

- kimyəvi maddələrin təsiri nəticəsində ağımtıl ləkələrin yaranması;
- kağızın rənginin dəyişməsi;
- cizgilərin və mühafizə təbəqəsinin rəngsizləşməsi;
- kağızın zərifliyinin artması;
- səthin nahamar olması;
- pozulmuş ştrixlərin rənginin qalıqları.

**Əlyazma əlyazmalar zamanı**

- sətirlər, sözlər, hərflər və onların elementləri arasında məsafənin qeyri-bərabər olması;
- mətnin müəyyən hissəsində xəttin ölçüsünün və sürətinin azalması;
- eyni adlı işarələrdə ştrixlərin meylinin eyni olmaması;
- əsas mətnin ştrixlərinin dairəyə alınması, onların yoğunlaşması və ikiləşməsi;
- ştrixlərin rənglərinin və cizgilərinin müxtəlifliyi;
- sənədin mahiyyətində məntiqi quruluşun pozulması.

**Makina ilə əlavə zamanı**

- istifadə olunan makinaların ümumi və xüsusi əlamətləri arasında fərq;
- mətnin ayrı-ayrı hissələrində olan işarələrdə rəngin intensivliyində fərq;
- əsas mətnin sətir xətti ilə əlavə edilmiş sətir xəttinin üst-üstə düşməməsi;
- mətndə sətirlərin qeyri-paralel olmaması;
- mətndə sözlərin məntiqsiz ixtisar edilməsi.

*Ardı növbəti səhifədə*

**Sənədin vərəqlərinin dəyişdirilməsi zamanı**

- səhifələrin nömrələnmə qaydasının pozulması və onların bir-birinə uyğun gəlməməsi;
- mətbəə şriftinin mühafizə təbəqəsinin rəngində, formasında və ölçülərində uyğunsuzluqlar;
- rənginə, ölçüsünə, keyfiyyətinə və işlənmə dərəcəsinə görə vərəqlərin bir-biri ilə uyğun gəlməməsi;
- xəttin əlamətlərində fərq.

**Fotoşəkillərin dəyişdirilməsi zamanı**

- fotoşəkildə möhür əksinin olmaması;
- fotoşəkildə və sənədin blankında relyef və möhür əkslərinin ştrixlərinin üst-üstə düşməməsi;
- fotoşəkildə kəsiyin olması və ayrı-ayrı hissələrinin üst-üstə düşməməsi;
- Fotoşəklin emosiya səthinin deformasiyası və təbəqədən ayrılması;
- Fotoşəklin altında görünən yapışqanın müxtəlif rəngdə olması.

**Saxtalaşdırılmış möhür və ştamp əkslərinin texniki-kriminalistik tədqiqatı**

| ***Bilavasitə sənəd üzərində əkslərin rəsmlə təsvir edilməsi*** | ***Həqiqi əkslərin surətinin çıxardılması*** | ***Kustar üsulla hazırlanmış möhür və ştamplardan istifadə olunması*** |
|---|---|---|
| • basma izləri (qələmdən, reysfeder);<br>• surət çıxardan kağızın və ya karandaş ştrixlərinin əksləri (ilkin hazırlıq izləri);<br>• ştrixlərin ikiləşməsi;<br>• intervalların qeyri-bərabər olması;<br>• rəngin ştrixin sərhədindən kənara çıxması;<br>• ştrixlərin əyriliyi və sətir xətlərinin sınması. | • hərf əkslərinin parlaqlığı;<br>• ştrix rənglərinin qeyri-bərbər və ya zəif olması, onların sərhədlərinin dəqiq olması;<br>• rənglərin bulanıqlığı;<br>• parlaqlığın azalması;<br>• kağızın deformasiyaya uğraması;<br>• əkslərə əlavə etmənin izləri. | • şriftin qeyri-standart olması;<br>• sözlərdə olan eyni adlı hərflərin qrafik əksləri və ölçüləri arasında fərq;<br>• hərf oxlarının dairənin radiusu ilə uyğun gəlməməsi;<br>• gerb əkslərində və əksin başqa elementlərində simmetriyanın olmaması;<br>• sətir xəttinin əyilməsi;<br>• əksin ayrı-ayrı elementlərinin parlaqlığı;<br>• qrammatik səhvlər. |

**Saxtalıq əlamətləri**

**Saxta imzaların texniki-kriminalistik tədqiqatı**

| ***Surət çıxardan kağızı tətbiq etməklə, onun sonradan cızılması yolu ilə*** | ***İmzaya başqa predmetlə təsir göstərərək və ya vərəqi tutmaqla onun şəklini çəkmək*** | ***Surət çıxartma qabiliyyətinə malik materialları vasitəsi ilə*** |
|---|---|---|
| ▪ surət çıxardan kağıza məxsus ştrixlərin olması;<br>▪ infraqırmızı şüalarla işıqlanmada bu ştrixlərin başqa mətnlərdə hopması; | ▪ vərəqin üz hissəsində imzanın ştrixlərinin dərin və arxa tərəfdən isə relyeflərin – qabarıq əks olunması;<br>▪ xətlərin əyri olması;<br>▪ ştrixlərin sınma bucaqla olması, onların yoğunlaşması;<br>▪ əlavə elementlərin olması. | ▪ ştrix rənglərinin müxtəlifliyi, zəifliyi və ya dağınıq olması;<br>▪ ştrixlərdə kənarların aydın olmaması;<br>▪ sənədin üst təbəqəsinin qabarıq olması;<br>▪ sənədin ayrı-ayrı hissələrində rənglərin müxtəlif olması. |

**Saxtalığın əsas əlamətləri**

## YAZI MAKİNA SƏNƏDLƏRİNİN TƏDQİQATI

**Makinanın mətndə əks olunan əlamətləri**

**Qrup əhəmiyyətli əlamətlər (ümumi)**

*Əsas mexanizmin addımı*

Makinanın düyməciklərinə təsir edərkən onun karetasının hərəkət etdiyi məsafədir.

*Sətirlərarası interval*

Sonrakı sətrə keçən zaman karetanın öz oxu ətrafında dönməsinin həcmi ilə müəyyən edilir.

*Şriftin tipi*

İşarələrin ölçüsünü (hündürlüyü, eni), formasını xarakterizə edir.

*Klaviaturanın tipi*

Makinanın malik olduğu işarələrin dəsti (sayı) ilə müəyyən edilir.

**Fərdi əhəmiyyətli əlamətlər (xüsusi)**

- Ayrı-ayrı hərflərin şaquli (yuxarı, aşağı) üfüqi (sağa, sola) yerləşməsi.
- Hərflərin ayrı-ayrı hissələrinin olmaması.
- Hərflərin mailliyi (sağa, sola).
- İşarə əksinin hissələrinin müxtəlif rənglərlə olması.
- Hərflərdə və rəqəmlərdə ştrixlərin və ovalların əyriliyi.
- Çap sifarişlərində ştrixlərin paralel olması.

**Yazı makina mətnlərinin kriminalistik tədqiqində həll edilən məsələlər**

- sənədlər (və ya onların hissələri) bir və ya bir neçə makinada çap olunubmu;
- sənəd (və ya onun hissəsi) hansı makinada çap olunub;
- sənəd konkret yazı makinasında çap olunubmu.

Sənədə baxış və öyrənilməsi

Axtarış cədvəlinin tərtib edilməsi

Əlyazma və makina sənədləri ilə işin mərhələləri

Nümunələri ilə ilkin müqayisə edilməsi

Kriminalistik ekspertizanın keçirilməsi

**Sənədlərdə istintaq baxışının vəzifələri**

- Sənədin ümumi xarakterinin və təyinatının aydınlaşdırılması
- Sənədin materialının öyrənilməsi
- Sənədin xarici görünüşünün və vəziyyətinin öyrənilməsi
- Sənəddə saxtalıq əlamətlərinin aşkar edilməsi
- Sənədin mahiyyətinin və rekvizitlərinin öyrənilməsi

**Sənədlərə baxış zamanı tətbiq edilən texniki-kriminalistik vasitələr və üsullar**

- Çəpinə düşən işıqda baxış
- Keçə işıqda baxış
- Optik vasitələr tətbiq etməklə baxış (böyüdücülər, mikroskoplar, ilıq süzgəcləri və s.)
  - Göy işıqda və tünd qırmızı şüalarda baxış
  - Ultrabənövşəyi və infraqırmızı işıqda şüalarda baxış

**Sənəd haqqında protokolda əks olunan məlumatlar**

- sənədin tam adı və növü;
- onun seriyası və nömrəsi;
- nə vaxt, kimə, kim və hansı müddətə verilib;
- möhür və ştamp əkslərinin olması, onların mahiyyəti və yerləşməsi;
- müəyyən edilmiş blankın olub-olmaması;
- sənədin materialının (kağız) xarakteri (onun keyfiyyəti, rəngi, vəziyyəti və s.);
- mətnin icra edilməsi üsulu (əlyazma, makina, mətbəə və s.);
- mürəkkəbin rəngi;
- sənədin mahiyyəti (tam ya da başlanğıc və son sözlər);
- sənəddə olan müxtəlif yazılar və qeydlər;
- sənəddə ola bilən saxtalıq əlamətləri;
- sənədə baxış keçirilməsində istifadə olunan texniki-kriminalistik vasitələr və üsullar.

## MÖVZU № 9. QABİTOSKOPİYA – ONDAN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA İSTİFADƏ EDİLMƏSİ

**Qabitoskopiya** – kriminalistika texnikasının bir hissəsi olub şəxsiyyətin eyniləşdirilməsi və axtarılması məqsədi ilə xüsusi terminologiya tətbiq etməklə insanın zahiri əlamətlərinin müəyyən sistem əsasında təsvir edilməsi deməkdir.




Təsvir edilən şəxsin yaş, cins və milli mənsubiyyəti
Şifahi portret metodu üzrə insanın zahiri görünüşünün təsvir edilməsi sxemi
Anatomik və antropoloji əlamətlər
İnsan bədəninin xarici quruluşunu xarakterizə edir
Funksional əlamətlər
Şəxsin hərəkət, nitq və başqa əlamətlərini xarakterizə edir
Xüsusi əlamətlər
Şırımlar, xallar, tatuirovkalar, bədən hissələrinin olmaması, axsaqlıq, pəltəklik və s.
Paltar, bəzək və başqa predmetlər
Özündə həmişə gəzdirən (eynək, saat, əl ağacı, sumka və s.)


Zahiri əlamətlərə görə şəxsin eyniləşdirilməsi həyata keçirilir
Maddi əks olunmuş əkslər üzrə (fotoşəkillər, meyitlər və sümük qalıqları)
İnsan yaddaşında həkk olunmuş fikri obraz üzrə
Predmetlərin təsviri üzrə

**Baş, sifət və onun hissələrinin təsvir edilməsində aşağıdakılar göstərilir**

**Ölçü (kiçik, orta, böyük)**

Məsələn: ağız-böyük

**Forma (dairəvi, qabarıq, yastı)**

Məsələn: üzün forması-oval

**Kontur (düz, qırıq)**

Məsələn: alnın konturu düz

**Vəziyyət (üfüqi, qabağa əyilmiş, arxaya əyilmiş)**

Məsələn: burnun əsası aşağıya düşmüş

**Rəngi (qarabuğdayı, qumral, sarı və s.)**

Məsələn: gözləri-mavi

**Xüsusiyyətləri**

Məsələn: üst dodağın haçalanması

**Funksional (dinamik) əlamətlərinin təsvir edilməsi ardıcıllığı**

**Qamət**
Gövdənin, başın və qolların adət edilmiş vəziyyətidir

**Mimika**
Üz əzələlərinin insanın psixi vəziyyətinin təsirindən irəli gələn hərəkətlərinə deyilir

**Yeriş**
Bədənin hərəkət zamanı vərdiş edilmiş xüsusiyyətlərdir (ağır, yüngül, tez, səndələnən, yırğalanan)

**Nitq**
Dil, dialekt, ləhcə və səs (güclü, zəif, tenor, xırıltılı və s.)

**Əl-qol hərəkəti**
Danışarkən nitqə daha təsirli ifadə vermək üçün əl-qolun hərəkət etdirilməsi deməkdir

**Davranış qaydaları**
Müəyyən hərəkətlərin icrasında stereotip xüsusiyyətlər deməkdir (salamlaşmaq, siqaret tutmaq, gülmək və s.)

**İnsanın zahiri görünüşünün əlamətləri və əlavə elementlər**

- **Daimi**
  - Protezlər, əl ağacı
  - Eşitmə aparatları
  - Eynək
  - Ayaqqabı
  - Baş geyimləri
  - Paltar
- **Gəzdirilən**
  - Pariklər
  - Yazı ləvazimatları və nişanlar
  - Bəzək əşyaları
  - Siqaret çəkmək üçün ləvazimatlar
  - Çətirlər, saatlar
  - Çantalar, portfellər

**Xüsusi əlamətlər**

*Qruplardan kəskin fərqlənən*

*Zahiri görünüşünün dəyişilən və təsadüfi elementlərinin xarakteristikası*

*Müəyyən elementin kəskin dərəcədə gözə çarpması*

*Cərrahiyyə əməliyyatı və xəsarət izlərinin xarakteristikası*

*Anomaliya və eybəcərlik elementləri*

*Tatuirovkanın mahiyyəti və əlamətlərinin xarakteristikası*

**Anotomik əlamətlərinin və elementlərinin təsvir edilməsi ardıcıllığı**

1. Ümumi bədən quruluşu.
2. Baş bütünlüklə.
3. Başda və sifətdə tük örtüyü.
4. Sifət və onun hissələri:
   - alın - burun - çənə altı
   - qaşlar - dodaqlar - qulaq seyvanı
   - dişlər
5. Boyun
6. Çiyinlər.
7. Sinə.
8. Bel.
9. Əllər.
10. Ayaqlar.
11. Xüsusiyyətlər hər bir elementin və ya bütün elementləri təsvir etdikdən sonra təsvir edilir.

**Zahiri əlamətlərin dəyişməsi qanunauyğunluqları**

- ***Canlı şəxsdə***
  - İnsan orqanizmində baş verən təbii yaş-hədd dəyişiklikləri
  - İnsan orqanizminin patoloji dəyişiklikləri (xəstəlik nəticəsində)
  - Zədələr, cərrahiyə əməliyyatları, tibbi kosmetika və plastik əməliyyat nəticəsində süni dəyişikliklər
- ***Meyitdə***
  - Ölümdən sonra baş verən çürümə prosesi nəticəsində təbii dəyişikliklər
  - Qəsdən meyitin eybəcər hala salınması nəticəsində süni dəyişikliklər
  - Heyvanların və həşəratların təsirindən


İnsanın zahiri əlamətləri haqqında məlumatların mənbəyi
İnsanlar
Tərtib olunmuş sənədlər
Meyit və sümük qalıqları
Əyani təsvir
DİO-nun orqanları
Başqa idarələrin əməkdaşları
Xüsusi şəxslər
İstintaq hərəkətləri
Əməliyyat-axtarış tədbirləri
Xüsusi tədqiqatlar
Fotoşəkillər
Videoyazılar
Kinolentlər
Mətbəə reproduksiyaları
Rentgen əksləri
Subyektiv portretlər
Ölən şəxsin sifətinin maskası


DİO-nun fəaliyyətində insanın zahiri əlamətlərinin istifadə olunması istiqamətləri
İnzibati fəaliyyət
Əməliyyat-axtarış fəaliyyəti
İbtidai araşdırma
Məlumat-arayış fəaliyyəti
Şəxsiyyəti məlum olmayan şəxslərin axtarışı
Şəxsiyyəti məlum olan istintaq və məhkəmə orqanlarından gizlənən şəxslərin axtarışı
İtkin düşmüş şəxslərin axtarışı
İlkin tədqiqat
Naməlum meyitin şəxsiyyətinin müəyyən edilməsi
Məhkəmə-portret ekspertizası

**Kriminalistika təcrübəsində insanın zahiri əlamətlərinin əkslərindən istifadə olunması**

- Subyektiv
  - İdeal
  - Material
    - Şifahi təsvir etmə
    - Sistemləşdirmə (şifahi portret metodu əsasında)
    - Subyektiv portret
    - Rəsmçəkmə
    - Kompozision şəkilçəkmə
    - Kompozision rəsmçəkmə
    - Kəllə sümüyünə görə sifətin bərpa olunması
    - Plastik
    - Qrafik
- Obyektiv
  - Fotoşəkillər
  - Kinolentlər
  - Rentgen şəkilləri və flüoqramma
  - Ölən şəxsin sifətinin surətləri
  - Videoyazı
  - Predmetlər və izlər

## MÖVZU № 10. KRİMİNALİSTİK QEYDİYYATLAR VƏ ONLARIN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA İMKANLARI

**Kriminalistik qeydiyyat** – cinayətin istintaqında və qarşısının alınmasında, cinayətkarlar, cinayətin edilməsi ilə əlaqədar bir sıra digər hallar haqqında əldə edilən məlumatlardan daha mütəşəkkil istifadə etmək məqsədi ilə aparılan xüsusi qeydiyyat sisteminə deyilir.

**Kriminalistik qeydiyyatın vəzifələri**

- Məhkəmə, istintaq və əməliyyat-axtarış orqanlarını cinayətdə şübhə etməkdə tutulan və ya cinayət məsuliyyətinə cəlb olunan, azadlıqdan məhrumetmə yerlərindən qaçan, axtarışı elan edilən şəxslər haqqında zəruri məlumatlarla təmin etmək
- Saxlanılmış izlərə və cinayətkar hərəkətlərin üsullarına görə cinayətkarların müəyyənləşdirilməsində və axtarışında kömək göstərmək
- İtkin düşmüş şəxslərin axtarışında və şəxsiyyəti müəyyən edilməmiş meyitlərin tapılmasında kömək göstərmək
- Bir neçə cinayətin bir şəxs tərəfindən və ya eyni cinayət aləti və vasitələri tətbiq etməklə törədilməsi, həmçinin hadisə yerində axtarış zamanı götürülən, könüllü təhvil verilən silahların, qiymətli əşyaların və sənədlərin əvvəlcədən oğurlanması və ya itirilməsi haqqında məlumatlarla təmin etmək

**Kriminalistik qeydiyyatın obyektləri**

- Cinayətkarlar, təqsirləndirilən və ya cinayətdə iştirak edən şəxslər
- İtkin düşmüş şəxslər və şəxsiyyəti məlum olmayan meyitlər
- Oğurlanmış və sahibsiz heyvanlar
- Cinayətin törədilməsi vasitələri və qəsdin predmeti (oğurlanmış əşyalar, silahlar və sənədlər)
- Götürülmüş, tapılmış könüllü təhvil verilmiş odlu silahlar

**Kriminalistik qeydiyyatın əsas formaları**

- Kartotekalar
- Siyahılar (jurnallar)
- Albomlar fotoşəkillərdə
- EHM üçün massiv
- Mikrofilmlər (avtomatlardan istifadə etməklə)
- Atılmış giliz və güllələrin kolleksiyası

**Kriminalistik qeydiyyatın üsulları**

- Əlifba
- Cinayətin törədilməsi üsuluna görə
- **Daktiloskopik**
  - On barmaq
  - Beş barmaq
  - Bir barmaq
- Maddi əkslərin təsvirinə görə
- Zahiri əlamətlərə görə

**Cinayətkarların, təqsirləndirilən və cinayətdə şübhə edilən şəxslərin qeydiyyatı**

- Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər
- Cəza çəkən cinayətkar-residivistlər, hansılardan ki, yeni cinayətlərin törədilməsini gözləmək olar
- Yeni cinayətlər törədə biləcək azadlıqdan məhrum etmə yerlərindən qayıtmış residivistlər
- Şübhə edilən şəxslər (cinayət törətməkdə şübhə edilən şəxs kimi saxlanılan və təqsirləndirilən sifətində cəlb olunana qədər həbs olunmuş şəxslər)
- Azadlıqdan məhrum etmə yerlərindən qaçan və axtarışı elan edilmiş şəxslər
- Törətdiyi əmələ görə azadlıqdan məhrum etmə cəzasına məhkum oluna bilən təqsirləndirilən şəxslər
- Cinayət hadisəsinin baş verdiyi yerdən qaçıb gizlənən naməlum cinayətkarlar


Cinayətkarların, təqsirləndirilən şəxs qismində cəlb olunan və ya cinayətdə şübhə edilən şəxslərin qeydiyyatının hüquqi əsasları
Məhkəmənin hökmü və ya qərardadı
Qətimkan tədbiri-həbs seçilməsi haqqında məhkəmənin qərarı
Təqsirləndirilən şəxs sifətində cəlb etmə haqqında qərar (qətimkan tədbiri həbs seçilmədən)
Cinayətdə şübhə edilən şəxsin tutulması protokolu
Əlifba və daktiloskopik qeydiyyat

# III HİSSƏ

# KRİMİNALİSTİKA TAKTİKASI

# MÖVZU № 11. KRİMİNALİSTİK TAKTİKANIN ANLAYIŞI VƏ SİSTEMİ, ONUN CİNAYƏTİN AŞILMASINDA, ARAŞDIRILMASINDA ROLU

**Kriminalistik taktika** – təhqiqat, ibtidai istintaq, məhkəmə orqanları tərəfindən maddi sübutların toplanması, tədqiq edilməsində və ekspert müəssisəsində tədqiqat məqsədləri üçün istifadə olunan metod və vasitələrin ümumi sistemidir.

**Kriminalistik taktikanın elmi əsaslarının strukturu**

- *Prosessual*
- *Psixoloji*
- *Məntiqi*
- *Taktiki*
- *Mənəvi*

**Kriminalistik taktikanın mahiyyəti**

- İstintaqın planlaşdırılmasının, istintaq hərəkətlərinin daha səmərəli keçirilməsinə yönələn tövsiyələr
- Xüsusi biliklərin və elmi-texniki vasitələrin daha səmərəli istifadə olunmasına yönələn tövsiyələr
- Cinayətlərin istintaqında əməliyyat-axtarış məlumatlarından istifadə, CA, DYP, bölmələri ilə qarşılıqlı əlaqəyə dair tövsiyələr
- Cinayət işində iştirak edən şəxslər barəsində tərbiyəvi xarakterli tövsiyələr
- Cinayətlərin xəbərdar edilməsinə yönələn tövsiyələr
- Cinayətlərin törədilməsinə şərait yaradan səbəb və şəraitlərin aşkarlanmasına yönələn tövsiyələr
- Cinayətlərin istintaqında ictimaiyyətin köməyindən maksimum istifadə olunmasına yönələn tövsiyələr


Kriminalistika taktikasının anlayışı, mahiyyəti və məzmunu
Kriminalistika taktikasının mənbəyi
Kriminalistika taktikasının kriminalistika elminin başqa hissələri ilə və digər elmlərlə əlaqəsi
Kriminalistika taktikasında istifadə olunan əsas anlayışlar
Kriminalistika taktikasının ümumi müddəaları
Kriminalistika taktikasının mahiyyəti
Ayrı-ayrı istintaq hərəkətləri taktikası
Dindirmə və üzləşdirmə taktikası
İstintaq baxışı taktikası
Axtarış və götürmə taktikası
İstintaq eksperimenti taktikası
Tanınma üçün təqdim etmə taktikası
İfadələrin yerində yoxlanılması taktikası
Müqayisəli tədqiqat üçün nümunələrin götürülməsi taktikası
Ekspertizanın təyin edilməsi və keçirilməsi taktikası
Tutulma taktikası

**Taktiki üsul** – ayrı-ayrı prosessual hərəkətlərin hazırlanması və keçirilməsində, ibtidai və məhkəmə istintaqının təşkili və planlaşdırılmasında daha məqsədəuyğun davranış xətti və səmərəli hərəkət üsuludur.






## MÖVZU № 12. İSTİNTAQ ŞƏRAİTİ VƏ FAKTİKİ QƏRAR, ONLARDAN CİNAYƏTİN AÇILMASINDA VƏ ARAŞDIRILMASINDA ROLU

**İstintaq şəraiti** – obyektiv kateqoriya olub, predmetlərlə hadisələr arasında müvəqqəti real münasibət kimi başa düşülür.

**İstintaq şəraitinin təsnifi**

- İdeal və real
- Tipik və spesifik
- Mübahisəli və mübahisəsiz
- Əlverişli və əlverişsiz
- Sadə və mürəkkəb
- Sabit və dəyişkən
- Ümumi və dəyişkən
- İlkin, aralıq və son

| **Taktiki qərar – istintaq şəraitinə, istintaq prosesinə və onun nəticələrinə təsir göstərmək üçün məqsədlərin seçilməsi və bununla əlaqədar metodların, vasitələrin və üsulların müəyyən edilməsi kimi başa düşülür** | |
|---|---|
| **Obyektiv** | **Subyektiv** |
| ▪ sübutların tez itməsi və ya məhv olması;<br>▪ mövcud sübutların və məlumatların xarakteri;<br>▪ əldə edilən məlumatların mənbələri. | ▪ cinayət prosesi iştirakçılarının psixoloji vəziyyəti;<br>▪ istintaqın mübahisəliliyi;<br>▪ istintaq şəraitinin dəyişməsinə müstəntiqin təsiri;<br>▪ müstəntiqin biliyi və təcrübəsi;<br>▪ müstəntiqin və başqa şəxslərin hərəkətlərinin nəticələri;<br>▪ maraqlı şəxslər tərəfindən istintaqa qarşıdurmanın gücü və xarakteri |

## İstintaq şəraitinin təhlili

İstintaq şəraitinin və vəzifələrinin müəyyən edilməsi

İstintaq şəraitini xarakterizə edən zəruri məlumatların alınması

İstintaq şəraitinin elementlərinin müəyyən edilməsi və onların hissələrə ayrılması

**İstintaq şəraitinin sistemləri**

- psixoloji xarakteri;
- məlumat xarakterli;
- prosessual və taktiki xarakterli;
- maddi, təşkilati-texniki xarakterli.

Qərarın qəbul edilməsi

Nəticələrin formalaşması

Məlumatların və onların tərkib hissələrinin sistemi

Təhlil edilmiş məlumatların müqayisə edilməsi

## MÖVZU № 13. KRİMİNALİSTİK FƏRZİYYƏLƏR VƏ İBTİDAİ ARAŞDIRMANIN PLANLAŞDIRILMASI

**Planlaşdırma** – cinayət işi üzrə həqiqəti müəyyən etmək üçün müstəntiq (təhqiqat aparan şəxs) tərəfindən həyata keçirilməsi nəzərdə tutulan hərəkətlərin məqsədyönlü ardıcıllıqla müəyyən edilmiş geniş praktik fəaliyyət proqramıdır.

**İstintaqın planlaşdırılmasının prinsipləri**

- Qanunçuluq prinsipləri
- Elmilik prinsipi
- Fərdilik prinsipi
- Konkretlik prinsipi
- Dinamiklik (fasiləsizlik, ardıcıllıq) prinsipi
- Reallıq prinsipi
- Qənaətik, optimallıq prinsipi

**Planlaşdırmanın növləri**

- Müstəntiqin icraatında olan bir neçə iş planlaşdırılma (təqvim planlaşdırma)
- Konkret cinayət işi üzrə istintaqın planlaşdırılması
- Konkret istintaq hərəkətinin keçirilməsinin planlaşdırılması

**Konkret cinayət işi üzrə planlaşdırmanın elementləri**

- Faktiki məlumatların öyrənilməsi
- İstintaqın iş planına tərtib edilməsi
  - İstintaqın vəzifələrinin müəyyən edilməsi
  - İstintaqın vəzifələrinin həlli üsullarının müəyyən edilməsi

**İstintaqın planlaşdırılmasında istifadə olunan köməkçi sənədlər**

**Sxemlər**

Müəssisənin strukturunun, maddi qiymətli əşyalarının, sənədlərin dövriyyəsini və təqsirləndirilən şəxsin əlaqəsini əks etdirir

**Təqsirləndirilən şəxs barəsində tərtib edilən kartotekalar**

Təqsirləndirilən şəxsin cinayətkar fəaliyyətinin epizodları, onun təqsirliliyinin sübutları göstərilir

**Jurnallar**

Bir neçə epizodlu cinayətkar fəaliyyəti olan təqsirləndirilən şəxslərə tərtib edilir

## Konkret cinayət işi üzrə istintaqın planlarının yazılı formaları

1. İstintaq fərziyyələri əsasında qurulan yazılı istintaq planı

| İstintaq fərziyyələri | İstintaq və digər hərəkətlər | İcra müddəti | İcraçı | Qeydlər |
|---|---|---|---|---|

2. Epizodlar əsasında qurulan istintaq planı

| Epizodun məzmunu | Tədqiqat olunmalı suallar və hallar | İstintaq və digər hərəkətlər | İcra müddəti | İcraçı |
|---|---|---|---|---|

3. Sübut edilməli hallar əsasında qurulan istintaq planı

| Sübut edilməli olan hallar | İstintaq və digər hərəkətlər | İcra müddətləri | İcraçılar |
|---|---|---|---|

## Ayrıca istintaq hərəkətinin keçirilməsi planının mahiyyəti

**Hazırlıq mərhələsi**

1. İstintaq hərəkətinin keçirilməsinə hazırlıq zamanı müstəntiqə hansı faktiki məlumatların öyrənilməsi zəruridir.
2. İstintaq hərəkəti ilə hansı məsələlərin həlli tələb olunur, hansı suallar araşdırılmalıdır.
3. Hansı hazırlıq hərəkətlərinin keçirilməsi lazımdır, hansı obyektlər öyrənilməlidir.

**İşçi mərhələsi**

1. İstintaq hərəkətinin keçirilməsi yerinin və vaxtının müəyyənləşdirilməsi.
2. İstintaq hərəkətinin iştirakçılarının dairəsi, o cümlədən mütəxəssislərin, təhqiqat orqanının əməkdaşlarının, onların vəzifələrinin müəyyənləşdirilməsi;
3. İstintaq hərəkətinin keçirilməsi üsullarının mahiyyəti, sualların araşdırılması qaydaları;
4. İstintaq hərəkətinin keçirilməsində əməliyyat-axtarış məlumatlarından istifadə edilməsi.

**Yekun mərhələsi**

1. İstintaq hərəkəti gedişatının və nəticələrinin qeyd edilməsi üsulları.
2. Bunun üçün vacib olan texniki vasitələr.
3. Mütəxəssislərin köməyi (konkret hansıların).

**Bir qrup müstəntiq tərəfindən istintaqın aparılma planının məzmunu**

- İş üzrə ümumi fərziyyələr və onların yoxlanılam üsulları
- Hər müstəntiqin işinin istiqamətləri
- Qrup rəhbərinin vəzifələri
- Qrup rəhbəri tərəfindən keçirilən istintaq hərəkətləri
- Müstəntiqlər arasında hərəkətlərin nizamlanması
- Müstəntiqlərin işinin nəticələrinin ümumiləşdirilməsi
- Əməliyyat işçiləri ilə qarşılıqlı əlaqə qaydaları

**Birgə planlaşdırmanın zəruriliyi**

- Mürəkkəb işlər üzrə
- İş üzrə icraatın təzələnməsi halları
- Birgə istintaq və əməliyyat hərəkətlərinin keçirilməsi zamanı

**Müstəntiqin ayrı-ayrı tapşırıqlarının növləri**

- Sübutların yığılması və tədqiqi üzrə
- Axtarış hərəkətlərinin keçirilməsi barədə
- Cinayət prosesinin ayrı-ayrı iştirakçılarının hüquqlarının bərpası üzrə
- Cinayət prosesinin törədilməsi üçün əlverişli şəraitlərin müəyyən edilməsi və onların aradan qaldırılması ilə əlaqədar tədbirlər barədə
- Prosessual məcburetmə tədbirlərinin tətbiq edilməsi barədə

**Kriminalistik fərziyyələr** – cinayət hadisəsi və onun ayrı-ayrı hallarına dair müstəntiqin (təhqiqat aparan şəxsin), faktiki məlumatlara əsaslanan deduksiyanın məntiq qaydaları üzrə yoxlanılmalı olan ehtimal formasındakı induktiv əqli nəticəsidir.

(A.N.Vasilyev)

**Fərziyyələrin təsnifatı**

- **Məfhumların həcminə görə**
  - Fərdi
  - Tipik
  - Ümumi
- **İstifadəsinə görə**
  - Məhkəmə
  - Əməliyyat-axtarış
  - Ekspert
  - İstintaq
- **Subyektinə görə**
  - Hal şahidinin
  - Mütəxəssisin
  - Müdafiəçinin

*Ardı növbəti səhifədə*

- Zərərçəkənin
- Şahidin
- Təqsirləndirilən şəxs
- Müstəntiqin

**Ehtimallılıq dərəcəsinə görə**

- Daha çox ehtimallı
- Az ehtimallı

**Qurulma vaxtına görə**

- Sonrakı
- İlkin

**Sübut etmə predmetinə münasibətinə görə**

- Bəraətverici fərziyyələr
- İttihamedici fərziyyələr


Fərziyyələrin qurulma və yoxlanma prosesi
İlkin məlumat
İntuitiv
Məntiqi mülahizə
Fərziyyənin formalaşması
Müstəntiqin fərziyyəsindən çıxartdığı nəticə
Fərziyyənin təcrübi yoxlanılması
Təsdiqləmə
Əsaslı bilik

## MÖVZU № 14. İSTİNTAQ BAXIŞI TAKTİKASI

**İstintaq baxışı** – istintaq hərəkəti məcmusu olub, müstəntiq (tədqiqat aparan şəxs) tərəfindən baş vermiş hadisəyə aidiyyəti olan izlərin bilavasitə aşkar edilməsi, öyrənilməsi, qeyd olunması, həmçinin onların əlamət, xassə, vəziyyət və qarşılıqlı yerləşməsini müəyyən etmək məqsədilə həyata keçirilən hərəkətlərdir.

**İstintaq baxışının məqsədləri**

- İstintaq aparılan hadisənin hallarının və xarakterinin aydınlaşdırılması üçün şəraitin bilavasitə öyrənilməsi
- Maddi sübutların, cinayətin izlərinin aşkar, qeyd edilməsi, götürülməsi və qiymətləndirilməsi
- Ümumi və xüsusi fərziyyələrin irəli sürülməsi üçün ilkin məlumatların alınması
- Cinayətkarın axtarışının təşkili üçün məlumatların alınması

# İSTİNTAQ BAXIŞININ NÖVLƏRİ



**İstintaq baxışın taktikasının ümumi tələbləri**

- Müayinəyə vahid rəhbərlik
- Müayinənin təxirə salınmadan keçirilməsi
- Müayinənin obyektivliyi, hərtərəfliyi və tamlığı
- Elmi-texniki vasitələrin geniş istifadə edilməsi, maddi sübutlarla davranışda kriminalistik qaydalara riayət etmək
- Baxışın planlı aparılması və məqsədyönlüyünü

**Hadisə yerinə baxış** – hadisə yerinin öyrənilməsi və şəraitin qeyd edilməsi cinayətin izlərinin və digər maddi sübutların tapılması, qeyd edilməsi, götürülməsi və tədqiqi, cinayət hadisəsi, onun mexanizmi, iştirakçıları barədə fərziyyələrin irəli sürülməsi və yoxlanması, həmçinin iş üçün əhəmiyyət kəsb edə biləcək məsələlərin həlli məqsədilə müstəntiq tərəfindən hadisə yerinin bilavasitə qavranılmasından ibarət təxirəsalınmaz istintaq hərəkətidir.

**Hadisə yerinə baxışın prinsipləri**

- Təxirəsalınmazlıq
- Obyektivlik, hərtərəflilik və tamlıq
- Məqsədyönlülük və ardıcıllıq
- Elmi-texniki vasitələrdən istifadə
- Müstəntiqin təşkilatçılığı və baxışa vahid rəhbərliyi
- Metodiklik və aktivlik


Hadisə yerinə baxışın obyektləri
Hadisənin təsəvvürü ilə bağlı ərazi sahəsi və ya binalar, mənzillər və s.
Hadisə yerinin şəraiti
Meyit
Cinayətin və cinayətkarın izləri
Hadisə yerində olan digər əşyalar və sənədlər

| **Hadisə yerinə baxış mərhələləri** | | |
|---|---|---|
| **Hazırlıq mərhələsi** | **İşçi mərhələsi** | **Nəticə mərhələsi** |
| *Birinci mərhələ*<br>*(hadisə yerinə gələnə qədər)*<br>▪ müstəntiqin hadisə yerinin mühafizəsini təmin etmək;<br>▪ cinayət hadisəsinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün tədbirlər görmək;<br>▪ cinayət hadisəsini görən şəxslərin qalmasını təmin etmək;<br>▪ hadisə yerinə baxışa iştirakçılarını seçir;<br>▪ texniki vasitələrin sazlanmasını yoxlayır;<br>*İkinci mərhələ (hadisə yerinə gəldikdən sonra)*<br>▪ zərər çəkən şəxslərə yardım göstərmək üçün tədbirlər görür;<br>▪ hadisə yerində olan dəyişiklikləri araşdırmaq və hadisə haqqında təsəvvür yaratmaq məqsədi ilə şahidlərə sorğu aparır;<br>▪ hal şahidlərini dəvət edir, baxış iştirakçıları arasında vəzifələri bölüşdürür və onları təlimatlandırır;<br>▪ baxışın keçirilməsi şəraitinin yaxşılaşdırılmasına, cinayətkarın isti izlərlə tutulmasına yönəlmiş başqa təxirə salınmaz tədbirlər görür. | Müfəssəl mərhələ<br>▪ müstəntiq hadisə yerini nəzərdən keçirir;<br>▪ hadisə yerinin şəraiti ilə tanış olur;<br>▪ baxışın başlanğıc nöqtəsini və aparılması üsulunu müəyyənləşdirir;<br>▪ hadisə yerində fotoşəkilçəkmə üsullarını müəyyən edir, onu həyata keçirir.<br>Statik mərhələ<br>▪ obyektlər diqqətlə nəzərdən keçirilir;<br>▪ cinayətin izlərinin aşkar edilməsi üçün tədbirlər görür;<br>▪ izləri götürür;<br>▪ neqativ halları qeyd edir;<br>▪ statik müayinədə əldə edilən məlumatları yoxlayır. | ▪ müstəntiq baxış protokolunu və zəruri sxemləri, çertyojları tərtib edir;<br>▪ cinayəti görən şahidlərin, cinayəti törədən şəxslərin dindirilməsi yerini və vaxtını müəyyən edir;<br>▪ zəruri hallarda meyitin əl-barmaq izlərini götürür və meyiti ölüxanaya göndərir;<br>▪ hadisə yerində götürülməsi mümkün olmayan maddi sübutların qorunmasının təmini üçün;<br>▪ götürülmüş əşyaları qablaşdırır;<br>▪ hadisə yerinə baxış ilə əlaqədar daxil olunmuş təkliflərin araşdırılması üçün tədbir görür. |

| Hadisə yerinə baxışın nəticələrinin qeyd edilməsi | | |
|---|---|---|
| **Protokolun tərtib olunması** | **Planın tərtib olunması** | **Fotoşəkillərin çəkilməsi** |
| ▪ protokolun giriş hissəsi;<br>▪ baxışın keçirildiyi yer və vaxt;<br>▪ baxışı keçirən şəxsin vəzifəsi, rütbəsi və soyadı;<br>▪ hal şahidlərinin soyadı və ünvanı;<br>▪ baxışda iştirak edən başqa şəxslərin vəzifələri, rütbələri və soyadları;<br>▪ baxışın gedişatının və nəticələrinin qeyd edilməsində CPM-nin müvafiq maddələrinə istinad etmək;<br>▪ baxışın aparılmasının səbəbini göstərmək;<br>▪ baxışın başlanma və qurtarma vaxtı;<br>▪ baxışın aparılma şəraiti. Protokolun təsvir hissəsində baxış zamanı müəyyən edilmiş hallar əks olunur. Protokolun nəticə hissəsi:<br>▪ hansı predmetlər götürülüb, hara göndərilib və saxlamaq üçün kimə təhvil verilib;<br>▪ nəyin fotoşəkli çəkilib, hansı planlar, çertyojlar və sxemlər tərtib olunub;<br>▪ baxış zamanı daxil olmuş və onlara görə müstəntiq tərəfindən qəbul edilmiş qərarlar. | ▪ hadisə yerinin planı, hadisənin baş verdiyi yerin real mənzərəsini əks etdirməlidir;<br>▪ plan hadisə yerində tərtib olunur;<br>▪ planın tərtib edilməsində ümumi qəbul edilmiş topoqrafik işarələrdən və miqyasdan istifadə olunur;<br>▪ planda ümumi qəbul edilmiş rekvizitlər olmalı və cinayət işinə aidiyyəti olmayan lüzumsuz detallar göstərilməməlidir.<br>Hadisə yerinin planı üçün əsas rekvizitlər bunlardır:<br>▪ miqyas, cəhətlər (şimal, cənub və s.), şərti işarələrin izahları, planın tərtib edilməsi vaxtı, müstəntiqin və hal şahidlərinin imzaları;<br>▪ hadisə yerinin ümumi, xüsusi planları və sxemləri olur. | Hadisə yerinə baxış zamanı tətbiq olunur:<br>▪ istiqamətləndirici;<br>▪ icmal;<br>▪ mərkəz;<br>▪ müfəssəl.<br><br>Fotoşəkillər hadisə yerinin şəraitini, aşkar edilmiş izləri real şəkildə əks etdirir.<br>Hadisə yerinə baxış protokoluna əlavə edilmiş fotoşəkillər fotocədvələ yapışdırılır və müstəntiqin, şəkilçəkməni həyata keçirən mütəxəssisin, mümkün hallarda isə hal şahidlərinin imzaları ilə təsdiq olunur.<br>Hər bir fotoşəkilə izahat verilir (şəkildə nə əks olunub, hansı yerdən (nöqtədən), hansı şəraitdə çəkilməsi və s.<br>Fotoşəkillərlə bərabər neqativlər də cinayət işinə əlavə olunur. |

**Meyitə baxış**

| | **Protokolda qeyd olunur:** | **Meyit hissələrinin qeyd edilməsi ardıcıllığı:** |
|---|---|---|
| ✓ meyitin pozası və hadisə yerində onun vəziyyəti;<br>✓ meyitin əynindəki paltarlar;<br>✓ meyitin bədəni və onun üzərində olan xəsarətlər;<br>✓ meyitin əynindəki paltarların ciblərində və başqa hissələrində aşkar edilmiş əşyalar. | ✓ cinsi, yaşı, bədən quruluşu, dərisinin rəngi;<br>✓ meyit əlamətləri (meyit ləkləri, meyitin soyuması, meyitin quruması, çürümə prosesi);<br>✓ baş və sifətin vəziyyəti;<br>✓ meyitdə olan xəsarətlər (yeri, forması, ölçüsü);<br>✓ meyitdə aşkar edilən fərdi əlamətlər. | ✓ baş;<br>✓ sifət;<br>✓ boyun;<br>✓ döş;<br>✓ qarın;<br>✓ kürək;<br>✓ əllər;<br>✓ ayaqlar. |

**Predmetlərə baxış**

Baxış protokolunda göstərilir:

A – adı
R – rəngi
M – materialı
B – başqa xüsusiyyətləri (marka, qeydiyyatlar və s.)
Ö – ölçüsü
Ç – çəkisi
F - forması

**Sənədlərə baxış**

Baxış protokolunda qeyd olunur:

S – sənədin adı
S – saxlandığı yer
S – sənədin xarici görünüşü
O – onun rekvizitləri
C – cinayət işi üçün əhəmiyyət kəsb edən sənədin hissəsinin mahiyyəti

**Heyvanlara baxış**

Müayinə zamanı:

- ✓ Heyvanın görkəmi;
- ✓ Cinsi, rəngi, cinsliyi, yaşı;
- ✓ Hansı təsərrüfata məxsusluğu, nişanələri;
- ✓ Heyvanın fərdi əlamətləri.

**Hadisə yeri ilə əlaqəsi olmayan sahələrə və otaqlara baxış**

Baxış obyektləri aşağıdakılardır:

| | | |
|---|---|---|
| A | – | anbarlar |
| S | – | satış yerləri |
| U | – | istehsalat sahələri |
| İ | – | yaşayış yerləri |
| M | – | müxtəlif yerlər |

**Şəxsi müayinə**

Aşağıdakı şəxslər müayinə oluna bilər:

T – təqsirləndirilən şəxs

Ş – şübhəli şəxs

Ş – şahid

Şəxsi müayinədən məqsəd aşağıdakılardır:

- şəxsin bədənində cinayətin izlərinin aşkar edilməsi;

X – xüsusi əlamətlərin aşkar edilməsi (xal, tatuirovka, ləkələr və s.);

- şəxsin baş vermiş cinayət hadisəsi ilə əlaqəsini göstərən başqa əlamətlər.

**Şəxsi müayinənin məhkəmə-tibbi müayinədən fərqi**

**Şəxsi müayinə - istintaq müayinəsinin bir növüdür**

- xüsusi biliklər tələb olunmur;
- müstəntiq tərəfindən keçirilir;
- şəxsi müayinənin keçirilməsi üçün qərar çıxarılır;
- şəxsin istintaqı aparılan hadisə ilə əlaqəsi haqqında müəyyən fikirlər yürütmək üçün onun bədənində cinayət izlərinin, xüsusi və başqa əlamətlərin müəyyən edilməsi məqsədi ilə keçirilir.

**Şəxsi müayinə - məhkəmə-tibbi ekspertizanın bir növüdür**

- məhkəmə təbabəti sahəsində xüsusi biliklər tələb olunur;
- mütəxəssis tərəfindən keçirilir;
- məhkəmə-tibbi müayinənin keçirilməsi haqqında qərar tərtib olunur;
- məhkəmə təbabəti sahəsində sualları həll edir (bədən xəsarətinin xarakteri və dərəcəsi, yaşın müəyyən edilməsi, zorlama cinayətləri üzrə cinsi yetkinliyin müəyyən edilməsi və s.)

**Şəxsi müayinə aşağıdakı məsələləri həll edir**

- ✓ müayinə edilən şəxsin bədənində xüsusi əlamətlər varmı, bilavasitə hansılar və harasında;
- ✓ şəxsin bədənində hansı xəsarətlər var və yerləşdiyi yer;
- ✓ müayinə edilən şəxsin bədənində hadisə yerinə gətirə bilən və apar bilən hissəciklər varmı;
- ✓ müayinə edilən şəxsin bədənində, onun hansı peşəyə mənsub olduğunu göstərən əlamətlər varmı;
- ✓ işin hallarından asılı olaraq başqa məsələlər.

## MÖVZU № 15. TUTULMANIN TAKTİKASI

**Tutulma** – prosessual məcburetmə tədbiri olub, azadlıqdan məhrumetmə növündə cəza təyin oluna bilən cinayəti törətməkdə şübhə edilən şəxsin həbsə alınması deməkdir.

**Cinayəti törətməkdə şübhə edilən şəxsi yalnız aşağıdakı əsaslardan biri olduqda ittiham elan edilənə qədər tutmaq olar**

- Həmin şəxs cinayət törədərkən və ya bilavasitə törətdikdən sonra yaxalandıqda
- Cinayət törətməkdə şübhə edilən şəxsin daimi yaşayış yeri olmadıqda
- Hadisəni bilavasitə görənlər, o cümlədən də zərər çəkmiş şəxslər məhz həmin şəxsin cinayət törətdiyini göstərdikdə
- Şübhə edilən şəxsdə və ya onun paltarında, onun özündə və ya mənzilində cinayətin aşkar izləri tapıldıqda
- Cinayət törətməkdə şübhə edilən şəxsin şəxsiyyəti müəyyən edilməmiş olduqda
- Cinayət törətməkdə şübhə edilən şəxs qaçmağa cəhd göstərdikdə

**Tutulmanın məqsədi**

- Tutulan şəxsin cinayətlə əlaqəsini müəyyən etmək
- Cinayətkar fəaliyyətinin qarşısını almaq
- Təhqiqat orqanından, ibtidai istintaqdan və ya məhkəmədən qaçıb gizlənmək cəhdlərinin qarşısını almaq
- İş üzrə həqiqətin müəyyən edilməsinə maneçilik törədilməsi cəhdlərinin qarşısını almaq

**Tutulmanın taktiki və təşkilati xüsusiyyətləri**

- Törədilmiş əməlin xarakteri, onun nəticələri və iş üzrə yaranmış istintaq şəraiti ilə
- Tutulmalı olan şəxsi xarakterizə edən hallarda (cinsi, yaşı, fiziki və psixi xüsusiyyətləri, silahlı olması, məhkumluğu və s.)
- Cinayətin “isti izlərlə” istintaqı zamanı təhqiqat orqanı əməkdaşları tərəfindən tutulma əməliyyatının keçirilməsi, sonradan prosessual qaydada rəsmiləşdirilməsi
- Tutma qrupu tərəfindən cinayət törətməkdə şübhə edilən şəxsə qarşı xüsusi vasitələrin və fiziki təsirli fəndlərin tətbiqi (qanun əsasında imkanı ilə)

## Tutulmaya hazırlıq tədbirləri

- Tutulma qrupunun tərkibi, üzvlərinin sayı, onların fiziki hazırlığını müəyyən etmək
- Tutulmalı olan şəxsin cinsinə uyğun şəxsi qrupa daxil etmək (məs: qadının şəxsi axtarışını keçirmək üçün)
- Tutulma qrupunun bütün iştirakçılarına tutulmalı olan şəxsin şəxsiyyəti və zahiri əlamətləri haqqında məlumat vermək
- Tutulmanın ardıcıllığını müəyyən etmək (əgər şübhəli şəxslər çoxdursa, sonradan onların hara aparılması, təcrid edilməsini həll etmək)
- Tutulmanın yerini, vaxtını, şəraitini müəyyən etmək
- Tutulma qrupunun üzvləri arasında vəzifə bölgüsü aparmaq, onların hərəkətlərinin ardıcıllığını müəyyən etmək
- Tutulma qrupunun iştirakçılarının zəruri kriminalistik və xüsusi texnika ilə təmin etmək
- Tutulma protokolunu tərtib edənə qədər və ya sonra digər istintaq hərəkətlərinin keçirilməsini nəzərdə saxlamaq

# MÖVZU № 16. AXTARIŞ VƏ GÖTÜRMƏ TAKTİKASI

**Axtarış** – cinayət alətlərinin, cinayət nəticəsində əldə edilmiş predmetlərin və qiymətli əşyaların, habelə cinayət işi üzrə həqiqətin üzə çıxarılması üçün əhəmiyyətli olan başqa predmetlərin, sənədlərin, eləcə də axtarılan şəxslərin və meyitlərin müəyyən binada, açıq sahədə məcburi qaydada axtarılmasıdır.

**Götürmə** – toplanmış sübutlarla və ya əməliyyat-axtarış fəaliyyətinin materialları ilə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və sənədlərin kimdə və harada olması müəyyən edildikdə buna səlahiyyəti olan şəxs tərəfindən həmin əşya və sənədlərin götürülməsidir.






# AXTARIŞIN METODLARI



# AXTARIŞIN GÖTÜRMƏDƏN FƏRQİ






## AXTARIŞIN KEÇİRİLMƏSİNİN MƏRHƏLƏLƏRİ

| **Hazırlıq mərhələsi** | **İşçi mərhələsi** | **Son mərhələ** |
| --- | --- | --- |
| 1. Axtarış iştirakçılarının seçilməsi:<br><br>a) axtarışı keçirənlər;<br>b) axtarış zamanı iştirak edənlər.<br><br>2. Axtarışın obyektləri haqqında məlumatlar toplamaq.<br><br>3. Texniki vasitələri hazırlamaq.<br><br>4. Axtarışın keçirilməsi vaxtını müəyyənləşdirmək və planını tərtib etmək. | - axtarış yerinə gəlmək;<br>- axtarılan obyektə daxil olmaq;<br>- zəruri hazırlıq-prosessual, taktiki və təşkilati tədbirlərinin keçirilməsi.<br>**<u>Müfəssəl</u>**<br>- müstəntiq axtarış aparılan yerin şəraiti, quruluşu və xüsusiyyətləri ilə tanış olur;<br>- axtarılan obyektlərin ən çox güman edildiyi yerləri qeyd edir;<br>- texniki vasitələr tətbiq etməklə xüsusi tədqiqat tələb edən sahələri qeyd edir.<br>**<u>Detal</u>**<br>Bu mərhələdə müstəntiq axtarışın müxtəlif metodlarını tətbiq etməklə axtarılması tələb olunan obyektləri axtarır. | 1. Axtarış protokolunun tərtib edilməsi: protokolda göstərilir: nə götürülüb, predmetlərin fərdi əlamətləri, saxlanılması üsulu, saxlanc yerlərin olması.<br>2. Götürülən predmetlərin, saxlanc yerlərin foto şəklinin çəkilməsi, kino çəkilmə və videoyazının tətbiq edilməsi.<br>3. Axtarışda böyük miqdarda götürlən eyni növlü predmetlərin siyahısının tərtib edilməsi.<br>4. Protokola axtarış aparılan obyektin və ya saxlanc yerlərinin planı, sxemi əlavə oluna bilər. |

## MÖVZU № 17. DİNDİRMƏ TAKTİKASI

**Dindirmə** – müstəqil istintaq hərəkəti olub, dindirilən şəxsdən cinayət işi üzrə həqiqətin müəyyən edilməsi üçün əhəmiyyəti olan hallara dair məlumatların cinayət-prosessual qanunla müəyyən edilən qaydada alınması deməkdir.

**Dindirmənin predmeti**

- Sübutetmənin predmetinə aid olan hallar
- Sübutların aşkar edilməsinə kömək göstərən hallar
- Sübutların yoxlanılması və qiymətləndirilməsi üçün zəruri olan hallar
- İstintaqın aralıq məqsədlərinə nail olmaq üçün zəruri hallar
- Sübut əhəmiyyətini kəsb etməyən taktiki rol kəsb edən hallar

**Dindirmənin növləri**

| | |
|---|---|
| **Dindirilən şəxsin prosessual vəziyyətindən asılı olaraq** | ▪ Təqsirləndirilən şəxsin dindirilməsi<br>▪ Şübhəli şəxsin dindirilməsi<br>▪ Ekspertin dindirilməsi<br>▪ zərərçəkən şəxsin dindirilməsi<br>▪ Şahidin dindirilməsi |
| Dindirmənin mahiyyətinə görə | ▪ Əsas dindirmə<br>▪ Əlavə dindirmə |
| Dindirmənin ardıcıllığına görə | ▪ İlkin dindirmə<br>▪ Təkrar dindirmə |
| Dindirilən şəxsin yaş həddinə görə | ▪ Həddi-buluğa çatmış şəxsin dindirilməsi<br>▪ Yetkinlik yaşına çatmayan şəxsin dindirilməsi<br>▪ Azyaşlının dindirilməsi |
| Dindirilən şəxsin tutduğu mövqeyə görə | ▪ Doğru ifadə verən şəxsin dindirilməsi<br>▪ Yalan ifadə verən şəxsin dindirilməsi |

# DİNDİRMƏNİN İŞTİRAKÇILARI

**Məcburi**

- Yetkinlik yaşına çatmayanların dindirilməsində
  - Pedaqoq
  - Yetkinlik yaşına çatmayanların qanuni nümayəndələri
  - Yetkinlik yaşına çatmayanların yaxın qohumları
  - Müdafiəçi
- Məhkəmə icraatı dilini bilməyən və ya kor-lal şəxslərin dindirilməsində
  - Pedaqoq

**Dindirmədə iştirak edə bilər**

- Prokuror
- İstintaq orqanın rəisi
- İstintaq qrupunun rəhbəri
- Ekspert və ya başqa mütəxəssis

**Dindirmənin yeri və onun seçilməsini müəyyən edən hallar**

- Müstəntiqin otağı
- Başqa dövlət idarələrinin otaqları
  - Şəxsin dindirilməyə çağırılması faktını başqalarından gizlətmək zəruriyyəti
  - Dindirilən şəxs üçün dindirmənin gözlənilməz olması zəruriyyəti
  - Dindirilən şəxsi dindirmənin əsas məqsədindən yayındırmaq zəruriyyəti
- Dindirilən şəxsin yerləşdiyi yer
  - Dindirmənin təxirəsalınmadan aparılması zəruriyyəti
  - Gəlməsi qeyri-mümkün olduqda
- Hadisə yeri
  - Müstəntiqi maraqlandıran halları dindirilən şəxsin yadına salmağa köməklik göstərmək zəruriyyəti

| İfadənin formalaşmasının mərhələləri | |
|---|---|
| Müəyyən faktı və ya hadisəni qavrama | Qavrama maddi aləmdəki predmet və hadisələrin insanın hiss üzvlərində inikası deməkdir |
| Yadda saxlama | Maddi aləmlərin qavranılmış predmet və hadisələrinin beyin qabığında əks olunması başa düşülür |
| Fakt və ya hadisəni ifadə etmək | Şəxsin yada saldığı və ya yadına düşdüyü fakt barədə məlumat verməsi, yəni həmin faktı əks etdirməsi, canlandırması deməkdir |

**Psixoloji kontakt** – dindirmə zamanı dindirilən şəxslə müstəntiq arasında yaranan münasibətdir ki, bu zaman cinayət təqibi üçün əhəmiyyət kəsb edən ifadələrin (məlumatların) alınması mümkün olur.

**Mübahisəli şəraitdə dindirmənin aparılmasında istifadə olunan taktiki üsullar**

- Düzgün ifadə vermənin hüquqi əsaslarını izah etmək
- Yalan ifadə vermənin motivini müəyyən etmək və onu aradan qaldırmaq
- Ziddiyyətlərin məntiqi təhlili
- İştirakçılar arasında olan ziddiyyətlərin istifadə edilməsi
- Dindirmənin xronoloji ardıcıllıqda aparılması
- Şəxsin tutduğu mövqeyin mənasız olmasını əsaslandırmaq
- Dindirmənin gedişatının video çəkilişini aparmaq

**Dindirməyə hazırlıq**

- Cinayət işinin materiallarının diqqətlə öyrənilməsi
- Dindirilmənin şəxsiyyətinin öyrənilməsi
- Dindirmənin ardıcıllığının və dindirilən şəxsin çağırılması üsulunun müəyyənləşdirilməsi
- Dindirmə yerinin və tətbiq edilən texniki vasitələrin hazırlanması
- Sübutların hazırlanması
- Xüsusi sualların öyrənilməsi və mütəxəssislərdən məsləhətlərin alınması
- Dindirmənin planın tərtib edilməsi

**Dindirmənin mərhələləri**

- Dindirmənin ilkin mərhələsi
- Sərbəst danışıq mərhələsi
- Sual-cavab mərhələsi
- Dindirmənin son mərhələsi

**Dindirilən şəxsə təsir göstərmək üçün yol verilən üsullar**

**Emosional təsirli üsullar**

- Dindirilən şəxsdə təqsirini könüllü boynuna almaq hissləri oyatmaq
- Dindirilənin şəxsiyyətinin müsbət keyfiyyətlərindən istifadə edilməsi
- İştirakçılar arasında bir-birinə qarşı mübahisəli şəraitin yaradılması
- Gözlənilməz suallar qoymaqla qəfil faktordan istifadə edilməsi

**Məntiqi təsirli üsullar**

- Dindirilən şəxsdən ifadələrin detallaşmasını tələb edən sübutları təqdim etmək
- Dindirilən şəxsin ifadələrində olan ziddiyyətlərin məntiqi təhlili
- Dindirilən şəxslə proses iştirakçılarının maraqları arasında olan ziddiyyətlərin məntiqi təhlili
- Dindirilən şəxsin ifadəsini inkar edən sübutların təqdim edilməsi

**Taktiki kombinasiya**

- Dindirilən şəxsdə müstəntiqin "hər şüydən xəbərdar olması" təsəvvürünü yaratmaq
- Dindirilən şəxsdən işin bu və ya digər halları haqqında müstəntiqin xəbəri olmasını gizlətmək
- Dolayı dindirmə-ikinci dərəcəli suallarla cinayət işi ilə əlaqədar əsas sualın maskalanması
- Cinayətlə əlaqədar müxtəlif halları təsdiqləyən ifadələrin alınması üçün şəraitin yaradılması


Dindirilən şəxsin yalan ifadələrinin məhkəmə sübutları ilə ifşa edilməsi taktikası
Sübutların təqdim edilməsi üsulları
İfşaedici təsirin artan istiqaməti üzrə sübutların təqdim edilməsi
Dindirmənin ilk mərhələsində ən kəsərli sübutun təqdim edilməsi
Birdəfəyə bütün sübutların təqdim edilməsi
Sübutların tətbiqi şərtləri
Sübutlar toplusu bir-biri ilə qarşılıqlı əlaqədə olarsa
Əgər dindirilən şəxs sübutların təkzib edilməzliyini dərk edərsə
Nisbətən sadə işlərin istintaqı zamanı
Müəyyən edilmiş faktların qəti surətdə rədd etmə meyli olan şəxslərə qarşı
Dayanıqlı yalan ifadə verməyi bacarmayan şəxslərə qarşı
Əgər yığılmış sübutlar dindirilən şəxsin gizlətdiyi halları şəksiz-şübhəsiz müəyyən edirsə
Əgər dayanıqlı yalan ifadə vermək bacarığı qət edilmişsə


Dindirilən şəxsə verilən sualların növləri
Yoxlama
Yaddaş bərpaedici
İfşaedici
Əlavəedici
Dəqiqləşdirici


Sualların qoyulmasına göstərilən tələblər
Suallar dəqiq, aydın, konkret və qısa olmalıdır
Suallar yönəldici xarakter daşımamalıdır
Suallar dindirilən şəxsin çaşdırılmasına yönəlməməlidir
Suallar elə formalaşdırılır ki, onlara müəyyən və birmənalı cavab alınsın
Suallar dindirilən şəxsi təhqir etməməli və alçaltmamalıdır




**Unudulmuş faktların yada salınmasında dindirilən şəxsə kömək göstərmənin üsulları**

- Müxtəlif planlarda dindirmə
- Cinayətin törədilməsinə kömək göstərən faktlar haqqında dindirmə
- Maddi sübutların təqdim edilməsi
- Hadisə yerində dindirmə
- Dindirilən şəxsi başqa şəxslərin ifadələri ilə tanış etmək
- Üzləşdirmənin keçirilməsi

**Üzləşdirməyə hazırlıq**

- Alınmış ifadələrin öyrənilməsi
- Dindirmənin ardıcıllığının müəyyən edilməsi
- İfadələrdə olan hadisələrin aydınlaşdırılması
- Üzləşdirmənin vaxtının və yerinin müəyyən edilməsi
- Dindirilənin şəxsiyyətinin öyrənilməsi
- Sübutların seçilməsi və sistemləşdirilməsi
- Üzləşdirmənin predmetini və müəyyən edilməli halların təyin edilməsi
- Sualların formalaşdırılması və onların verilməsi ardıcıllığının müəyyən edilməsi

**Üzləşdirmənin keçirilməsinin taktiki üsulları**

- Üzləşdirmə iştirakçılarının ifadələrini detallaşdırmaq, onlarda ziddiyyətləri aşkar etmək və səbəblərini aradan qaldırmaq
- Dindirilən şəxslərin yaddaşlarını aktivləşdirmək məqsədi ilə sübutlar təqdim edib, onlarda assosiativ əlaqələri bərpa etmək
- Əvvəllər dindirilən şəxslərin doğru ifadələrindən istifadə etmək
- Üzləşdirməni təkrar keçirmək
- Hadisə yerində üzləşdirmənin keçirilməsi

# DİNDİRMƏNİN GEDİŞATININ VƏ NƏTİCƏLƏRİNİN QEYD EDİLMƏSİ

**Dindirmənin protokollaşdırılmasına qoyulan tələblər**

1. Protokolun buna səlahiyyəti olan şəxs tərəfindən tərtib edilməsi.
2. Protokolun obyektiv olması.
3. Protokolun tam olması.
4. Dindirilən şəxsin ifadələrinin dəqiq və aydın göstərilməsi.
5. Düzgün qrammatik qaydada protokolun yazılması.

**Protokolda öz əksini tapmalıdır:**

1. Şahidin və zərərçəkmişin dindirilməsi zamanı ifadə vermək və ya bilərəkdən yalan ifadə vermək barədə məsuliyyət haqqında xəbərdarlıq qeydləri.
2. Şübhəli şəxsin ilkin dindirilməsində onun hansı cinayətin törədilməsində təqsirləndirilməsinin izah edilməsi haqqında qeydlər.
3. Təqsirləndirilən şəxsin ilkin dindirilməsində onun özünü günahkar edib-etməməsi haqda ifadələri.
4. Dindirmədə tərcüməçi, ekspert, müdafiəçi, pedaqoq və s. iştirak edərlərsə, onların soyadı, adı, atasının adı və s. zəruri məlumatlar göstərilməlidir.

**Dindirmənin protokollaşdırılmasına qoyulan tələblər**

- həddi-buluğa çatmayanların;
- təqsirini boynuna almaqla könüllü gələn şəxslərin;
- yaralı və ya ağır xəstənin;
- ayrıca tapşırığın icrası zamanı dindirilən şəxslərin;
- məhkəməyə çağırılması qeyri-mümkün olan şəxslərin;
- istintaqın aparıldığı dili bilməyən şəxslərin;
- müstəntiqin psixi xəstə güman etdiyi şəxslərin;
- üzləşdirmədə dindirilən şəxslərin;
- ağır cinayətdə ittiham olunan şəxslərin.

**Dindirmədə səsyazma və videoyazının tətbiq edilməsi halları**

- həddi-buluğa çatmayanların;
- təqsirini boynuna almaqla könüllü gələn şəxslərin;
- yaralı və ya ağır xəstənin;
- ayrıca tapşırığın icrası zamanı dindirilən şəxslərin;
- məhkəməyə çağırılması qeyri-mümkün olan şəxslərin;
- istintaqın aparıldığı dili bilməyən şəxslərin;
- üzləşdirmədə dindirilən şəxslərin;
- ağır cinayətdə ittiham olunan şəxslərin.

**Təqsirləndirilən şəxsin ifadə verməkdən boyun qaçırmasını aradan qaldıran taktiki üsullar**

- Təqsirləndirilən şəxsə tutduğu mövqeyin düzgün olmamasını
- Təqsirləndirilən şəxslə cinayətdə iştirak edənlərin ifadə verməsi faktından istifadə edilməsi
- Başqa iştirakçıların ifadələrində ifşa olunması haqqında xəbər verməklə onu ifadə verməyə
- Təqsirləndirilən şəxslərin ifadələri arasında olan ziddiyyətdən istifadə edilməsi

# DİNDİRMƏNİN TAKTİKİ ÜSULLARI

| Dindirmənin ilkin mərhələsi | Sərbəst danışıq mərhələsi | Sual-cavab mərhələsi |
|---|---|---|
| *Taktiki üsullar aşağıdakılar üçün tətbiq olunur:*<br>a) dindirilənin şəxsiyyətinin müəyyən edilməsi və öyrənilməsi;<br>b) onunla psixoloji kontaktın yaradılması;<br>c) dindirmənin predmetinə və cinayət işi üzrə keçən başqa şəxslərə qarşı onun münasibətinin müəyyənləşdirilməsi;<br>d) dindirmənin taktiki üsulunun müəyyənləşdirilməsi. | Bu mərhələdə taktiki üsullar yeni sübut, faktların alınmasına, dindirilən şəxsin yaddaşından unudulmuş faktların bərpa olunmasına kömək göstərməyə istiqamətlənir. | Bu mərhələ dindirmənin mübahisəli şəraiti üçün xarakterikdir.<br>Burada dindirilən şəxsdən doğru ifadənin alınmasına yönəlmiş bütün üsullardan istifadə olunur: alınmış ifadələri detallaşdırmaq və dəqiqləşdirmək, mövcud sübutları təqdim etmək, dindirmə zamanı əməliyyat-axtarış məlumatlarından istifadə etmək və s.<br>Dindirilən şəxsə psixoloji təsir göstərən taktiki üsullar da geniş tətbiq olunur: qəfil faktorlardan istifadə edilməsi, dindirmənin məqsədinin müvəqqəti maskalanması. |

**Dindirilən şəxsi ifşa etmək üçün**

- Yoxlanılmış və inkar edilə bilməyən sübutların istifadə edilməsi
- Sübutların vaxtından əvvəl və tələsik dindirilən şəxsə təqdim edilməsi yolverilməzdir
- Sübutun əlaqədə olduğu hallar üzrə şəxsin ilkin dindirilməsi
- Dindirilən şəxsə təqdim edilən sübutların mahiyyətini və əhəmiyyətinin izah edilməsi
- Sübutların təqdim edilməsinin üsulunu və vaxtını düzgün seçmək yolu ilə, onların maksimum səmərəli istifadə edilməsinin təmin edilməsi

## MÖVZU № 18. TANINMA ÜÇÜN TƏQDİMETMƏ TAKTİKASI

**Tanınma üçün təqdimetmə** – müstəqil istintaq hərəkəti olub, cinayət hadisəsi ilə əlaqədar şahidin, zərərçəkmiş şəxsin, şübhə edilən şəxsin və ya təqsirləndirilən şəxsin əvvəllər müşahidə etdiyi obyektin yaddaş obrazı əsasında tanınma üçün təqdim olunmuş obyektin əlamətləri üzrə qrup mənsubiyyətinin müəyyən edilməsindən və ya eyniləşdirilməsindən ibarətdir.

**Tanınma üçün təqdimetmənin növləri**

- Şəxsin tanınma üçün təqdim edilməsi
- Meyitin tanınma üçün təqdim edilməsi
- Əşyaların, cinayət alətlərinin, sənədlərin tanınma üçün təqdim edilməsi
- Heyvanların tanınma üçün təqdim edilməsi
- Açıq yerlərin, binaların və başqa saxlanc yerlərin tanınma üçün təqdim edilməsi

**Tanınma üçün təqdimetmənin şərtləri**

- tanınma üçün təqdimetmədən əvvəl tanıyan şəxsin dindirilməsi;
- tanınmalı olan obyekt onunla zahirən oxşar olan digərləri arasında yerləşdirilir. Belə obyektlərin ümumi sayı üçdən az olmamalıdır.
- tanıyan şəxs dəvət olunana qədər tanınan şəxsə təqdim olunmuş şəxslər arasında istənilən yeri tutmağa dəvət olunur.
- tanıyan qismində çıxış edən şahid və ya zərərçəkən bilə-bilə yalan ifadə verməyə və ifadə verməkdən imtina etməyə görə cinayət məsuliyyəti haqqında xəbərdar olunur.
- obyekt tanınanda tanıyan şəxsə obyekti hansı əlamətlər əsasında tanıdığını izah etməsi təklif olunur;
- tanınma üçün təqdimetmə haqqında protokol tərtib olunur.

## TANINMA ÜÇÜN TƏQDİMETMƏNİN MƏRHƏLƏLƏRİ

| Hazırlıq mərhələsi | İşçi mərhələsi | Tanınma üçün təqdim etmənin gedişatının və nəticələrinin qeyd edilməsi |
|---|---|---|
| - tanıyan şəxsin qabaqcadan dindirilməsi;<br>- tanınma üçün təqdim etmənin vaxtının seçilməsi;<br>- tanına üçün əlverişli şəraitin seçilməsi və hazırlanması;<br>- tanınma üçün obyektlərin seçilməsi;<br>- tələb olunan elmi-texniki vasitələrin yoxlanılması və hazırlanması;<br>- müvafiq mütəxəssislərdən məsləhətlərin alınması;<br>- həbsdə olan təqsirləndirilən şəxslərin mühafizəsinin təmin edilməsi. | - tanınma üçün təqdim etmə prosesində işdə iştirak edən şəxslərin hüquq və vəzifələrinin onlara izah edilməsi;<br>- tanıyanı dəvət etməli və ona bilə-bilə yalan ifadə vermək və ifadə verməkdən imtina etməyə görə cinayət məsuliyyəti daşıması haqqında xəbərdarlıq edilməsi;<br>- tanıyana təqdim edilən obyektlərə baxmağın təklif olunması;<br>- tanına üçün təqdim etmənin obyektinin hansı əlamətlər əsasında tanıyan tərəfindən tapılmasının dəqiqləşdirilməsi. | - tanınma üçün təqdim etmə haqqında protokolun tərtib edilməsi;<br>- tanın üçün təqdim edilən obyektlərin fotoşəkillərinin çəkilməsi;<br>- tanınma üçün təqdim etmə prosesində kino çəkilişinin aparılması;<br><br>Tanınma üçün təqdim etmənin gedişatında səsyazmadan istifadə olunması:<br>- əgər məhkəmə prosesinə gələ bilmirsə;<br>- əgər tanınma səsin və nitqin xüsusiyyətləri əsasında keçirilirsə;<br>- əgər tanıyan azyaşlıdırsa. |

## MÖVZU № 19. İFADƏLƏRİN YERİNDƏ YOXLANILMASI TAKTİKASI

**İfadələrin yerinə yoxlanılması** – şahidin, zərərçəkmişin, şübhəli və təqsirləndirilən şəxslərin dəqiq məlum olan yerdə baş vermiş hadisə ilə bağlı ifadələrin düzgünlüyünü müəyyən etmək və ya dəqiqləşdirmək məqsədi ilə aparılır.

**İfadələrin yerində yoxlanılması istintaq hərəkətinin məqsədi**

- Yeni sübutların aşkar edilməsi
- Əvvəllər müəyyən edilmiş faktların yoxlanılması
- İfadələrdə olan ziddiyyətləri müəyyən etmək və onları aradan qaldırmaq
- Cinayətin törədilməsinə kömək edən halların müəyyən edilməsi

**İfadələrin yerində yoxlanılması istintaq hərəkətinin nəticələrinin qeyd edilməsi üsulları**

- Protokolun tərtib edilməsi
- İfadələrin maqnit lentinə yazılması
- Videoyazının tətbiq edilməsi
- Hərəkət marşrutlarının sxem və planlarının tərtib edilməsi

**İfadənin yerində yoxlanılmasının keçirilməsinə hazırlıq**

- İfadənin yerində yoxlanılmasının predmetinin məqsədi
- İfadəsi yoxlanılan şəxsin əlavə dindirilməsi
- İfadənin yerində yoxlanılmasının keçirilməsi vaxtının müəyyən edilməsi
- Əməliyyat qrupu iştirakçılarını seçmək və onları təlimatlandırmaq
- İfadənin yerində yoxlanılmasının keçirilməsi planının tərtib edilməsi
- Texniki və nəqliyyat vasitələrinin hazırlanması

**İfadənin yerində yoxlanılmasının keçirilməsi şərtləri**

- ifadənin yerində yoxlanılması ifadəsi yoxlanılan şəxsin razılığı ilə keçirilir;
- ifadəsi yoxlanılan şəxs başqa iştirakçılardan irəlidə gedir və hərəkətin istiqamətini müəyyən edir;
- ifadəsi yoxlanılan şəxs istintaq hərəkətinin gedişatı zamanı öz hərəkətlərini izah etməli, eyni zamanda obyektləri, predmetləri göstərməli, həqiqətən baş vermiş hadisələri isə imkan dairəsində nümayiş etdirməlidir;
- müstəntiq ifadəsi yoxlanılan şəxsə yönəldici xarakterli suallar verməməlidir;
- bir neçə şəxslərin ifadələri ayrı-ayrılıqda yoxlanılır.

**Unudulmuş faktların yada salınmasında dindirilən şəxsə kömək göstərmənin üsulları**

- Müxtəlif planlarda dindirmə
- Cinayətin törədilməsinə kömək göstərən faktlar haqqında dindirmə
- Maddi sübutların təqdim edilməsi
- Hadisə yerində dindirmə
- Dindirilən şəxsi başqa şəxslərin ifadələri ilə tanış etmək
- Üzləşdirmənin keçirilməsi

**Üzləşdirmənin keçirilməsinin üsulları**

- Üzləşdirmə iştirakçılarının ifadələrini detallaşdırmaq, onlarda ziddiyyətləri aşkar etmək və səbəblərini aradan qaldırmaq
- Dindirilən şəxslərin yaddaşlarını aktivləşdirmək məqsədi ilə sübutlar təqdim edib, onlarda assosiativ əlaqələri bərpa etmək
- Əvvəllər dindirilən şəxslərin doğru ifadələrindən istifadə etmək
- Üzləşdirməni təkrar keçirmək
- Hadisə yerində üzləşdirmənin keçirilməsi

# MÖVZU № 20. İSTİNTAQ EKSPERİMENTİNİN TAKTİKASI

**İstintaq eksperimenti** – prosessual hərəkət olub, müstəntiq tərəfindən araşdırılan hadisəyə maksimum dərəcədə yaxınlaşdırılmış, xüsusi yaradılmış şəraitdə təcrübələrin aparılmasından ibarətdir.

**İstintaq eksperimentinin məqsədi**

- Yeni sübutlar aşkar etmək
- Əldə edilmiş sübutların yoxlanması

**İstintaq eksperimentinin məqsədi**

- Hər hansı bir hadisənin dərk edilməsi (qavranılması) mümkünlüyünü müəyyənləşdirmək
- Hər hansı bir hərəkətin törəməsinin (edilməsinin) mümkünlüyünü müəyyənləşdirmək
- İzlərin yaranma mexanizmini müəyyənləşdirmək

**İstintaq eksperimentinin quruluşu**

- Müstəntiqin faktlar üzrə yeritdiyi izahedici fərziyyələr
- Fərziyyələrin yaranma əsasları
- Fərziyyələrin təcrübə (eksperiment) yolu ilə yoxlanılması zərurəti
- Eksperiment keçirilməsi üçün şəraitin yaradılması
- Təcrübənin yüksək səviyyədə keçirilməsi
- Təcrübənin nəticələrinin və araşdırılan fərziyyələrin qiymətləndirilməsi

# İSTİNTAQ EKSPERİMENTİNİN MƏRHƏLƏLƏRİ

**Hazırlıq mərhələsi**

**Birinci mərhələ**
(eksperimentin keçirildiyi yerə gələnə qədər):
- eksperimentin qarşısında duran vəzifələrini, təcrübənin mahiyyətini və onların keçirilməsi şəraitini müəyyənləşdirmək;
- xüsusi ədəbiyyatların öyrənilməsi və mütəxəssislərlə məsləhətlər aparmaq;
- eksperimentin başqa iştirakçılarını seçmək;
- təqsirləndirilən şəxsi təkrar dindirmək;
- eksperimentin gedişatını və nəticələrini qeyd etmək üçün vasitələrin hazırlanması;
- eksperimentin keçirilməsi planını tərtib etmək.

**İkinci mərhələ:**
- hadisənin törədildiyi vaxtdan baş verən dəyişiklikləri müəyyənləşdirmək;
- eksperiment şəraitinin yoxlanılan şəraitə uyğunluğunu yoxlamaq;
- eksperimentin iştirakçılarını təlimatlandırmaq;
- eksperimentin gedişatında sınaqların keçirilməsi üçün zəruri rekvizitlərin yoxlanılması.

**İşçi mərhələsi**

Eksperimentin keçirilməsində tətbiq edilən taktiki şərtlər:
- təcrübələr eksperiment planına uyğun olaraq həqiqətə uyğun bərpa edilmiş şəraitdə keçirilir;
- təcrübələri təkrarlamaq məqsədəmüvafiqdir (bu eksperiment nəticələrinin doğru olmasının qarantı sayılır);
- eksperimentin keçirilməsində vaxt faktoru müəyyən əhəmiyyət kəsb edirsə, onda onu müvafiq tempdə keçirmək zəruridir;
- zəruri hallarda təcrübələr bir neçə mərhələdə təkrar olunur;
- eksperimentin keçirilməsinə çoxlu sayda adamların cəlb edilməsi məqsədəmüvafiq sayılmır;
- eksperiment cinayətin baş verdiyi şəraitə uyğun şəraitdə keçirilir;
- eksperiment zamanı dəyişilən, lakin bərpa olunması qeyri-mümkün olan şərait nəzərə alınır.

**Yekun mərhələ**

Eksperimentin gedişatının və nəticələrinin qeyd edilməsi:

1. Protokolun tərtib edilməsi:
- təcrübələrin harada. Nə vaxt, hansı məqsədlə və kim tərəfindən keçirilməsi;
- şərait bərpa olunubmu;
- təcrübənin keçirilməsi şəraiti;
- təcrübələrdə kim iştirak edib;
- təcrübələrdə hansı predmetlərdən istifadə olunub;
- təcrübələrin keçirilməsi ardıcıllığı;
- hər bir təcrübənin mahiyyəti və nəticələri.

2. Fotoşəkil çəkmə və videoyazı:
- təcrübənin başlanmasına qədər ümumi şəraitin fotoşəkili çəkilir;
- bərpa olunma prosesi və onun nəticələri;
- hər bir təcrübənin mahiyyəti.

3. Eksperiment keçirildiyi yerin planının və sxeminin tərtib edilməsi:
- planda eksperiment iştirakçıların, predmetlərin yerləşməsi, onların hərəkət istiqamətləri və başqa məqamlar göstərilir.

# IV HİSSƏ

# KRİMİNALİSTİK METODİKA

# MÖVZU № 21. AYRI-AYRI CİNAYƏTLƏRİN ARAŞDIRMA METODİKASININ ÜMUMİ MÜDDƏALARI VƏ ONLARIN TƏTBİQ EDİLMƏSİ

**Ayrı-ayrı növ cinayətlərin araşdırma metodikası** - elmi müddəalar sistemi olub, onların əsasında ibtidai araşdırmanın təşkili, həyata keçirilməsi və cinayətlərin qarşısının alınması üzrə tövsiyələrdən ibarətdir.

**Araşdırma metodikasının mənbələri**

- Ayrı-ayrı cinayətlərin tərkib elementlərini müəyyən edən cinayət-hüquqi normalar, ibtidai araşdırmanın predmetini və sərhədini müəyyən edən cinayət-prosessual normalar
- Kriminalistika nəzəriyyəsinin, kriminalistik texnikanın, kriminalistika (istintaq) taktikasının ümumi müddəaları
- Daxili işlər, prokuror və məhkəmə orqanlarının qabaqcıl iş təcrübələri
- Kriminologiyanın müddəaları, cinayət hüququ nəzəriyyəsi, cinayət-prosessual hüququ, əməliyyat-axtarış fəaliyyəti nəzəriyyəsi, psixologiya, sosiologiya, məhkəmə statistikası, modelləşmə nəzəriyyəsi və digər elmlər

**Araşdırma metodikasının hüquqi əsasları**

- **Cinayət hüququ normaları**
  - Cinayət Məcəlləsinin müvafiq maddələrinin dispozisiyası
  - Konkret cinayət tərkibinin təhlili
- **Cinayət hüququ normaları**
  - Sübut edilməli olan hallar (AR CPM-nin 139,140,141 maddələri)
  - Əməliyyat-axtarış tədbirlərinin tətbiq edilməsi (AR CPM-nin 137 və s. maddələri)
  - İctimaiyyətin köməyindən istifadə edilməsi (AR CPM-nin 24-cü maddəsi)

**Araşdırma metodikasını müəyyən edən qanunauyğunluqlar**

- Cinayət növünün əlamətləri
- Şübhə edilənin və təqsirləndirilənin şəxsiyyətinin xüsusiyyətləri
- İstintaqın keçmiş (retro) təcrübəyə əsaslanması
- Cinayətkar əməli formalaşdıran obyektiv məntiqi faktlar
- Elmi-texniki vasitələrin inkişaf səviyyəsi
- Cinayətin ibtidai araşdırmasında əməliyyat-axtarış məlumatlarından istifadə edilməsi
- İctimaiyyətin köməyindən istifadə edilməsi
- Daxili işlər orqanlarının və istintaqa aidiyyəti olan şəxslərin əməyinin elmi təşkili və idarə olunması

**Ayrı-ayrı növ cinayətlərin araşdırma metodikasının prinsipləri**

1. Metodik tövsiyələrin qanunauyğunluğunun tam təmin edilməsi.
2. Sübut etmə predmetinin bütün hallarının və konkret cinayət işi üzrə sübuta yetirilməli olan halların tam siyahısının müəyyən edilməsi.
3. Cinayətin törədilmə üsullarının müəyyən edilməsi və alınmış məlumatlar əsasında cinayətin açılmasının, araşdırılmasının və qarşısının alınmasının səmərəli metodlarının işlənib hazırlanması.
4. Araşdırma metodikası tövsiyələrinin istintaq və təhqiqat orqanlarının iş təcrübələrinin öyrənilməsinə və ümumiləşdirilməsinə əsaslanması.
5. Araşdırma metodikası tövsiyələrinin istintaq hərəkətlərinin keçirilməsi, əməliyyat-axtarış məlumatlarından, ictimaiyyətin köməyindən və mütəxəssislərdən istifadə etmək üçün daha səmərəli şəraitin yaradılması.

**Ayrı-ayrı növ cinayətlərin araşdırma metodikasının prinsipləri**

*İbtidai araşdırmanın ilkin mərhələsində*

1. İbtidai araşdırmanı həyata keçirən şəxsin hadisənin hallarına, tədqiq olunan faktların aydınlaşdırılmasına, istintaqın planlaşdırılması üçün məlumatların alınmasına istiqamətlənməsi.
2. Məhv ola biləcək sübutların yığılmasının və qeyd olunmasının təmin edilməsi.
3. İsti izlərlə cinayətkarın müəyyən edilməsi, axtarılması və tutulması.
4. Cinayətin baş verməsinin qarşısını almaq məqsədilə məlumatlarının əldə edilməsi.

*İbtidai araşdırmanın sonrakı mərhələsində*

1. Əvvəllər müəyyən edilmiş sübutetmə predmetinə  müvafiq olaraq işin bütün hallarını müəyyən etmək məqsədilə sübutların yığılması, yoxlanılması və qiymətləndirilməsi məsələlərinin həll edilməsi.
2. Sonrakı istintaq hərəkətlərin dairəsinin müəyyən edilməsi və onların keçirilməsi taktikasının işlənib hazırlanması.
3. Konkret növ cinayətin törədilməsi səbəblərinin müəyyən edilməsi.

## Cinayət işi üzrə sübut edilməli hallar

**AR CPM-nin 139-cu maddəsi**

1. Cinayət hadisəsinin baş vermə faktı və halları.
2. Şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsi.
3. Cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət əməlləri.
4. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şəxsin təqsirsizliyi.
5. Cinayət qanunu ilə nəzərdə tutulmuş cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar.

**AR CPM-nin 221-ci maddəsi**

İbtidai araşdırmanın aparılması zamanı müstəntiq cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şəraiti) müəyyən etməlidir.

**AR CPM-nin 429-cu maddəsi**

Yetkinlik yaşına çatmayan şəxslərin cinayət işləri üzrə ibtidai istintaqda aşağıdakı halların müəyyən edilməsi tələb olunur:

1. Yetkinlik yaşına çatmayan şəxsin yaşı (gün, ay, doğulduğu il).
2. Həyat tərzi və tərbiyəsi.
3. Yetkinlik yaşına çatmayan şəxs tərəfindən cinayətin törədilməsinə sövq edən hallar.
4. Yaşlı təhrikçilərin və başqa iştirakçıların olması.

## Ayrı-ayrı cinayətlərin ibtidai araşdırma metodikasının məzmunu və strukturu

- Cinayət-hüquqi xarakteristika əsasında konkret növ cinayətin ibtidai araşdırması zamanı müəyyən edilməli olan hallar
- Konkret növ cinayətlə bağlı cinayət işinə başlamanın xüsusiyyətləri, istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin dairəsinin müəyyən edilməsi, onların keçirilməsi taktikasının şərh edilməsi
- Sonrakı istintaq hərəkətlərinin, onunla bağlı əməliyyat-axtarış tədbirlərinin dairəsinin və keçirilməsinin spesifik taktiki xüsusiyyətlərinin müəyyən edilməsi
- Konkret növ cinayətin törədilməsinə kömək edən səbəb və şəraitin aradan qaldırılması üçün tədbirlərin müəyyən edilməsi və onların həyata keçirilməsi üçün tövsiyələrin hazırlanması

**Kriminalistik xarakteristika** – bu konkret növ cinayət haqqında kriminalistik əhəmiyyət kəsb edən əlamətlər haqqında məlumatlar sistemi olub, onlar arasında qanunauyğun əlamətləri əks etdirir və araşdırmanın əsas vəzifələrini həll etmək məqsədilə fərziyyələrin qurulmasına və yoxlanılmasına xidmət edir.

**Cinayətin kriminalistik xarakteristikasının elementləri**

I. Cinayətə hazırlıq, onun törədilməsi və gizlədilməsi üsulları.

***Cinayətin törədilməsinin variantları:***

1. Cinayətə hazırlıq, onun törədilməsi və gizlədilməsi.
2. Cinayətin törədilməsi və gizlədilməsi.
3. Cinayətin törədilməsinə hazırlıq.
4. Cinayətin törədilməsi.

II. Cinayətin törədilməsi yeri, vaxtı, şəraiti, alət və vasitələri.
III. Qəsdin predmeti.
IV. Zərərçəkənin şəxsiyyəti.
V. Cinayətkarın şəxsiyyəti.
VI. Cinayət izləri.
VII. Cinayətin baş verməsinin səbəb və şəraiti.

# MÖVZU № 22. MƏNİMSƏMƏ VƏ YA İSRAFETMƏ YOLU İLƏ ÖZGƏ ƏMLAKINI TALAMA CİNAYƏTLƏRİNİN ARAŞDIRILMASININ XÜSUSİYYƏTLƏRİ

Mənimsəmə faktının olması

Mənimsəmənin üsulu

Mənimsəmədə iştirak edənlərin şəxsiyyəti, cavabdehliyi ağırlaşdıran və yüngülləşdirən hallar

**Müəyyən edilməli hallar**

Mənimsəmənin hər bir epizodunun törədilməsi vaxtı, yeri və başqa hallar

Maddi ziyanın xarakteri və miqdarı

Mənimsəmədə iştirak edənlərin şəxsiyyəti, cavabdehliyi ağırlaşdıran və yüngülləşdirən hallar

Maddi məsul şəxs tərəfindən ona həvalə edilmiş əmlakın açıq (maskalanmamış) şəkildə mənimsənilməsi və israf edilməsi

Alıcıları aldatmaqla əvvəlcədən artıq məhsul toplayıb sonradan pulların və ya qiymətli əşyaların talanması (bu üsul ticarət müəssisələri üçün xarakterikdir)

Tədarükçü tərəfindən təhvil verilən kənd tərəfindən təhvil verilən kənd təsərrüfatı məhsulunun keyfiyyət və kəmiyyət göstəricilərini təhrif etmək yolu ilə artıq məhsul ehtiyatı yaradıb sonradan talaması

**Talamanın əsas üsulları**

İlkin mühasibat və bank sənədlərinin saxtalaşdırılması və ya qeydiyyat sənədlərində təhriflər və s. (bank və mühasibat şöbələrində xarakterik üsul)

Faktiki görülməmiş iş müqabilində pulun qeyri-qanuni ödənilməsi, əmlakın silinməsi üçün saxta aktların tərtib edilməsi və s. (tikinti və s. müəssisələrdə xarakterik üsul)

İstehsal prosesində qənaət və qeyri-leqal yolla əldə edilmiş xammal və materiallardan qeydiyyatdan gizlədilmiş məhsulun hazırlanması, sonradan bu məhsulun realizəsi


Sənədlərin götürülməsi və baxışı
Aşkar edilmiş mənimsəmə faktına cavabdeh olan şəxslərin dindirilməsi
Şübhə edilən şəxsin əşyalarının axtarışı və onların siyahıya alınması
Şahidlərin dindirilməsi
ƏAT-ın keçirilməsi haqqında müvafiq orqanlara tapşırıq
Cinayət işi yoxlama-təftiş orqanlarının keçirdikləri əşya-hesablama, təftiş-yoxlama materialları və maraqlı şəxslərə məlum olan başqa rəsmi məlumatlar üzrə qaldırıldıqda
İbtidai istintaqın ilkin mərhələsində müstəntiqin hərəkətləri və tipik şəraitlər
Cinayət işi əməliyyat-axtarış fəaliyyətinin materialları üzrə, istintaqın nəticəsində marağı olan şəxslər üçün qəflətən qaldırılır
Cinayət işi şübhə edilən şəxslər və həmçinin hüquq-mühafizə orqanlarının əməkdaşları üçün gözlənilmədən aşkar edilmiş faktlar üzrə qaldırılır
Cinayət başında tutulduqda
Şübhə edilənlərin şəxsi axtarışı; onların iş və yaşayış yerlərində axtarış; əmlakına həbs qoyulması
Sənədlərin götürülməsi və baxışı
Şübhə edilən şəxslərin dindirilməsi
Şahidlərin dindirilməsi
Əşyayi-hesablama və təftişin təşkili
Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi haqqında müvafiq orqanlara tapşırıq
Predmetlərin götürülməsi və baxışı; müxtəlif saxlanc yerlərinə və qurğulara baxış

**Mənimsəmənin əsas əlamətləri**

- Maddi qiymətli əşyaların çatışmamazlığı və ya artıq olması
- Maddi qiymətli əşyaların silinməsi və ya başqa maddi məsul şəxslərə verilməsi haqqında saxta sənədlərin olması
- Maddi qiymətli əşyaların dövriyyəsini əks etdirən saxta sənədlərin olması
- Yüklərin sənədsiz yaxud sənədlərdə əks olunduğundan çox miqdarda daşınması
- Əmtəənin digər növ ad altında daha yüksək qiymətə satılması
- Xammalın yaxud müəssisə işçilərinin əmək haqqının vəzifəli şəxslərin şəxsi hesablarından verilməsi
- Malın pis keyfiyyətdə və ya çəkisinin az olması ilə əlaqədar müəssisəyə çoxlu sayda şikayətlərin daxil olması
- Təhvil verilən məhsulların göstəricilərinin aşağı salınması

***Sonrakı istintaq hərəkətləri***

- Sənədlərin baxışı
- Müqayisəli tədqiqat üçün nümunələrin götürülməsi
- Şahidlərin dindirilməsi
- Məhkəmə ekspertizalarının təyin edilməsi
- Təqsirləndirilən şəxsin dindirilməsi
- İstintaq eksperimenti

***Xarakterik məhkəmə ekspertizaları***

- Məhkəmə-mühasibat ekspertizası
- Məhkəmə-texnoloji ekspertizası
- Məhkəmə-aqrotexniki ekspertizası
- Məhkəmə-əmtəəşünaslıq ekspertizası
- Kriminalistik ekspertizaları
- Məhkəmə tikinti-texniki ekspertizası

# MÖVZU № 23. OĞURLUQ CİNAYƏTLƏRİNİN ARAŞDIRILMASININ XÜSUSİYYƏTLƏRİ

**Sübut edilməli hallar**

- Oğurluq faktının olması
- Oğurluğun törədilməsi üsulu
- Oğurluğun baş vermə şəraiti
- Oğurlanmış əşyaların kimə məxsus olması (dövlət, bələdiyyə və ya xüsusi)
- Konkret nə oğurlanıb (əşyaları və onların əlamətlərini tam təsvir etmək)
- Oğurluğu törədənin məhkumluğu
- Oğurluq cinayətində iştirak edənlərin şəxsiyyəti
- Əgər oğurluq bir qrup şəxs tərəfindən törədilibsə, onda cinayətin törədilməsində hər birinin rolu və cavabdehlik dərəcəsi
- Cinayət nəticəsində vurulan ziyanın ümumi miqdarı
- Oğurluğun törədilməsinə sövq edən hallar

**Oğurluq cinayətinin törədilməsinin əsas üsulları**

- Dövlət və ya bələdiyyə əmlakın, həmçinin xüsusi əmlakın oğurlanması
  - Sındırma yolu ilə
  - Sındırılmadan
- Etibardan sui-istifadə etmə yolu ilə törədilən oğurluqlar
  - Daxil olmaqla
  - Daxil olmadan
- Mənzilə daxil olmaqla bağlı olmayan şəxsi əmlak oğurluğu
- Avtomat saxlama kameralarından və vağzallardan oğurluq
- Avtomobillərdən oğurluq
- Cibgirlik oğurluqları
- Sərxoş vəziyyətdə olan şəxslərdən oğurluq
- Çamadanların, çantaların, velosipedlərin və başqa əşyaların oğurlanması

- Hədə-qorxu ilə tələbetmə faktının olması
- Hədə-qorxu ilə tələbetmənin törədilmə üsulu
- Hədə-qorxu ilə tələbetmənin baş vermə vaxtı, yeri
- Hədə-qorxu ilə tələbetmə cinayəti iştirakçılarının şəxsiyyətini xarakterizə edən məlumatlar
- Hədə-qorxu ilə tələbetmə cinayətində iştirakçıların hər birinin rolu, məsuliyyətlərini ağırlaşdıran və yüngülləşdirən hallar
- Hədə-qorxu ilə tələbetmə cinayətində başqa cinayət tərkiblərinin olması
- Maddi ziyanın miqdarı
- Hədə-qorxu ilə tələbetmə cinayətinin törədilməsinə kömək edən hallar

**Əmlakı hədə-qorxu ilə tələbetmənin üsulları**

- Zərər çəkmiş şəxsin və ya onun yaxın adamlarının şəxsiyyəti üzərində zor göstərmə hədəsi
- Zərər çəkmiş şəxsin və ya onun yaxın adamları haqqında rüsvayedici məlumatların yayma hədəsi
- Zərər çəkmiş şəxsin və ya onların yaxın qohumlarının əmlakını tələfetmə hədəsi

**Tipik istintaq şəraitləri və araşdırmanın ilkin mərhələsində müstəntiqin hərəkətləri**

- ***Şəxs məlumdur***
  - Şübhəli şəxsin dindirilməsi
  - Hadisə yerinə və sübutlara baxış
  - Şahidlərin dindirilməsi
  - Zərər çəkmiş şəxsin müayinəsi
  - Ekspertizaların təyin edilməsi
- ***Şəxs məlum deyil***
  - Hadisə yerinə baxış
  - Zərər çəkmiş şəxsin dindirilməsi
  - Şahidlərin dindirilməsi
  - Zərər çəkmiş şəxsin müayinəsi
  - Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi haqqında tapşırıqlar vermək


Təqsirləndirilən şəxsin dindirilməsi
İfadələrin yerində yoxlanılması
İstintaq eksperimenti
Sonrakı istintaq hərəkətləri
Şahidi dindirmə
Axtarış və götürmə
Üzləşdirmə


Xətşünaslıq ekspertizası
Daktiloskopik ekspertizası
Məhkəmə-psixiatriya ekspertizası
Xarakterik məhkəmə ekspertizaları
Məhkəmə-tibbi ekspertizası
Məhkəmə-trasoloji ekspertizası
Məhkəmə-ballistik ekspertizası

## MÖVZU № 35. EKOLOJİ CİNAYƏTLƏRİN ARAŞDIRILMASININ XÜSUSİYYƏTLƏRİ

**Ekoloji cinayətlər** - keyfiyyətcə ətraf mühitin saxlanılması, onun sərvətlərinin səmərəli istifadəsi və əhalinin ekoloji təhlükəsizliyinin təmin edilməsi sahəsində olan münasibətlərə qəsd edən cinayətlər adlanır.

**Ekoloji cinayətlərin kriminalistik xarakteristikası**

- Şərait
- Törədilmə yeri
- Törədilmə mexanizmi
- Törədilmə üsulları
- Cinayətkarın izləri
- Cinayəti törədənin şəxsiyyəti

**Cinayət işinə başlanılmasının xüsusiyyətləri**

*Cinayət işinə başlanan zaman aşağıdakılar aydınlaşdırılmalıdır:*

- hər hansı ekoloji cinayətin törədilmə faktı varmı (qanunsuz ağac kəsmə, suyu çirkləndirmə və s.);
- heyvanat və bitki aləminə, balıq ehtiyatlarına, meşə və kənd təsərrüfatına zərər yetirilibmi;
- insanların sağlamlığına zərər vurulubmu.

**Müəyyən edilməli olan hallar**

- Baş vermiş hadisənin xarakteri (cinayətin baş vermə üsulu)
- Hadisənin baş verdiyi vaxt və yer
- Təqsirləndirilən şəxsin törətdiyi cinayətdə təqsiri
- Cinayət nəticəsində vurulan ziyanın miqdarı və xarakteri
- Təqsirləndirilən şəxsin cavabdehliyinə təsir göstərən halların xarakteri və dərəcəsi
- Cinayətin törədilməsinə sövq edən hallar

**Ekoloji cinayətlər üzrə ilkin istintaq hərəkətləri**

Hadisə yerinə baxış.

*Ekoloji cinayətlərin istintaqında baxış zamanı tətbiq edilən elmi-texniki vasitələr:*

a) çirklənmiş ərazinin, çirklənmə izlərinin və onun nəticələrinin (tələf olmuş balıq, heyvan cəsədləri, məhv olmuş bitkilər və s.) foto və vidoçəkilişinin aparılması;
b) videokameranın köməkliyi ilə davam edən zərərli maddələrin tullanmasının qeyd edilməsi;
c) atmosfer havasının təmizliyini yoxlamaq üçün qaz analizatorlarından istifadə edilməsi.

**Nümunələrin götürülməsi**

***Çaylardan və bulaqlardan*** suyun nümunəsi hər iki sahildən, suyun səthindən və axar suyun çaya tökülən yerlərindən götürülür. Belə hallarda suyun sürəti, çayın relyefi və s. əlamətləri qeyd edilir.

***Sututarlarda*** suyun nümunəsi 0,25-0,5 – 1 km məsafədə suyun axarı istiqamətində götürülür. Hər bir yuxarıda göstərilən hallarda nümunə bir neçə nöqtədən götürülür.

***Qarın nümunəsi*** ən qalın təbəqələrdən, buzun nümunəsi isə bir neçə yerdən götürülür. Qar və buzun nümunələrini götürərkən, onları kənar hissəciklərdən təmizləmək lazımdır.

***Havanın nümunəsi*** yaşayış məntəqələrində 0,5-5 km intervalla, yerdən 1,5-3,5 m hündürlükdə götürülür.

***Suyun nümunələri*** çirkləndirmə mənbəyindən 0,5-1 km məsafədə, çirklənmiş ərazidə hər məntəqədən aşağı istiqamətdə 5-7 nöqtədən 1,5-2 litr həcmdə götürülür.

***Sututarları*** çirklənmiş ərazinin mərkəzindən 2-3 nöqtədən götürür.

***Torpaq nümunələri*** eyni 10x10x5 sm ölçüdə çirklənmiş ərazinin müxtəlif yerlərindən götürülür.

***Xəstə və ya az müddət əvvəl tələf olmuş balıq, quş və bitki nümunələri*** hər növdən bir neçə 5 ədəddən az olmayaraq götürülür.

## Sənədlərə baxış

1. Maye-sənaye tullantılarının qeydiyyatı kitabı.
2. Təmizləyici, süzücü və duruldducu qurğuların layihə sənədləri, istismara qəbul aktı və s.
3. Müəssisənin, obyektin növbətçi, mühəndis-kimyaçı və digər vəzifəli şəxslərin növbətçilik jurnalı, həmçinin çirkab sularına nəzarət jurnalı.
4. Energetika və kanalizasiya obyektlərinin istismarı haqqında əmrlər, təlimatlar və sərəncamlar, o cümlədən çirkab sularının axıdılmasına icazə.
5. Nəqliyyat təşkilatları tərəfindən görülmüş işlər üzrə qaimələr, yol vərəqələri və digər sənədlər.
6. Gəmi sənədləri.
7. Kanalizasiya və təmizləyici obyektlərin sıradan çıxması, təmiri və yenidən qurulması haqqında aktlar, arayışlar, naryadlar və digər sənədlər.
8. sənaye müəssisəsinin laboratoriyaları, sanitar-epidemioloji xidmətlərin, hövzə müfəttişliyinin hidrokimyəvi laboratoriyalarının operativ nəzarət jurnalı, yoxlama aktları və digər analoji sənədlər.
9. Digər daimi və birdəfəlik xarakterli sənədlər.

## Sonrakı istintaq hərəkətləri

- Təqsirləndirilən şəxsi dindirmə
- İfadələrin yerində yoxlanılması
- Şahidi dindirmə
- Tanınma
- Məhkəmə ekspertizasının təyin edilməsi
- İstintaq eksperimenti

**Ekoloji ekspertiza qarşısında həll edilən suallar**

1. Ətraf mühitə hansı ziyan vurulub, onun xarakteri və miqyası. Ətraf mühitin mühafizə qaydalarının pozulmasına yol verilibmi?
2. Bu müəssisədən istehsalat prosesi nəticəsində əmələ gəlmiş zərərli maddələrin və tullantıların konsentrasiyası qəbul edilmiş normadan nə qədər artıqdır?
3. Hava, su və torpaq üçün zərərli maddələr qəbul edilmiş konsentrasiyadan nə qədər artıqdır?
4. Bu obyektdə şəxslər, ərazi üçün qəbul edilmiş dozadan artıq nə qədər şüalanma vardır (rentgen, qamma-şüalar və s.)?
5. İstehsalatın təşkili radiasiya təhlükəsizliyinin tələblərinə cavab verirmi?
6. Ətraf mühitin çirkləndirilməsinin qarşısının alınmasına imkan olubmu və bu nədən ibarətdir?
7. Ətraf mühitin mühafizə qaydalarının pozulmasına sövq edən hallar hansılardır?

## MÖVZU № 36. QƏSDƏN YANDIRMA VƏ YA YANĞIN TƏHLÜKƏSİZLİYİ QAYDALARININ POZULMASI İLƏ ƏLAQƏDAR CİNAYƏTLƏRİN ARAŞDIRILMASININ XÜSUSİYYƏTLƏRİ

**Cinayət işinə başlamanın xüsusiyyətləri**

- ***Cinayət işi dərhal qaldırılır***
  - İnsan tələfatı olan zaman
  - Yanğın əlamətləri olan zaman
  - Yanğın vasitəsi ilə digər cinayətin gizlədildiyi haqqında məlumatlar aşkar edildiyi zaman
  - Külli miqdarda maddi ziyan vurulan zaman
- ***Cinayət işinə başlanana qədər keçirilən ilkin yoxlama prosesində aşağıdakılar zəruridir***
  - Həmin təşkilatın nümayəndələrinin iştirakı ilə yanğının səbəbini göstərməklə akt tərtib etmək
  - Maddi ziyanın miqdarı və xarakteri haqqında arayış
  - Sığorta şəhadətnaməsini tərtib etmək
  - Yanğın baş verən yerə baxış keçirmək
  - Şahidləri, zərərçəkənləri dindirmək
  - Yanğın təhlükəsizliyi qaydalarının qorunması haqqında olan texniki sənədləri öyrənmək

**Müəyyən edilməli hallar**

- Cinayət iştirakçılarının şəxsiyyətini xarakterizə edən məlumatlar
- Başqa cinayət əməllərinin gizlədilməsi əlamətlərinin olub-olmaması
- Maddi ziyanın miqdarı və xarakteri
- Yanğın baş verməsinə sövq edən hallar

**Yanğın haqqında tipik fərziyyələr**

- Tez alışan predmetlərlə və ya maddələrlə ehtiyatsız davranış və onların düzgün saxlanılması
- Təbii hadisə (ildırım boşalmaları və s.)
- Odla səhlənkarcasına davranma
- Elektrik naqillərinin nasazlığı
- Qəsdən yandırma

**Tipik şəraitlər və ibtidai araşdırmanın ilk mərhələsində müstəntiqin hərəkətləri**

- *Yanğının səbəbi məlumdur*
  - Hadisə yerinə baxış
  - Zərər çəkmiş şəxsin, maddi məsul şəxslərin dindirilməsi
  - Şahidlərin dindirilməsi
  - Şübhə edilən şəxsin dindirilməsi
  - Məhkəmə ekspertizalarının təyin edilməsi
- *Yanğının səbəbi məlum deyil*
  - Hadisə yerinə baxış
  - Şahidlərin dindirilməsi
  - Obyektdə yanğın təhlükəsizlik qaydalarına cavabdeh olan şəxslərin dindirilməsi
  - Zəruri hallarda təftişlərin təyin edilməsi
  - Məhkəmə ekspertizaların təyin edilməsi
  - Mütəxəssislərin dindirilməsi
  - Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi, tapşırıqlar vermək

**Yanğının mənbəyinə dəlalət edən əlamətlər**

- His və qətran örtüklərinin olması
- Neft məhsulları və yanacaq sürtgü materiallarının, tezalışan maddə və predmetlərin qalıqlarının olması
- Yanğın nəticəsində dağılmış yerlərin olması
- Yanğın qalıqlarının daha çox olması
- Yanğın yuvasının olması
- Digər müxtəlif maddi izlərin olması (his)
- Elektrik naqillərinin əriməsi
- Yanğın məqsədilə mümkün predmetlərin və qurğuların olması

**Hadisə yerinə baxış zamanı istifadə olunan texniki vasitələr və metodlar**

- Sınaq şüşəsinə hadisə yerindən götürülmüş his yerləşdirilərək ona su və kalium-marqaniz qatışığı əlavə etməklə 50-60 S qızdırılır və bu zaman neft məhsullarının və yanacaq sürtgü materiallarının qalıqlarını aşkar etmək mümkün olur;
- Ultra-bənövşəyi şüalardan istifadə etməklə (benzindən başqa);
- Rəngləyicilər D,J,K, SS və s. süzgəc kağızları ilə örtülür, əgər tezalışan maddə varsa aşıq rəng alınır;
- Neoflemetrik analif;
- Xətti kalorimetrik analiz.


Təqsirləndirilən şəxsin dindirilməsi
Üzləşdirmə
İfadələrin yerində yoxlanması
Sonrakı istintaq hərəkətləri
Axtarış
Şahidi dindirmə
İstintaq eksperimenti


Material, maddə və onlardan hazırlanmış məmulatların ekspertizası
Bioloji ekspertiza
Fiziki və kimyəvi ekspertizalar
Xarakterik məhkəmə ekspertizaları
Yanğın-texniki ekspertiza
Elektrotexniki ekspertiza
Məhkəmə-tibbi ekspertiza

## MÖVZU № 37. YETKİNLİK YAŞINA ÇATMAYANLAR TƏRƏFİNDƏN TÖRƏDİLMİŞ CİNAYƏTLƏRİN ARAŞDIRILMASININ XÜSUSİYYƏTLƏRİ

**Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hər bir cinayət faktı üzrə yürüdülən əlavə istintaq fərziyyələri**

- Təhrikçi və ya cinayətdə digər iştirakçıları qismində yaşlı şəxslər çıxış edirlər
- Yaşlı şəxslər tərəfindən cinayət haqqında xəbər verilməməsi və ya əvvəlcədən vəd etmədən cinayəti gizlətmə faktı mövcuddur
- Yetkinlik yaşına çatmayanlar tərəfindən talanmış əşyalar yaşlı şəxslər tərəfindən alınır
- Yaşlı şəxslər yetkinlik yaşına çatmayanları spirtli içkilər, narkotik vasitələr qəbul etməyə cəlb edir, qumar oynamağa, tüfeyli həyat tərzi sürməyə təhrik edirlər

**Hadisə yerinə baxış zamanı cinayətin yetkinlik yaşına çatmayanlar tərəfindən törədilməsinə dəlalət edən əlamətlər**

- Cinayətkarın ayrı-ayrı hərəkətlərinin məntiqsizliyini təsdiq edən izlər (hadisə yerində)
- Cinayətkarın qoyduğu izlər (əl, ayaq, diş, manedə deşik və s. kiçik ölçüdə)
- Əmlakın talanması cinayətlərində əmlakın xarakteri (foto, video, radio-aparatlar, oyuncaqlar, şirniyyat məmulatları, müxtəlif dəftərxana ləvazimatı və s.)
- Talanmış əmlakın əl dəyilməmiş, diqqətdən kənarda qalmış əmlaka nisbətən ucuz və əhəmiyyətsiz olması
- Hadisə yerində qalan digər izlər və hallar (şirniyyat məmulatlarının yeyilməsi, şəkillərin çəkilməsi, qiymətli və ağır əmlakın "yarı yolda" atılması və s.)


Yetkinlik yaşına çatmayan təqsirləndirən şəxsin dindirilməsi
Üzləşdirmə
Məhkəmə ekspertizalarının təyin edilməsi
Sonrakı istintaq hərəkətləri
Tanınma üçün təqdim etmə
İstintaq eksperimenti
İfadələrin yerində yoxlanması


Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərin məhkəmə-psixoloji ekspertizası
Məhkəmə-tibbi ekspertiza (yaşı müəyyən ütmək üçün)
Məhkəmə-trasoloji ekspertizası
Xarakterik məhkəmə ekspertizaları
Məhkəmə-bioloji ekspertizası
Cinayətkar qrupun üzvlərinin məhkəmə-psixoloji ekspertizası
Məhkəmə-xətşünaslıq ekspertizası

## MÖVZU № 38. KEÇMİŞ İLLƏRİN AÇILMAMIŞ CİNAYƏTLƏRİNİN ARAŞDIRILMASININ XÜSUSİYYƏTLƏRİ

**Keçmiş illərin açılmamış cinayətləri üzrə cinayət işinin materiallarının təhlili zamanı tədqiq edilməli və qiymətləndirilməli olan hallar**

- Cinayət işi üzrə sübutların açılmamış cinayətə aidiyyəti
- Sübutlar arasında əlaqə və onların cinayət işi üzrə həqiqətin müəyyən edilməsi üçün əhəmiyyəti
- Cinayət işinin və ayrı-ayrı istintaq hərəkətlərinin vaxtında keçirilməsi
- İlkin istintaq hərəkətlərinin keyfiyyətli keçirilməsi və onların nəticələrinin düzgün qiymətləndirilməsi
- Yoxlanılan fərziyyələrin əsaslılığı, onların tam və hərtərəfli yoxlanması
- Zərərçəkənin şəxsiyyətinin öyrənilməsi dərəcəsi
- Şübhə edilənin şəxsiyyətinin öyrənilməsi dərəcəsi
- Cinayət işi üzrə sübutetmə predmetinə aid olan başqa halların tam müəyyən edilməsi
- Açılmamış cinayətin törədilməsi üsulunu xarakterizə edən halların tam tədqiqi və qeydə alınmasının müəyyən edilməsi
- Sonrakı istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin keyfiyyətli və vaxtında keçirilməsi

**Açılmamış cinayət işləri üzrə icraatın təzələnməsinə qədər müstəntiqin hərəkətləri**

- Zərər çəkmiş şəxslərə və şahidlərə sorğular keçirmək
- Hadisə yeri ilə şəxsən tanış olmaq
- Daxili işlər orqanlarına təkrar bildiriş (tələbnamələrin göndərilməsi)
- Başqa idarə və təşkilatlara tələbnamələrin göndərilməsi
- Qeydiyyat üzrə yoxlamalar
- Son vaxtlarda törədilən oxşar cinayətlərin iş materiallarının öyrənilməsi
- Açılmamış cinayətə qədər törədilən, açılmayan analoji cinayətlərin iş materialların öyrənilməsi
- Daxili işlər orqanlarının kriminalistik hissələrin əməkdaşları və başqa mütəxəssislər tərəfindən tədqiqatların keçirilməsi
- Əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün tapşırıqlar vermək

**Keçmiş illərin açılmamış cinayətləri üzrə obyektlərin öyrənilməsində müstəntiqin hərəkətləri**

- İcraatı dayandırılmış cinayət işinin materialları
- Bu cinayətə aid olan əməliyyat-axtarış materialları
- Cinayətin baş verdiyi yerdə əməliyyat şəraitini xarakterizə edən əməliyyat-axtarış məlumatları
- Araşdırılan cinayətin baş verməsinə qədər və ondan sonra qaldırılan analoji cinayət işlərinin materialları
- Həmin cinayət üzrə köhnə istintaq və əməliyyat-axtarış tədbirlərinin planı
- Analoji faktlar üzrə rədd edilmiş materialları
- Həmin cinayət üzrə anonim və başqa məlumatları

## MÖVZU № 39. İQTİSADİ FƏALİYYƏT SAHƏSİNDƏ TÖRƏDİLƏN CİNAYƏTLƏRİN ARAŞDIRILMASININ XÜSUSİYYƏTLƏRİ

**Vergi ödəməkdən yayınmanın üsulları**

- ***Fiziki şəxslərin vergidən yayınması üsulları***
  - Vergi deklorasiyasının lazımi qaydada tərtib olunmaması
  - Müəssisələrdə ödənilmiş pul vəsaitlərinə ilkin sənədlərin lazımi qaydada tərtib olunmaması
  - Fiziki şəxsə ödənilmiş pul vəsaitlərinin heç bir sənəddə qeydiyyata alınmaması
  - Pul vəsaitlərinin müəssisənin xəzinəsindən deyil, sığorta firmalarından ödənilməsi
- ***Hüquqi şəxslərin vergidən yayınması üsulları***
  - Təsərrüfat fəaliyyətin zəruri hüquqi qeydiyyatının olmaması
  - Təsərrüfat əməliyyatlarının və ya təsərrüfat subyektlərinin ayrı-ayrı fəaliyyət növlərinin mühasibat qeydiyyatının qismən və tamamilə olmaması
  - Maddi qiymətlərin satışından əldə edilmiş gəliri mədaxil etmədən, onların əsassız silinməsi
  - Təsərrüfat subyektlərinin qanunsuz olaraq vergi imtiyazlarının tətbiq edilməsi

**Gəlirlərin vergi ödəmədən gizlədilməsi üsulları**

*İlkin sənədlərdə maddi xərclər haqqında məlumatların şişirdilməsi:*

- sifarişçinin materiallarının xərclərə aid edilməsi;
- materialların silinməsinə saxta sənədlərin tərtib edilməsi;
- qaimələrdə əldə edilmiş əşyalara qiymətlərin yüksəldilməsi.

*Hesabat sənədlərində maddi xərclər haqqında məlumatların şişirdilməsi:*

- hesabat dövrünün xərclərinə nəzərdə tutulmuş xərclərin aid edilməsi;
- əsas vasitələrin qiymətini azqiymətlilərin və tez istismar olunan predmetlərin qiymətinə aid etməklə sadələşdirilmiş qaydada silinməsi.

Maliyyə sənədlərində maddi xərclər haqqında məlumatların şişirdilməsi

*İlkin sənədlərdə maddi xərclər haqqında məlumatların aşağı salınması:*

- əldə edilmiş əşyaların sayının aşağı salınması;
- realizə edilmiş əşyaların qiymətinin aşağı salınması;
- bilavasitə əmtəə ilə ödəmə.

*Qeydiyyat sənədlərdə gəlirlər haqqında məlumatların aşağı salınması:*

- qeyri-leqal satış məntəqələrini işlətməklə arendaya verilmiş istehsalat vasitələrindən alınmış gəlirin həcmini aşağı salınmaqla.

*Hesabat sənədlərdə gəlirlər haqqında məlumatların aşağı salınması:*

- balansda və baş kitabda gəlir haqqında məlumatların təhrif olunması;
- maliyyə nəticələri hesabatında gəlir haqqında məlumatın təhrif edilməsi.

## Müəyyən edilməli hallar

- Cinayətin subyektinin hüquqi statusu: fiziki şəxs (sahibkar), hüquqi şəxs (müəssisə, təşkilat)
- Fiziki şəxs və ya müəssisə (təşkilat) vergi ödəməlidirmi
- Fiziki və hüquqi şəxs hansı növ vergilər və digər məcburi ödəmələr ödəməlidir
- Vergilərin ödənilməsi üzrə şəxs (fiziki, hüquqi) imtiyazlar hüququna malikdirmi
- Müəssisədə mühasibat uçotunun və hesabatın aparılma qaydaları necədir
- Vergi ödəyən hansı müddət ərzində və hansı maliyyə təsərrüfat fəaliyyətini həyata keçirmişdir
- Mühasibat uçotu sənədlərinə və hesablara hansı müddət ərzində təhrif edilmiş məlumatlar daxil edilmişdir
- Uçot və hesabatlara təhrif edilmiş məlumatların daxil edildiyi dövrdə müəssisəyə kim rəhbərlik etmiş və mühasibat uçotuna kim cavabdehlik daşımışdır
- Cinayətin törədilməsinə kimin aidiyyəti var və onun təşəbbüskarı kim olmuşdur
- Obyektlərin vergidən gizlədilməsi faktı kim, nə vaxt və hansı hallarda aşkar edilmişdir
- Vergi ödəyən subyekt hansı qanun və qanuni qüvvəli aktları pozmuşdur
- Vergidən gizlədilmiş obyektlərdən ödənilməmiş verginin məbləği nə qədərdir
- Ziyanın ödənilməsi üçün hansı tədbirlərin görülməsi vacibdir
- Obyektlərin vergi ödəməkdən gizlədilməsində hansı üsullardan istifadə edilmişdir
- Cinayətin törədilməsinə hansı hallar kömək göstərmişdir

# MÖVZU № 40. TERRORÇULUQ CİNAYƏTLƏRİNİN İBTİDAİ İSTİNTAQININ XÜSUSİYYƏTLƏRİ

**Terrorizm** – ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədi ilə insanların kütləvi surətdə qırılmasına, onlara bədən xəsarəti yetirilməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına və ya onların əmlakının məhv edilməsinə (zədələnməsinə) və ya başqa ağır nəticələrə səbəb olan əməllər törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönəlmiş hədədir.

(“Terrorizmə qarşı mübarizə haqqında” AR Qanunu, mad.1).

**Terrorizmin sosial-hüquqi təzahür kimi formaları**

- **Daxili (milli) terrorçuluq** – bir dövlətin ərazisində həyata keçirilir, terrorçular və terror qurbanları həmin dövlətin vətəndaşları olurlar
- **Beynəlxalq (transmilli) terrorçuluq** – terrorçular tərəfindən xarici dövlətlərin, beynəlxalq təşkilatların nümayəndələrinə, xarici dövlətlərin vətəndaşlarına, terrorçunun vətəndaşı olmadığı dövlətin ərazisində törədilir

**Terror aksiyası – terrorçuluq cinayətlərinin bilavasitə törədilməsi forması olub aşağıdakı növlərə bölünür**

- Partlayış və yanğınlarının törədilməsi
- Nüvə partladıcı qurğuların, radioaktiv, kimyəvi, bioloji, partlayıcı, toksiki, zəhərləyici, güclü təsiredici maddələrin tətbiqi və ya tətbiqi hədəsi
- Nəqliyyat və ya digər obyektlərin zəbt edilməsi, zədələnməsi və ya məhv edilməsi
- Dövlət və ya ictimai xadimin, milli, etnik, dini və ya digər qrupların nümayəndələrinin həyatlarına sui-qəsd
- Adamların girov götürülməsi və ya oğurlanması
- Qeyri-müəyyən sayda şəxslərin həyatları, sağlamlığı və ya əmlakları üçün təhlükəli texnogen xarakterli qəza və hadisə şəraitinin yaradılması və ya bu cür şəraitin yaradılmasına real hədə
- Hər hansı formada, hər hansı vasitələrdən istifadə etməklə hədə-qorxunun yayılması
- Digər hərəkətlər (insanların həlak olmasına, əmlaklarına xeyli zərər yetirilməsinə və ya digər ictimai təhlükəli nəticələrin baş verməsinə səbəb olan)

**Terrorçuluğu doğuran amillər**

- Regionlarda vaxtı çoxdan çatmış, lakin həll edilməyən sosial, iqtisadi, mədəni, milli və s. problemlər
- Dövlət və icra strukturlarının əhalinin ehtiyaclarına qayğısız, bürokratik münasibət göstərmələri, onların sosial məsələlərini həll etməməsi və ya bunu istəməməsi
- Əhali ilə (əlaxüsus gənclərlə) keçirilən siyasi, hüquqi, mədəni və tərbiyəvi işin aşağı səviyyədə olması, KİV-in fəaliyyətindəki çatışmamazlıqlar
- Bəzi regionlardakı qatı millətçi, separatist və korrupsiyaya qurşanmış dağıdıcı elementlərin – yerlərdə qeyri-sabitlik yaratma fəaliyyətləri
- Bəzi şəxslərin (qrup, klan və s.) nəyin bahasına olursa olsun hakimiyyətə yiyələnmə iddiası
- Çoxlu sayda insan yığılmış kütləvi tədbirlərin aşağı səviyyədə təşkil edilməsi və keçirilməsi
- Mövcud qanunvericiliyin qeyri-təkmilliyi, natamamlığı və ya yerinə yetirilməməsi, hüquq-mühafizə orqanlarının işindəki yatmazlıq, qeyri-peşəkarlıq ayrı-ayrı əməkdaşların qanuna zidd hərəkətləri və s.

**Terrorçuluğu doğuran səbəblər**

- Əhalinin gündəlik tələbat malları ilə təchiz və təmin edilməməsi, əmək haqqının vaxtında verilməməsi
- Müxtəlif dövlət orqanları tərəfindən, əhalinin müəyyən bir təbəqəsinin marağının (fəaliyyətinin) məhdudlaşdırılması

*Ardı növbəti səhifədə*

- Müxtəlif milli, dini və s. mənsubiyyətləri olan şəxslər (qruplar, təriqət, birləşmələr) arasında yaranmış münaqişələr
- İctimaiyyət arasında geniş rezonans yaratmış və şəxsiyyət əleyhinə yönəldilmiş ağır cinayətlərin vaxtında açılmaması
- Ekstremal və münaqişəli şəraitlərdə silah və xüsusi vasitələri tətbiq edərkən HMO-nın bəzi əməkdaşlarının bacarıqsız və ya düşünülməmiş hərəkətləri
- Kütləvi idman, mədəni və s. tədbirlər zamanı azarkeşlərin (tamaşaçıların) ifrat məyusluğu və ya emosiyası
- Müxtəlif iftira, böhtan, yalan və s. xarakterli şayiələrin yayılması
- Hüquq-mühafizə orqanlarının bəzi əməkdaşları tərəfindən, yerlərdə əhalinin adət-ənənələrinin nəzərə alınmaması

**İbtidai istintaqın ilkin mərhələsində tipik kriminalistik şəraitlər və müstəntiqin fəaliyyət alqoritmi**

- ***Terrorçu bilavasitə terror aksiyası törədərkən və ya ondan sonra yaxalanıb***
  - Hadisə yerinə və əşyalara baxış
  - Tutulma və şəxsi müayinə
  - Şəxsin və əşyaların tanınması
  - Axtarış və götürmə
  - Şübhəli şəxsi dindirmə
  - Məhkəmə ekspertizalarının təyin edilməsi
- ***Törədilmiş terror aksiyasının icraçıları haqqında cüzi məlumat var və ya hər hansı terror təşkilatı məsuliyyəti öz üzərinə götürüb***
  - Hadisə yerinə və əşyalara baxış
  - Şahidlərin dindirilməsi
  - Məhkəmə ekspertizalarının təyin edilməsi
  - ƏAT-ın keçirilməsi haqqında tapşırıqlar vermək
  - Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi
  - Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması
- ***Törədilmiş terror aksiyası ilə əlaqədar terrorçular və cinayətin motivi haqqında heç bir məlumat yoxdur***
  - Hadisə yerinə və əşyalara baxış
  - Məhkəmə ekspertizalarının təyin edilməsi
  - Zərərçəkmiş şəxslərin və şahidlərin dindirilməsi

*Ardı növbəti səhifədə*

- ƏAT-ın keçirilməsi haqqında təhqiqat orqanlarına tapşırıq
- İnterpolun MMB-na sorğu
- Şəxsin və əşyaların tanınması

***Azərbaycan Respublikası ərazisində terror aksiyası törətmiş xarici ölkə vətəndaşı istintaqdan qaçıb gizlənib və ya respublikanın hüdudlarını tərk edib***

- Hadisə yerinə və əşyalara baxış
- Məhkəmə ekspertizalarının təyin edilməsi
- ƏAT-ın keçirilməsi haqqında təhqiqat orqanlarına tapşırıq

**Sonrakı istintaq hərəkətləri**

- Şübhəli şəxsi və ya təqsirləndirilən şəxsi dindirmə
- Şəxsin və ya əşyaların tanınması
- İfadələrin yerində yoxlanılması
- İstintaq eksperimenti
- Tədqiqat üçün nümunələrin götürülməsi
- Axtarış və götürmə
- Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması
- Telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi

**Xarakterik istintaq hərəkətləri**

- Məhkəmə partlayış texniki ekspertizası
- Məhkəmə partlayış texnoloji ekspertizası
- Məhkəmə-trasoloji ekspertizası
- Məhkəmə-ballistik ekspertizası
- Məhkəmə-bioloji ekspertizası
- Məhkəmə tibbi və psixofizioloji ekspertizaları
- Material, maddə və məmulatların kriminalistik ekspertizası
- Məhkəmə yanğın texniki ekspertizası

## MÖVZU № 41. ADAM OĞURLUĞU CİNAYƏTLƏRİNİN ARAŞDIRILMASININ XÜSUSİYYƏTLƏRİ

**Adam oğurluğu** – zərərçəkmiş şəxsin iradəsinə zidd surətdə onu açıq, yaxud da gizli formada yaşadığı mühitdən təcrid etməklə, zərərçəkmiş şəxsə faktiki sahib olmanı nəzərdə tutur.

**Adam oğurluğu ilə bağlı baxışın obyektləri**

- Adam oğurluğunun törədildiyi yer
- Ödənişin predmeti (oğurlanmış şəxsin geri qaytarılması üçün tələb olunan pul və digər qiymətlilər)
- Oğurlanmış şəxsin zorla saxlandığı yer
- Adam oğurluğunu törətmiş şəxslərin yaxalandığı yer
- Əməliyyat çəkilişləri (kino, video)

**Adam oğurluğu cinayətlərinin kriminalistik xarakteristikası**

- Cinayətin baş vermə vaxtı
- Cinayətin baş verdiyi yer
- Cinayətin törədilməsi üsulu
- Cinayətin törədilməsi məqsədi
- Oğurlanmış adamın geri qaytarılması üçün tələb olunan ödənişin alındığı yer
- Cinayət törətmiş şəxslərin şəxsiyyəti
- Zərərçəkənin şəxsiyyəti

**Adam oğurluğu ilə əlaqədar təqsirləndirilən şəxsin dindirilməsinin taktiki üsulları**

- İlk növbədə təhrikçiləri və köməkçiləri dindirmə
- Adam oğurluğunun nəticələrini əks etdirən materialları təqdim etmək
- Oğurlanmanın bəzi nəticələrini dindirilən şəxsdən gizli saxlamaqla onu nigarançılıqda qoyma
- Şübhəli şəxsi tutulan yerdə təxirə salınmadan dindirmək
- Cinayət qrupuna daxil olan şəxslər arasında mövcud ziddiyyətli şəraitdən istifadə etmək
- Dindirmə zamanı şəxsin ifadə verməməyinin səbəblərini müəyyən edib və onları aradan qaldırmaq
- Mövcud sübutlardan bacarıqla istifadə edib, dindirilən şəxsdə müstəntiqin cinayət barədə geniş məlumata malik olması təəssüratını yaratmaq
- Proses iştirakçıları arasında üzləşdirmə keçirtmək

## MÖVZU № 42. KOMPYUTER İNFORMASİYA SAHƏSİNDƏ CİNAYƏTLƏRİN ARAŞDIRILMASI METODİKASI

**Kompyuter informasiyasına qanunsuz daxil olma** dedikdə, qanuni istifadəçi olmayan, yaxud həmin informasiya ilə işləmək üçün müvafiq icazəsi olmayan şəxsin onun üçün bağlı olan informasiya sisteminə mülkiyyətçinin, yaxud digər səlahiyyətli şəxsin razılığı olmadan daxil olması başa düşülür.

**Kompyuter informasiyası sahəsində 3 növ hüquq pozuntusu nəzərdə tutulur**

- Kompyuter informasiyasına qanunsuz olaraq daxil olma (maddə 271)
- Elektron-hesablayıcı maşınlar üçün ziyanverici proqramlar yaratma, onlardan istifadə etmə və ya onları yayma (maddə 272)
- Elektron-hesablayıcı maşınların (EHM), EHM sisteminin və ya onların şəbəkələrinin istismarı qaydalarını pozma (maddə 273)

**Hadisə yerinə baxış**

- Hadisə yerində olan mövcud şəraiti qeydə almaq;
- Hadisə yerində olan texniki vasitələrə, sistemə hər hansı bir şəxsin düşməsinin qarşısını almaq üçün tədbirlər görmək;
- Baxış keçirilən yerdə olan kompyuterlərin lokal hesablayıcı sistemə qoşulub-qoşulmamasını müəyyən etmək;
- Baxış keçirilən yerdə olan kompyuterlərin digər otaqlarda olan vasitələrlə, hesablayıcı texnika ilə qoşulmasını yoxlamaq;
- Kompyuterin telefona və ya teletayp sisteminə qoşulmasını yoxlamaq;
- EHM proqramlar yüklənibmi, yüklənibsə hansı proqramlardır.

## Müəyyən edilməli hallar

- Kompyuter informasiyası sisteminə və şəbəkəsinə qanunsuz daxil olma;
- Kompyuter sisteminə və şəbəkəsinə qanunsuz daxil olma yerinin müəyyən edilməsi;
- İnformasiya sisteminə və şəbəkəsinə qanunsuz daxil olma vaxtının müəyyən edilməsi;
- İnformasiya sisteminə qanunsuz daxil olmanın üsulunun müəyyən edilməsi;
- Kompyuter informasiyanın qoruyucu sisteminin etibarlı olmasını müəyyən edilməsi;
- Cinayət törətmiş şəxslərin dairəsinin müəyyən edilməsi;
- Kompyuter sisteminə və şəbəkəsinə qanunsuz daxil olma nəticəsində vurulmuş ziyanın həcminin müəyyən edilməsi.

## Kompyuter informasiyasına qanunsuz daxil olmanın üsulları

- Məhv etmə.
- Bloka salma.
- Surətini çıxartma.
- Modelləşdirmə.
- Bilavasitə daxil olma (fiziki, tullantıların tədqiqi, məhv olunmuş proqramların bərpası).
- Məsafədən daxil olma (parol və digər texniki mühafizə proqramlarına daxil olma).

## Kompyuter cinayətlərinin subyektləri

*Adətən bu sahədə xüsusi biliyə malik informasiya sistemini bilən, EHM-da işləyən, səriştəli şəxslər olurlar. Aşağıdakı qruplara bölünürlər:*

- Xakerlər informasiya sistemini yarıb, onun qiymətindən asılı olmayaraq ona nəzarəti əldə etmək istəyənlərə deyilir.
- Şpionlar eyni ilə informasiyanı siyasi təsir məqsədi ilə əldə edənlərə deyilir.
- Terroristlər informasiya sisteminə təhlükə effekti yaratmaqla girib, ondan siyasi təsir kimi istifadə edənlərdir.
- Korporativ hücumçular ekonomik məqsədlər üçün informasiya sisteminə daxil olanlara deyilir.
- Professional cinayətkarlar kompyuter sisteminə şəxsi varlanma məqsədilə daxil olanlara deyilir.
- Vandallar kompyuter sistemini dağıtmaq niyyətilə daxil olanlardır.
- EHM-nin işləmə qaydalarını pozanlar, texnikanı və istifadə qaydalarını yaxşı bilməyənlər tərəfindən törədilir.
- Psixi anomaliyası olanlar yeni növ xəstəliyi olanlar informasiya xəstəliyi olanlara deyilir.

## Kompyuter cinayətlərinin törədilməsi üsulları

1. Məlumatı tutmaq üsulu:

a) bilavasitə tutmaq;

b) elektromaqnit tutması.

2. "Böcəklikdən" (taxtabitindən) istifadə etməklə kompyuterədanışıqlarına qulaq asmaq mikrofon yerləşdirmək və personalın danışıqlarına qulaq asmaq. Bu ən sadə üsuldur.
3. "Zibilin təmizlənməsi" üsulu. Bu üsulun mahiyyəti kompyuterdən istifadə edərək lazım olmayan məlumatların zibil yeşiyinə atılması ilə əlaqədar orada axtarış aparıb lazım olan məlumatları əldə etməkdən ibarətdir. Elektron variantı kompyuterdə qalan məlumatların tədqiqindən ibarətdir.

**Kompyuter informasiyasına qanunsuz daxil olmanın kriminalistik xarakteristikası**

- Qanuna zidd əməllərin törədilmə üsulları və mexanizmi haqqında məlumatlar
- Kompyuter informasiyasına qanunsuz daxil olmanın gizlədilmədi üsulları haqqında məlumatlar
- Qanuna zidd əməllərin törədilməsinin alət və vasitələri haqqında məlumatlar
- Cinayətin izləri haqqında məlumatlar
- Kompyuter informasiyasına qanunsuz olaraq daxil olmanın yeri və şəraiti haqqında məlumatlar
- Cinayət qəsdinin predmeti haqqında məlumatlar
- Kompyuter informasiyasına qanunsuz daxil olma cinayətini törədən şəxslər haqqında məlumatlar

**Kompyuter informasiyasına qanunsuz daxil olmanın törədilməsi izləri**

***Maddi***

**İnformasiya mühafizə vasitələri üzərində saxlanılan:**

- xüsusi elektron kartoçkalarında;
- fərdi kompyuterlərə elektron açarlarla daxil olma;
- istifadəçilərin əl-barmaq izlərinə əsasən eyniləşdirən qurğu;
- istifadəçinin yazı xəttinə görə tanınma qurğusu;
- istifadəçinin səsinə görə tanınma vasitələri.

**Kompyuter texniki vasitələr üzərində saxlanılan:**

- əl-barmaq izləri;
- mikrohissəciklər.

***İntellektual***

**Kompyuterin əvvəllər verilmiş quruluşunda olan dəyişikliklər:**

- ekranın qoşulmasında rəngin və rəsmlərin dəyişməsi;
- xarici qurğularla əlaqədar baş vermiş dəyişikliklərin ardıcıllığı (çap, modem qurğularında və s.);
- şəbəkə qurğusunda əvvəllər silinmiş məlumatların yenidən meydana çıxması.

**Fayllar quruluşunda dəyişikliklərin edilməsini göstərən izlər:**

- kataloq və faylların adlarının öyrənilməsi;
- faylların məzmun və ölçülərinin dəyişməsi;
- yeni kataloqları və faylların meydana çıxması.

**EHM-in işində yaranan qeyri-adilik:**

- əməliyyat sisteminin gec və yaxud düzgün yüklənməməsi;
- klaviaturadan daxil etməkdə maşının gec reaksiyası;
- disk daşıyıcılarında informasiyanın yazılması və oxunması zamanı gecikmələr.

## MÖVZU 43. MÜTƏŞƏKKİL CİNAYƏTKARLIQLA BAĞLI CİNAYƏTLƏRİN ARAŞDIRILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

**Mütəşəkkil cinayətkarlıq dedikdə**, iyerarxiyalı təşkilati quruluşu, konkret cinayətkar fəaliyyət sahəsində sıx birliyin olması, yaxşı işlənib hazırlanmış məxfilik və hüquq-mühafizə orqanlarından müdafiə sisteminin, rüşvətlə ələ almanın mövcudluğu, xarici ölkələrə çıxışın və beynəlxalq mafiya ilə əlaqənin olması da daxil olmaqla cinayətkar fəaliyyətin geniş miqyası ilə fərqlənən fəaliyyət başa düşülür.




**Mütəşəkkil cinayətkar qrup tərəfindən törədilmiş cinayətlər üzrə müəyyən edilməli hallar**

- Qrup tərəfindən törədilmiş cinayətlərin törədilməsində iştirak edən bütün şəxslərin dairəsi: qrupun bütün cinayətkar fəaliyyəti
- Cinayətkar qrupun xarakteri, tərkibi, növü, onun üzvlərinin qarşılıqlı münasibətləri və onların xarici əlamətləri
- Qrup tərəfindən törədilmiş cinayətlərin konkret təşkilatçısı (lideri)
- Qrup tərəfindən törədilmiş cinayətin iştirakçılarının hər birinin rolu və cavabdehlik dərəcəsi
- Cinayətkar qrupun formalaşmasına və qrup tərəfindən cinayətlərin törədilməsinə kömək göstərən səbəb və şərait

**Hadisə yerinə baxış zamanı cinayətin mütəşəkkil cinayətkar qrup tərəfindən törədilməsini göstərən hallar**

- Əl-barmaq və ayaq (ayaqqabı) izlərinin müxtəlif şəxslər tərəfindən saxlanması
- İstifadə olunan qabların, qaşıqların, çəngəllərin, yemək qalıqlarının və içkilərin sayı
- Müxtəlif markalı papiros və siqaret kötükləri və onlar üzərində müxtəlif diş izləri
- Müxtəlif sistem silahlara təyin olunmuş patronların giliz və gülləri; giliz və güllələrin müxtəlif lülələrdən atılması (ekspert rəyinə əsasən)
- Bir şəxs tərəfindən daşınması mümkün olmayan ağır əşyaların yerlərinin dəyişdirilməsi
- Əmlakın böyük həcmdə ələ keçirilməsi
- Qan, sperma, tüpürcək, ifrazat izlərinin müxtəlif şəxslərə məxsus olması

**Hadisə yerinə baxış zamanı cinayətin mütəşəkkil cinayətkar qrup tərəfindən törədilməsini göstərən hallar**

- Mütəşəkkil cinayətkar qrupunun liderləri maksimum gəlirlər əldə etmək məqsədi ilə region miqyasında, təsərrüfat və cinayət fəaliyyəti və s. sahələrin tam nəzərdə götürülməsinə
- Hər bir mütəşəkkil cinayətkar qrupunda iyerarxik strukturun və rolların dəqiq bölgüsünün olması
- Hakimiyyət strukturlarının, o cümlədən hüquq-mühafizə orqanlarının bəzi əməkdaşlarını korrupsiyaya cəlb etməklə təhlükəsizliyin təmin edilməsi üzrə sistemin mövcudluğu
- Müəyyən kriminal biznes sahəsində və müəyyən ərazidə nəzarəti təmin etməyə yönəlmiş cinayətkar fəaliyyətinin uzun müddətli, planlı və gizli xarakteri
- Cinayətkar fəaliyyətinin genişləndirilməsi üçün yeni regionlararası, beynəlxalq əlaqələrin müəyyən edilməsinə səylərin göstərilməsi
- Cinayətkar yolla əldə edilmiş pulların "yuyulması" və onlardan iqtisadiyyatın müxtəlif leqal sahələrində istifadə edilməsi

**Hadisə yerinə baxış zamanı cinayətin mütəşəkkil cinayətkar qrup tərəfindən törədilməsini göstərən hallar**

- Əl-barmaq və ayaq (ayaqqabı) izlərinin müxtəlif şəxslər tərəfindən saxlanması
- İstifadə olunan qabların, qaşıqların, çəngəllərin, yemək qalıqlarının və içkilərin sayı
- Müxtəlif markalı papiros və siqaret kötükləri və onlar üzərində müxtəlif diş izləri
- Müxtəlif sistem silahlara təyin olunmuş patronların giliz və gülləri: giliz və güllələrin müxtəlif lülələrdən atılması (ekspert rəyinə əsasən)
- Bir şəxs tərəfindən daşınması mümkün olmayan ağır əşyaların yerlərinin dəyişdirilməsi
- Əmlakın böyük həcmdə ələ keçirilməsi
- Qan, sperma, tüpürcək, ifrazat izlərinin müxtəlif şəxslərə məxsus olması

**Mütəşəkkil cinayətkar qrupunu və ya cinayətkar birliyini xarakterizə edən əsas əlamətləri**

- Mütəşəkkil cinayətkar qrupunun liderləri maksimum gəlirlər əldə etmək məqsədi ilə region miqyasında, təsərrüfat və cinayət fəaliyyəti və s. sahələrin tam nəzarətə götürülməsinə cəhdlərin olması
- Hər bir mütəşəkkil cinayətkar qrupunda iyerarxik strukturun və rolların dəqiq bölgüsünün olması
- Hakimiyyət strukturlarının, o cümlədən hüquq-mühafizə orqanlarının bəzi əməkdaşlarını korrupsiyaya cəlb etməklə təhlükəsizliyin təmin edilməsi üzrə sistemin mövcudluğu
- Müəyyən kriminal biznes sahəsində və müəyyən ərazidə nəzarəti təmin etməyə yönəlmiş cinayətkar fəaliyyətinin uzun müddətli, planlı və gizli xarakteri
- Cinayətkar fəaliyyətinin genişləndirilməsi üçün yeni regionlararası, beynəlxalq əlaqələrin müəyyən edilməsinə səylərin göstərilməsi
- Cinayətkar yolla əldə edilmiş pulların “yuyulması” və onlardan iqtisadiyyatın müxtəlif leqal sahələrində istifadə edilməsi

**Konkret cinayətin mütəşəkkil cinayətkar qrupu və ya cinayətkar birlik tərəfindən törədilməsini göstərən bir sıra əlamətlər**

- Qəsd obyektinin xarakteri (böyük məbləğ, yüksək dərəcədə müdafiə olunması, güclü mühafizə)
- Cinayətin hərtərəfli hazırlanması və azğınlığı: cinayətkarların yüksək texniki təchizatı və silahlanması
- Cinayətin vahid rəhbərliyi və rolların bölgüsü olan bir qrup şəxslər tərəfindən törədilməsinin mümkünlüyü
- Müəyyən maliyyə qruplarının cinayətin nəticəsində maraqlarının olması barədə məlumatların olması
- İstintaqın gedişatına təsir göstərmək üçün cinayətkarların korrupsiyalaşmış əlaqələrdən istifadə edilməsinə cəhdlərin olması
- Şahidlər və ya zərərçəkmişin aradan götürülməsinə və ya pulla ələ almasına cəhdlərin olması
- Cinayətkarların regionlararası və beynəlxalq əlaqələri barədə məlumatların olması

**Mütəşəkkil cinayətkar qruplar tərəfindən törədilmiş istintaqın səmərəliliyini təmin edən ümumi metodik tədbir (V.İ.Kuklikov, A.Y.Drapkin)**

- Mütəşəkkil cinayətkar qrupu ilk növbədə əsas fəaliyyət istiqamətini müəyyən etmək; qrupun üzvləri tərəfindən törədilmiş digər cinayətləri aşkar etmək
- İstintaqı aktivləşdirmək, cinayətkarlar tərəfindən olan qarşıdurmanın qabağını almaq
- Mütəşəkkil cinayətkar qruplar tərəfindən törədilmiş ayrı-ayrı növ cinayətlər üçün xarakterik olan tipik istintaq şəraitindən yaradıcılıqla istifadə etmək
- Mütəşəkkil cinayətkar qrup tərəfindən törədilmiş cinayətlərin istintaqının planlaşdırılmasında həmin qrupun struktur, ərazi və fəaliyyətinin digər xüsusiyyətlərini nəzərə almaq
- Müstəntiqlə əməliyyat-axtarış aparatının qarşılıqlı fəaliyyətini dəqiq müəyyənləşdirmək; DİO-nun və digər xidmətlərin əməliyyat imkanlarından geniş istifadə etmək
- İstintaqın gedişatında mütəşəkkil cinayətkar qrupun "özəyinə" (liderinə), həmçinin "özəyə" çıxmaq üçün aşağı təbəqəsinə qəfil həmlələr etmək məqsədi ilə çevik taktika tətbiq etmək
- İstintaqın daha mükəmməl aralıq vəzifələrini həll etmək məqsədi ilə taktiki əməliyyatları geniş tətbiq etmək
- Ayır-ayrı mütəşəkkil cinayətkar qruplar arasında və qrupdaxili rəqabətlərdən istifadə etmək
- Cinayətin istintaqında kriminalistik və xüsusi texniki vasitələrdən imkan dairəsində geniş istifadə etmək
- Zərərçəkənlərin, şahidlərin, hüquq-mühafizə orqanları əməkdaşlarının, onların ailələrinin və əmlaklarının təhlükəsizliyini qorumaq üçün bütün tədbirləri həyata keçirmək

**Mütəşəkkil cinayətkarlıq haqqında informasiyanı 3 bloka ayırmaq olar:**

- ***Birinci,*** informativ blok MCF-də cinayətkar qəsdin obyektini və məqsədli istiqamətini xarakterizə edir, cinayətin törədilməsi üsulu, mexanizmi və şəraiti haqqında informasiyanı ehtiva edir.
- ***İkinci,*** informativ blok MCF-in spesifik və başlıca elementlərindən biri kimi mütəşəkkil qrup və ya cinayətkar birlik haqqında informasiyanı ehtiva edir. Bu bloka, həmçinin cinayətkar qrupun təşkilati strukturu, onun üzvləri arasında funksional vəzifələrin bölgüsü, idarəetmə növü və s. haqqında informasiyalar daxildir.
- ***Üçüncü,*** informativ blok isə MCQ-in üzvlərinin şəxsi tipoloji xüsusiyyətlərini, onları ibtidai araşdırma və məhkəmə prosesində davranışını, bu təşkilatın daxili psixoloji atmosferi haqqında informasiyanı ehtiva edir.

**Mütəşəkkil cinayətkar qruplar tərəfindən törədilmiş cinayətlərin araşdırılmasının təşkilinin taktiki və metodiki xüsusiyyətləri:**

- Mütəşəkkil cinayətkar fəaliyyətin araşdırılmasına ixtisaslaşmış müstəntiqlərin cəlb edilməsi.
- Mütəşəkkil cinayətkar qruplar tərəfindən törədilmiş cinayətlərin açılması və araşdırılması üçün istintaq-əməliyyat qruplarının yaradılması, həmçinin istintaq və əməliyyat orqanlarının effektiv qarşılıqlı əlaqələri imkanlarından geniş istifadə etmək.
- İstintaqa mümkün qarşıdurmaların qarşısının alınması.
- Cinayət haqqında alınmış məlumatların dərhal bərkidilməsi, saxlanması və obyektivləşdirilməsi, tədbirlərin görülməsi.
- Şahidlərin, zərərçəkmiş şəxsin və istintaqa kömək göstərən digər şəxslərin mühafizəsinin təmin edilməsi.
- Cinayətin açılması və istintaqını həyata keçirən şəxslərin və onların digərlərinin mühafizəsinin təmin edilməsi.
- İstintaq sirlərinin yayılmasının təmin edilməsi.

**<u>Mütəşəkkil cinayətkarlığın ibtidai istintaqı zamanı istintaqın təşkili və araşdırılması prinsipləri:</u>**

- İstintaqın ən ixtisaslaşmış qüvvələrinin istintaqın başlıca istiqamətlərində və müvəqqəti ikinci dərəcəli istiqamətlərində mərkəzləşdirilməsi, istintaqın gedişinin və onun strateji vəzifələrinin yerinin müəyyən edilməsi.
- Əsas və ya ikinci dərəcəli, lakin cinayətkar təşkilatın strukturunda zəif olan həlqələrin axtarışının daim diqqət mərkəzində saxlanması, təşkilatın üzvləri ilə onları tamamilə dağıda bilən işin aparılması.
- Əməliyyat-axtarış və istintaq səviyyələrində kriminalistik informasiyalar axınının hərəkətlərinin daim əlaqələndirilməsi.
- İstintaq informasiyalarının və əməliyyat-axtarış informasiyaların mümkün sızam kanallarına nəzarət edilməsi və s.

# V HİSSƏ

# KRİMİNALİSTİK TERMİNLƏR

## A

**Adqeziya** – (lat. “adhaesio” yapışma), müxtəlif predmetlərin səthinin yapışması, ilişməsidir. Kriminalistikada daktiloskopik plyonkaların hazırlanmasında və seçilməsində nəzərə alınır.

**Alibi** – (lat. “alibi” haradasa başqa yerdə) – cinayət prosesində təqsirləndirilən (şübhə edilən) şəxsin cinayət baş verən zaman cinayət yerində olmamasını göstərən sübut.

**Analogiya –** (yunan. “analogiya” eynilik), predmetlərin (təzahür və proseslərin) eyniliyi, uyğunluğu.

**Antropometriya –** (yunan. “antropos” insan və “metro” ölçmə), cinayətkarların kriminalistik (cinayət) qeydiyyatı sistemidir.

**Asfiksiya** – (yunan. “asphyxia” nəbzin olmaması) karbon qazının artması ilə şərtlənən boğulmadır.

**Avtotexniki ekspertiza** – mühəndis-nəqliyyat ekspertizasının müstəqil qrupu (cinsi) olub yol-nəqliyyat hadisələrinin mexanizm və hallarının müəyyənləşdirilməsinə, nəqliyyat vasitələrinin texniki vəziyyətinin və hərəkət parametrlərinin və s. müəyyən edilməsi ilə əlaqədar məsələlər tədqiq edir.

**Axtarış cihazları** – araşdırılan hadisəyə aidiyyatı olan izlərin və digər obyektlərin aşkar edilməsi üçün nəzərdə tutulmuş cihaz və avadanlıqlardır.

**Araşdırma (ibtidai)** – cinayət işi üzrə ibtidai istintaq və təhqiqat növündə məhkəməyədək aparılan icraatdır.

**Axtarış** – hazırlanan və törədilmiş cinayətlərlə bağlı təqsirkar şəxslərin, predmetlərin, əşyaların və iş üçün əhəmiyyət kəsb edən digər obyektlərin tapılması (müəyyən edilməsi) üzrə təhqiqat və istintaq orqanlarının fəaliyyətidir.

**Adsorbsiya** – (lat. “ad” üzərində və sorbeo” udmaq) bərk cisim (adsorbent) və ya mayelərin üz səthi tərəfindən qazların, buxarların və mayelərin udulmasıdır.

**Arbalet** – (lat. “arkus” yay və “ballistika” mərmiatıcı) orta əsrlərdə Avropa ölkələrində atıcı əl silahı: polad və ya ağacdan olan ox üçün yuvadan, yaydan, qundaqdan ibarətdir.

**Affekt** – (lat. “affectus” ruhi həyəcan) subyekt üçün vacib həyati situasiyalarda güclü qıcıqlandırıcılara cavab olaraq yaranan qısamüddətli emosiyadır.

## B

**Ballistika (məhkəmə)** – (alman. “ballistika”, yunan “ballo” atıram) kriminalistika texnikasının bir sahəsi olub, odlu silahlar, döyüş sursatları, onların hərəkət izləri və bu obyektlərin yığılmasının, tədqiqinin vasitə və metodlarını öyrənir.

**Ballistik ekspertiza** – kriminalistik ekspertizanın bir növü olub, odlu silahın tətbiqi ilə əlaqədar faktların müəyyən edilməsi üçün keçirilir.

**Binokulyar lupa (zərrəbin)** – xırda obyektlərə hər iki gözlə baxılması üçün istifadə edilən optik qurğudur.

**Binokulyar mikroskop** – iki okulyarı olan mikroskop.

**Banditizm** – təşkilatlara və ya ayrı-ayrı şəxslərə, basqın etmə məqsədilə sabit silahlı qruplar (bandalar) təşkil etmə, belə qruplara (bandalara) rəhbərlik etmə kimi başa düşülür.

**“Boksçu pozası”** – yanmış meyitin bədən və ətraflarının özünəməxsus vəziyyəti (bu zaman əl-qol və ayaqlar bükülüb yığılaraq “boksçu” pozasını xatırladır.

**Baxış** – cinayət izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi cinayətin törədilmə halların müəyyən edilməsi məqsədilə aparılan istintaq hərəkətidir.

## C

**Cinayətin səhnələşdirilməsi** – cinayətin gizlədilməsi məqsədilə qəsdən faktiki hallara uyğun olmayan şəraitin yaradılması deməkdir.

**Cinayətin kriminalistik xarakteristikası** – hər hansı konkret cinayətin nisbətən tipik və əhəmiyyətli əlamətlərini əks etdirən elmi abstraksiyadır.

**Cinayətin törədildiyi yer** – cinayətin bilavasitə törədildiyi ərazi sahəsi və ya tikili nəzərdə tutulur.

**Cinayətin mexanizmi** – cinayətin məzmununu təşkil edən mürəkkəb dinamik sistemdir.

**Cinayət aləti –** cinayətkar nəticəyə nail olmaq üçün istifadə edilən predmetlər, maddələr, alətlər başa düşülür.

**Cinayətin açılması** – cinayət hadisəsinin cinayətkar nəticə, səbəb və şəraitin müəyyən edilməsi və onu törətmiş şəxsin ifşa olunmasına istiqamətlənmiş fəaliyyətdir.

**Cinayətin gizlədilməsi** – şəxsin cinayətin araşdırılmasına mane olmağa yönəlmiş fəaliyyətidir.

**Cinayətin üsulu** – cinayət mexanizminin elementi olub özündə cinayətə hazırlıq, onun törədilməsi və gizlədilməsini birləşdirir.

**Cinayətin izləri** – cinayət hadisəsi zamanı şəraitin hər hansı maddi dəyişilməsi nəticəsində yaranan izlərdir.

## Ç

**Çap (kalibr)** – odlu silahın lülə kanalının və ya güllənin diametridir.

**Çok** – ballistikada hamar lüləli ov silahlarının lüləsinin tədricən daralmasıdır ki, atəş zamanı qırmaların topa (sıx) şəkildə hərəkətini təmin edir.

## D

**Daktiloskopiya** – (yunan. "daktilos" barmaq və "skopeo" baxıram) trasologiyanın bir hissəsi olub insanların eyniləşdirilməsi və kriminalistik qeydiyyat məqsədilə əlin ovuc hissəsinin dəri naxışlarının xüsusiyyət və xassələrini öyrənir.

**Daktiloskopik ekspertiza** – trasoloji ekspertizanın müstəqil növü olub insanın əl-barmaq izlərini tədqiq edir.

**Daktiloskopik düstur** – əl-barmağın papilyar naxışlarının xüsusiyyətlərinin rəqəmlərlə (kodlaşdırılmış) ifadə formasıdır. Şəxslərin kriminalistik qeydiyyatı üçün tərtib olunur.

**Daktiloskopik tozlar** – əl-barmağın qoyduğu tər-piy izlərinin aşkar edilməsi üçün istifadə olunan xüsusi kriminalistik tozlardır.

**Daktiloskopik kriminalistik qeydiyyat** – tutulmuş, həbs olunmuş və məhkum olunmuş şəxslərin əl-barmaq əkslərinin uçot sənədlərində qeyd olunması üsuludur.

**Dinamik iz** – izin əmələ gəlməsində iştirak edən obyektlərin hər ikisinin, yaxud birinin hərəkətdə olması prosesində əmələ gələn izdir.

**Diferensiasiya** – (lat. "differentia" müxtəliflik, fərqləndirmə), eyni və ya müxtəlif qruplara (cinslərə) aid olan obyektlərin əlamət və xassələrinin müəyyən olunması və qiymətləndirilməsidir.

**Dayanıqlı (sabit) əlamət** – uzun müddət ərzində obyektin dəyişilməz əlamətidir.

**Diaqnostika (kriminalistik)** – elmi dərketmə metodu olub cinayətlə bağlı obyektlərin, hadisələrin və proseslərin mahiyyətini açır, dərk edir.

**Dindirmə** – müstəqil istintaq hərəkəti olub, dindirilən şəxsdən cinayət işi üzrə həqiqətin üzə çıxarılması üçün əhəmiyyəti olan hallara dair məlumatların cinayət-prosessual qanunla müəyyən edilən qaydada alınması deməkdir.

**Dələduzluq** – etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və əmlak hüquqlarını əldə etmə kimi başa düşülür.

## E

**Ekspert** – (lat. "expertus" təcrübəli) hüquqda xüsusi biliklərə malik olan şəxs. Məhkəmə eksperti-məhkəmə ekspertizasının predmetinə aid olan xüsusi məsələlərə dair zəruri biliyə malik olan və işin nəticəsində marağı olmayan şəxsdir.

**Ekspertin rəyi** – məhkəmə ekspertizasını təyin etmiş orqanın və ya şəxsin ekspertin qarşısında qoyduğu suallara verilən əsaslandırılmış yekun nəticədir.

**Edcoskopiya** – daktiloskopiyanın bir hissəsi olub, papilyar xətlərin kənarlarının xüsusiyyətlərini eyniləşdirmə məqsədilə öyrənir.

**Ekoloji ekspertiza** – müstəqil məhkəmə ekspertizası sinfi olub, təbiəti mühafizə qanunvericiliyinin pozulması işlər üzrə aparılır.

**Eksqumasiya** – (lat. "ex" çıxarılmış və "humus" torpaq) cinayət işlərinin araşdırılması zamanı baxış və ya məhkəmə-tibbi tədqiqatının aparılması məqsədilə meyitin torpaqdan (qəbirdən) çıxarılmasıdır.

**Eksperiment (istintaq)** – cinayət təqibi üçün əhəmiyyətli olan, təcrübə və digər tədqiqat hərəkətlərinin aparılması şərti ilə araşdırıla biləcək məlumatların yoxlanılması və dəqiqləşdirilməsi məqsədi ilə aparılan istintaq hərəkətidir.

**Eyniləşdirmə** – ibtidai araşdırılması aparılan cinayət hadisəsi ilə bağlı obyektlərin kəmiyyət məsələsini və hadisə ilə bağlı əlaqəsini müəyyən etmək məqsədi ilə aparılan müqayisəli tədqiqatdır.

**Eyniləşdirmə sahəsi** – obyektlərin eyniləşdirilməsi üçün kifayət edəcək fərdi-müəyyən dəyişilməz əlamətlərin məcmusudur.

**Eyniləşdirmə əlamətləri** – obyektlərin eyniləşdirilməsi üçün qismən dəyişilməz və nisbi sabit əlamət və xassələr məcmusudur.

**Eyniləşdirilən obyekt** – cinayət hadisəsi törədilən zaman izi qoymuş obyektdir.

**Eyniləşdirən obyekt** – cinayət hadisəsi ilə əlaqədar izləri özündə əks etdirən obyektdir və eyniləşdirilən obyektin müəyyən edilməsi üçün vasitəçi rolunu oynayır.

**Ekspert tədqiqatının obyektləri** – maddi sübutlar, müqayisəli tədqiqat üçün nümunələr, əşyalar, insan və onun psixi vəziyyəti, heyvanlar, meyitlər və onların hissələri, həmçinin əsasında məhkəmə ekspertizası aparılması üçün zəruri olan iş materiallarıdır.

**Eksperimental nümunə** – eyniləşdirmə məqsədilə ekspertiza təyin edən zaman şübhə edilən şəxsdən, təsirləndirilən şəxsdən , şahidlərdən və zərər çəkmişdən alınan nümunələrdir.

**Eyforiya** – (yunan. "euphoria") şəxsin obyektiv hallara uyğun olmayan, əhval-ruhiyyəsinin qeyri-adekvat yüksək olması, şən və qayğısızlığının artan xətt üzrə yüksəlməsi başa düşülür.

**Ekstradisiya** – beynəlxalq hüquqda cinayət məsuliyyətinə cəlb olunması məqsədilə cinayətkarların digər dövlətə verilməsidir.

## Ə

**Əlavə ekspertiza** – ilkin ekspertizanın rəyi kifayət qədər aydın olmadıqda, ekspert qoyulmuş sualları tam həll etmədikdə və ya əvvəlki tədqiqatla bağlı əlavə sualların həll edilməsi zərurəti olduqda təyin edilən ekspertizadır.

**Əlamət** – obyektin xassələrinin ifadəsidir.

**Əməliyyat kombinasiyası** – cinayətlərin araşdırılması ilə əlaqədar vahid məqsədlə həyata keçirilən aşkar və qeyri-aşkar əməliyyat-axtarış tədbirlərinin məcmusudur.

**Əl izləri** – trasologiyada əlin ovuc hissəsinin dəri relyefinin morfoloji xüsusiyyətlərinin əksidir.

## F

**Fleksor xətləri** – daktiloskopiyada əlin ovuc hissəsinin və barmaq oynaq bükülməsi sahəsindəki iri qırışlardır.

**Fonoskopik ekspertiza** – kriminalistik ekspertizanın bir növü olub, maqnitofon səs yazılarını tədqiq edir.

**Fotorobot** – fotokompozision portretlərin hazırlanması üçün istifadə olunan qurğudur.

**Funksional əlamətlər** – insanın həyat fəaliyyəti prosesində yaranaraq, onun hərəkət və fizioloji funksiyalarını (cestikulyasiya, mimika və s.) xarakterizə edir.

## G

**Götürmə** – müstəqil istintaq hərəkəti olub cinayət işi ilə əlaqədar toplanmış sübutlarla və ya əməliyyat-axtarış fəaliyyətinin materialları ilə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və sənədlərin cinayət-prosessual qanunun tələblərinə əsasən götürülməsidir.

## H

**Hadisə yeri** – cinayətin izi aşkar edilmiş hər hansı ərazi və ya tikili başa düşülür.

**Hədə-qorxu ilə tələb etmə** - zərər şəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə kimi başa düşülür.

## X

**Xüsusi əlamətlər** – obyektin öz məzmunu etibarı ilə ona oxşar obyektlərdən fərqləndirən konkret fərdi əlamətlərə deyilir.

**Xətşünaslıq ekspertizası** – kriminalistik ekspertizası sinfinin müstəqil qrupu (cinsi) olub, predmeti-əlyazma mətnlər, imzalar və rəqəmli yazılar ilə əlaqədar faktlardır.

**Xromotoqrafiya** – ekspertizada mürəkkəb maddələrin ayrılması və analizi üçün aparılan fiziki-kimyəvi metoddur.

**Xəttin ölçüsü** – xətşünaslıqda ayrı-ayrı hərflərin eni və hündürlüyü nəzərdə tutur.

**Xuliqanlıq** – ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizliklə əlaqədar qarşılıqlı təsir nəticəsində yaranan, obyektin xarici quruluşunun morfoloji xüsusiyyətlərinin əksidir.

## İ

**İntuisiya (istintaq)** – (lat. "infueri" diqqətlə baxcaq) məntiqi mülahizəyə və idraka varmadan, yaranmış istintaq şəraitində müstəntiqin qərar qəbul etməsinə kömək edən hissiyyat, bacarıqdır.

**İz əmələgəlmə mexanizmi** – trasologiyada iz əkslərin əmələ gəlməsi ilə nəticələnən prosesdir.

**İtkin düşmüş şəxs** – həyat və sağlamlığının təhlükəsi olması ehtimal olunan, özünün adət etdiyi həyat sferasını tərk etmiş, olduğu yer məlum olmayan şəxsə deyilir.

**İstintaq şəraiti** – cinayətin araşdırılmasının konkret anında yaranmış vəziyyətlər məcmusudur.

**İstintaq hərəkəti** – iş üzrə cinayət-prosessual qanunla nəzərdə tutulmuş qaydada cinayətlərin araşdırılmasını həyata keçirən şəxsin məhkəmə sübutlarının aşkar edilməsi, qeyd olunması, götürülməsi, tədqiqi və qiymətləndirilməsi üzrə hərəkətlərdir.

**İstintaq çemodanı** – istintaq hərəkətlərinin aparılması zamanı sübutların aşkar edilməsi, götürülməsi və ilkin tədqiqi üçün texniki-kriminalistik vasitələr komplektidir.

**İcmal fotoşəkilçəkmə** – hadisə yerinin ətrafdakı sahədən təcrid olunmuş halda çəkilmiş şəklinə deyilir.

## J

**Jestikulyasiya** – insanın digər şəxslərlə ünsiyyəti prosesində xarakterik əl-qol, çiyin, baş hərəkətləridir (çox vaxt qeyri-adi baş verir). Kriminalistikada digər əlamətlərlə birlikdə insanın eyniləşdirilməsində istifadə edilir.

## K

**Kriminalistik fərziyyə** – müstəntiq və digər subyektlərin törədilmiş cinayət hadisəsi və onun ayrı-ayrı halları haqqında faktiki cəhətdən əsaslandırılmış məntiqin qanunlarına uyğun olaraq qurduqları ehtimal xarakterli əqli nəticədir.

**Kalleqrafiya** – (yunan. "kalligraphia" gözəl xətt) dəqiq və gözəl yazı sənəti deməkdir.

**Kriminalistik kateqoriyalar** – kriminalistika elminin əsas anlayışıdır.

**Keyfiyyət əlaməti** – obyektdə hər hansı fərdi xassələrin olub-olmamasını əks etdirən əlamətdir.

**Kəmiyyət əlaməti** – tədqiq olunan obyektdəki xassələrin rəqəmli ifadəsidir.

**Kinoloq** – xidməti axtarış itlərinin təlimi və istifadəsi üzrə mütəxəssisdir

**Kriminalistik kolleksiyalar** – eyniləşdirmə və diaqnostik tədqiqatlar üçün müxtəlif obyekt nümunələrin toplusudur.

**Kriminalistik texnika** – kriminalistikanın bir bölməsi olub, törədilmiş cinayət hadisəsi ilə bağlı məlumatların aşkar olunması, götürülməsi, qeyd edilməsi, toplanmış məlumatların tədqiq edilməsi, həmçinin cinayətlərin qarşısının alınması məqsədilə elmi-texniki vasitələrin işlənib hazırlanması haqqında nəzəri müddəalardan və təkliflərdən ibarətdir.

**Kriminalistik taktika** – kriminalistikanın bir bölməsi olub, kriminalistik fəaliyyətin taktiki yanaşma tələb edən bütün növlərinə aid olan ümumnəzəri müddəaları və təcrübi tövsiyələri əks etdirir.

**Komission ekspertiza** – eyni ixtisas üzrə sayı iki nəfərdən az olmayan ekspertlər tərəfindən aparılan ekspertizadır.

**Kripitoqrafiya** – (yunan "kryptos" gizli və "grapho" yazıram) kənar şəxslərin mətni başa düşməməsi məqsədilə dəyişdirilmiş yazı sistemidir.

**Kompleks ekspertiza** – iş üçün əhəmiyyətli olan halların aydınlaşdırılması üzrə müxtəlif bilik sahələrindən istifadə etməklə aparılan ekspertizadır.

**Kompozision portret** – təsvir olunan şəxsin sifətinin tipinə uyğun tərtib olunmuş portret deməkdir.

**Kriminalistik metodika** – kriminalistikanın müstəqil bir bölməsi olub istintaq təcrübəsini ümumiləşdirərək cinayətlərin üstünün açılması qanunauyğunluqlarını təhlil edib, ibtidai araşdırmanın daha səmərəli aparılması üçün qanunçuluğa ciddi riayət etməklə elmi cəhətdən əsaslandırılmış səmərəli metodiki tövsiyələr sistemidir.

**Kriminalistik vasitə və metodlar** – məhkəmə tədqiqatlarının və cinayətlərin araşdırılmasında istifadə üçün kriminalistika tərəfindən işlənib hazırlanmış xüsusi materiallar, cihazlar, alətlər, üsullar, tövsiyələrdir.

**Kriminalistik ekspertiza** – məhkəmə ekspertizasının bir sinfi olub, elmi əsasları qismində bəzi fərdi kriminalistik nəzəriyyələrin müddəaları çıxış edir.

**Kleptomaniya** – (yunan. “klepto” oğurlayıram və “mania” ehtiras, həvəs) oğurluğun törədilməsinə yaranan, qarşısıalınmaz istək (tamah məqsədi olmadan).

## Q

**Qabitoskopiya** – (lat. “habitus” insanın zahiri görkəmi, bədən quruluşu və yunan. “skopeo” baxıram sözlərindən götürülmüşdür) kriminalistika texnikasının bir sahəsi olub, insanın zahiri əlamətləri haqqında təlimdən bəhs edir.

**Qoloqrafiya** – (yunan. “hodos” tam, bütün və “qrapo” yazıram sözlərindən götürülmüşdür) interferensiya dalğalarına əsaslanaraq obyektin şəklinin çəkilməsi metodudur.

**Qrafologiya** – (yunan. “qrapho” yazıram və “loqos” söz, təlim sözlərindən götürülmüşdür) mənası yazı haqqında təlim deməkdir, yazı xətti əsasında insanın cinsi, yaşı, vəziyyəti və xarakteri haqqında təlimdir.

**Qrup mənsubiyyəti** – ekspert tədqiqatlarında obyektin müxtəlif və ya konkret qrupa aid olması başa düşülür.

**Qövsi naxışlar** - əl barmaqlarının üçüncü bölməsinin üç hissəsinin mərkəzini əhatə edən papilyar xətlər qövsi şəkildə olduqda, belə papilyar naxışlara qövsi naxışlar deyilir.

**Qıvrım naxışlar** - əl barmaqlarının üçüncü bölməsinin üç hissəsinin mərkəzini əhaər edən papilyar xətlər qıvrım, dairə, oval şəkilli olduqda belə naxışlara qıvrım naxışlar deyilir.

**Quldurluq** – özgənin əmlakını ələ keçirmə məqsədi ilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı olan basqın başa deməkdir.

## L

**Lülə kanalı** – ballistikada kanalın səthi olub, ön kəsiyindən, patronluqdan ibarətdir. Lülə kanalı daxili quruluşuna görə yivli və yivsiz olur.

**Lüminessenisiya tədqiqat metodu** – bəzi maddələrin onlara infraqırmızı və ultrabənövşəyi şüalar vasitəsilə təsir edən zaman işıq şüaları buraxmasına əsaslanan metoddur.

**Latent cinayətkarlıq** – (lat. “latens” gizli) – müəyyən statistik dövr ərzində müəyyən ərazidə baş vermiş, lakin hüquq-mühafizə orqanlarının xəbərdar olmadığı və buna görə də rəsmi statistikada əks olunmayan cinayət əməllərinin məcmusu adlanır.

## M

**Maddi sübut** – maddi obyekt olub, hansı ki, xassəsi və ya vəziyyəti sübut predmetinə aid olan hallar barədə özündə sübutedici məlumatlar daşıyır.

**Maddi şərait** – hadisə yerində və ya istintaq hərəkətlərinin keçirilməsində obyektlərin məcmusudur. Maddi şərait cinayətin mexanizmi, üsulu və onu törədən şəxslər barədə özündə kriminalistik əhəmiyyətə malik məlumatlar daşıyır.

**Maddi sübutların qeyd edilməsinin qrafik forması** – qrafik işarələr vasitəsi ilə sübutedici məlumatların təsvir etmə formasıdır (rəsmlər, çertyojlar, planlar, sxemlər).

**Mühəndis-texniki ekspertizası** – mühəndis biliklərə əsaslanan ekspertiza sinfidir (tikinti-texniki, yanğın-texniki, partlayış-texniki).

**Mühəndis-texnoloji ekspertizası** – istehsalatı və texnoloji prosesi tədqiq edən ekspertiza sinfidir.

**Mühəndis-nəqliyyat ekspertizası** – nəqliyyat vasitələri və yol şəraitləri barədə texniki elmlərin məlumatlarından istifadə edən ekspertiza sinfidir.

**Maqnit fırçası** - əl-barmaq izlərinə ferromaqnit tərkibli tozların səpilməsi və kənarlaşdırılması üçün istifadə edilən qurğudur.

**Mübahisəli şərait** – ziddiyyətli olan və ya bu məqsədlərə nail olmaq üsullarına malik subyektlərin ünsiyyət şəraiti adlanır.

**Miqyas fotoşəkilçəkmə** – şəkil çəkilən obyektlər miqyasla çəkilir. Bunun üçün metrik və mm-lik xətkeşlərdən istifadə olunur. Şəkildə obyektin və xətkeşin ölçüləri arasındakı münasibət olduğu kimi alınır və əlavə hesablamaya ehtiyac qalmır.

**Mikroobyektlər** – trasologiyada zəif görünən və adi gözlə görünməyən, bütün ölçülərdə 2 mm-dən yuxarı olmayan obyektlər başa düşülür.

**Mexonoskopiya** – trasologiyanın bir bölməsi olub qurğuların, alətlərin və mexanizmlərin izlərini öyrədir.

**Modelləşdirmə** – kriminalistikanın ümum elmi metodlarından biri olub, hər hansı proseslərin, hadisələrin və ya obyektlər sisteminin detal öyrənilməsi üçün onların modellərini qurur və öyrənir.

**Morfoloji əlamətlər** – obyektin daxili və xarici quruluşunu əks etdirən əlamətlərdir.

**Müşahidə** – tədqiqatın ümumelmi metodlarından biri olub, obyektlərin, hadisələrin, proseslərin məqsədyönlü, planlı şəkildə qavranılması deməkdir.

**Müqayisəli tədqiqat üçün nümunələr** – ekspert tədqiqatlarında eyniləşdirilən və ya diaqnozlaşdırılan obyektlərlə müqayisə edilməsi üçün təqdim edilən obyektlərdir. Maddi sübutlardan fərqli olaraq onların tədqiq olunan hadisə ilə bilavasitə əlaqəsi olmur.

**Mütəxəssis** – cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında elm, texnika, incəsənət və digər peşə sahəsindəki xüsusi bilik və bacarığından istifadə edərək kömək göstərmək üçün cinayət prosesini həyata keçirən orqan tərəfindən təyi edilmiş şəxsdir.

**Məhkəmə ekspertizası** – təhqiqat, ibtidai istintaq orqanının və ya məhkəmənin (hakimin) icraatında olan işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslər haqqında xüsusi elmi biliklər əsasında aparılan tədqiqatdır.

**Mərkəz foroşəkilçəkmə** – hadisə yerinin daha mühüm sahələrinin çəkilmiş fotoşəklinə deyilir.

**Mulyac** – (fransız. "mouler" formaya salmaq, törəmək) orginalın formasını, onun səthinin quruluşunu verən surət (gipsdən, voskdan, parafindən və digər materiallardan) adlanır.

**Mütəşəkkil cinayətkarlıq** – dövlət hakimiyyətinin qanuni fəaliyyətinə qarşı duran və cəmiyyətə zidd xüsusi davranış normaları olan, ierarxiya sistemi və maliyyə fondlarına, həmçinin zorakı-qərəzli istiqamətli cinayətlər törədən sabit mütəşəkkil qruplara malik, o cümlədən hüquq-mühafizə orqanlarında və s. ilə ələ alınan dövlət işçiləri ilə korrupsiya əlaqələrindən istifadə edən son dərəcə təhlükəli cinayətkarlıq növüdür.

**Müqayisə etmə** – tədqiqatın ümumelmi metodlarından biri olub, kriminalistik elmi tədqiqatlarda, istintaq məhkəmə və ekspert təcrübəsində geniş istifadə olunur. Mahiyyəti isə hadisələrin, faktların, proseslərin iki və ya daha çox obyektlərin əlamətlərinin eyni vaxtda qarşılıqlı tədqiqatından ibarətdir. Müqayisə etmənin texniki üsullarına tutuşdurma, birləşdirmə, üst-üstə qoyma aiddir.

## N

**Narkoman** – narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və fiziki asılılıq vəziyyətinə düşən, barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada narkoloji-tibb müəssisəsi tərəfindən "narkomanlıq" diaqnozu təyin edilmiş şəxsdir.

**Narkotik vasitələr** – Azərbaycan Respublikasının qanunvericiliyi ilə bu cür təsnif edilmiş və dövriyyəsi məhdudlaşdırılmış narkotik xassəli bitkilər, xammallar, təbii və ya süni vasitələr, habelə qanunvericiliklə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və sui-istifadə zamanı insanların sağlamlığı üçün təhlükə yaradan digər vasitələr və materiallardır.

**Neqativ proses (fotoqrafiya)** – fotoşəkilçəkmə zamanı fotomaterialın işığa həssas təbəqəsi (qatı) üzərində alınmış gizli fotoşəklin görünən neqativə çevrilməsi başa düşülür.

**Ninhidrin (C9 H6 O4)** – sarı rəngli kristal maddə olun, trasologiyada kağız, karton, ağac materialları üzərində olan görünməyən əl-barmaq izlərini aşkar etmək üçün istifadə olunur.

**Narkomanlıq** – xroniki intoksikasiya doğuran, narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və ya fiziki asılılıqla ifadə olunan xəstəlik vəziyyətdir.

**Narkotizm** – həkim təyinatı olmadan narkotik vasitələrdən bilərəkdən, şüurlu şəkildə istifadə olunmasında, bunlarla qanunsuz əməliyyatlar aparılmasında, digər şəxslərin belə vasitələrdən istifadəyə alışdırılmasında, narkotiklərin qanunsuz dövriyyəyə buraxılmasına şərait yaradılmasında ifadə olunan cəmiyyət üçün təhlükəli hüquqazidd hərəkətlər məcmusundan ibarət hal başa düşülür.

## O

**Oğurluq** – özgənin əmlakını gizli olaraq talama kimi başa düşülür.

**Odlu silah** – barıtın və ya digər alışan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi mexaniki

zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silahdır.
**Odorologiya** – (latın. “odor” iyi hiss edirəm və yunan. “loqos” təlim deməkdir) şəxsiyyətin müəyyən edilməsi məqsədi iylərdən istifadə edilməsi haqqında təlimdir.

## Ö

**Ölçmə** – ibtidai araşdırma prosesində obyektin hər hansı bir kəmiyyət xarakteristikasını və onlar arasında məkan və zaman münasibətlərini müəyyən etmək zərurəti ortaya çıxdıqda tətbiq edilir.

## P

**Partlayış** – yüksək sürətlə kimyəvi dəyişikliyə məruz qalaraq çoxlu miqdarda istilik və qaz ayırmaqla dağıdıcılıq qabiliyyətinə malik olan hadisə kimi başa düşülür.
**Partlayış** – texniki ekspertiza mühəndis-texniki ekspertizaları sinfinin qrupu olub, partlayıcı qurğuların, partlayıcı qurğuların, partlayıcı maddələrin və partlayışla əlaqədar halları tədqiq edir.
**Partlayıcı maddə** – ballistikada xarici impulsun nəticəsində partlama qabiliyyətinə malik kimyəvi birləşmələr və ya onların qarışıqları nəzərdə tutulur.
**Partlayıcı qurğu** – partlayışın törədilməsi üçün xüsusi hazırlanmış qurğudur.
**Papilyar xətlər** – müəyyən naxış yaradan, üzdə olan xətlərdir.
**Papilyar naxışlar** – papilyar xətlərin əmələ gətirdikləri naxışlardır.
**Pozitiv proses (fotoqrafiyada)** – şəkli çəkilən obyektin neqativ əksinin pozitivə çevrilməsi başa düşülür.
**Poliqraf (lay detektor)** – xüsusi qaydada aparılan sorğu zamanı insanın psixofizioloji reaksiyasını qeyd etmək üçün yaradılmış çoxkanallı avtomatik yazan cihazdır.
**Portret ekspertizası** – kriminalistik ekspertizanın növü olub, fotoəkslərə, kino və videokadrlara, kəllə sümüyünə, ölümdən sonra çıxardılmış maskalara, rentgen şəkillərə əsasən şəxsiyyətin müəyyən edilməsi üçün aparılan təhqiqatdır.
**Prekursorlar** – narkotik və psixotrop maddələrin hazırlanması məqsədilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və dövriyyəsi məhdudlaşdırılmış kimyəvi maddələr və onların duzlarıdır.
**Preparat (narkotik, psixotrop)** – tərkibində bir və ya bir neçə narkotik vasitə və ya psixotrop maddə olan istənilən fiziki vəziyyətdə olan maddələr qarışığıdır.
**Psixotrop maddələr** – Azərbaycan Respublikasının qanunvericiliyi ilə bu cür təsnif edilmiş və dövriyyəsi məhdudlaşdırılmış hər hansı təbii və ya süni maddələr, təbii materiallar, habelə qanunvericiliklə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və sui-istifadə zamanı insanların sağlamlığı üçün təhlükə yaradan digər vasitələr və materiallardır.
**Poroskopiya** – (yunan. “poros” dəlik və “skopeo” baxıram) daktiloskopiyanın bir hissəsi olub, əl-barmaq izlərindəki məməciklərin əksinə əsasən şəxsiyyətin eyniləşdirilməsi imkanını və metodikasını öyrənir.

## R

**Reprodoksiya şəkilçəkmə** – səthi obyektlərin, sənədlərin, fotoşəkillərin, çap olunmuş mətnlərin surətini çıxartmaq üçün tətbiq edilən xüsusi fotoşəkilçəkmə üsuludur.
**Rüşvətxorluq** – cinayət hüququnda bu anlayış iki cinayət növünü əhatə edir: rüşvət alma, rüşvət vermə. ***Rüşvət alma*** – rüşvət verənin və ya onun təmsil etdiyi şəxsin xeyrinə hərəkətlərə (hərəkətsizliyə) görə bu hərəkətlərin (hərəkətsizliyin) edilməsi vəzifəli şəxsin vəzifə səlahiyyətlərinə daxil olduqda və ya öz qulluq mövqeyinə görə belə hərəkətlərə (hərəkətsizliyə) yardım edə bildikdə, eləcə də xidmət üzrə ümumi himayədarlığa və ya laqeydliyə görə vəzifəli şəxs tərəfindən şəxsən və ya vasitəçidən istifadə etməklə pul, qiymətli kağızlar, digər əmlak xarakterli mənfəət şəklində alınması deməkdir. **Rüşvət vermə** – şəxsən və ya vasitəçidən istifadə etməklə vəzifəli şəxsə rüşvət vermə başa düşülür.
**Rekonstruksiya** – (lat. “re” və “constructio” sözlərin birləşməsindən əmələ gəlib “qurmaq” deməkdir) qalıqlara, yazı mənbələrinə görə vəziyyətin, sifətin ilkin görünüşünün bərpa edilməsidir.

## S

**Sındırma** – maddi qiymətlilərin talanması məqsədilə yaşayış sahəsinə, habelə binaya,

anbara, seyfə və ya başqa saxlanc yerlərə daxil olma üsuludur. Sındırma alətləri qismində müxtəlif çilingər alətlərindən, qurğulardan, partlayıcı maddələrdən istifadə oluna bilər.

**Sənəd** – cinayət təqibi üzrə əhəmiyyət kəsb edə bilən məlumatları hərf, rəqəm, qrafika və digər işarə formasında özündə əks etdirən kağız, elektron və ya digər daşıyıcılar hesab olunur.

**Sürtülmə kəmərciyi** – ballistikada güllə ilə onun əmələ gətirdiyi zədənin kənarlarının kontakt izləridir.

**Sənədin rekvizitləri** – sənədə hüquqi qüvvə verən zəruri elementlər və məlumatlar məcmusudur.

**Stereo fotoşəkilçəkmə** – müəyyən sahədə olan obyektlərin həcmi və onların bir-birinə nisbətən yerləşmə vəziyyətini müəyyən etməyə imkan verən fotoşəkilçəkmə üsuludur.

**Sorğu** – ibtidai araşdırması aparılan hadisə ilə əlaqədar şahidlərlə və digər iştirakçılarla müstəntiqin və ya təhqiqat orqanı əməkdaşlarının apardıqları qeyri-formal, sənədləşdirilməyən söhbət başa düşülür.

**Soyuq silah** – konstruksiyasına, ölçülərinə və materiallarına görə birbaşa istehsalat və ya təsərrüfat-məişət məqsədləri üçün nəzərdə tutulmayan, xüsusi olaraq insanın əzələ qüvvəsindən istifadə etməklə zərərvurma obyekti ilə bilavasitə əmas zamanı xəsarət yetirmək təyinatına malik olan silahdır.

**Sübutların yığılması** – sübutetmə prosesinin mərhələsi olub, mahiyyəti sübutların aşkar olunması, qeyd edilməsi, götürülməsi və saxlanmasından ibarətdir.

**Silah** – canlı qüvvənin və digər obyektlərin, o cümlədən texnikanın və tikililərin məhv edilməsi üçün nəzərdə tutulmuş, yaxud işarə vermək üçün nəzərdə tutulmuş, lakin canlı qüvvənin v digər obyektlərin məhv edilməsi üçün istifadə oluna bilən qurğu və vasitədir.

**Statik izlər** – iki obyekt - iz qoyan və üzərinə iz düşən obyekt təmasda olduğu anda hərəkətdə olmadıqda, yəni həmin anda hərəkətin kəsildiyi hallarda əmələ gələn izlərə deyilir.

## Ş

**Şərti** – sərbəst nümunələr tədqiq olunan obyektin güman edilən icraçısı tərəfindən ekspertizanın təyin edildiyi işin başlanmasından sonra xüsusi olaraq ekspertiza üçün icra olunmayan və ekspertə müqayisəedici materiallar qismində təqdim edilən əlyazmalar başa düşülür.

**Şifahi portret** – xüsusi terminologiyadan istifadə etməklə insanın xarici görünüşünü təsvir edən xüsusi metodikadır.

**Ştansmarka** – odlu silahın lüləsinin ağız kəsiyinin zədə ətrafında yaratdığı əksə deyilir.

**Şəxsi axtarış** – insan bədəninin, onun pal-paltarının, ayaqqabıçısının və yanında olan əşyaların məcburi yoxlanılması başa düşülür.

**Şəxsi müayinə** – məhkəmə-tibb ekspertizasının keçirilməsi tələb edilmədiyi halda şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxslərin və ya şahidin bədənində cinayətin özlərini və ya xüsusi əlamətləri aşkar etmək məqsədilə müstəntiq tərəfindən aparılan müayinədir.

## T

**Təmas səthi (toxunma)** – iz əmələ gələn zaman obyektlərin təmasda olduqları sahəyə deyilir.

**Təsvir etmə** – dərk etmənin ümumelmi metodlarından biri olub, obyektin əlamətlərinin göstərilməsindən ibarətdir. Məsələn, şifahi portret. Təsvir etmə - predmetlər, proseslər, hərəkətlər haqqında məlumatların qeyd etmə vasitəsidir.

**Tanınma fotoşəkilçəkmə** – qeydiyyat, axtarış və eyniləşdirmə məqsədilə şəxslərin və meyitlərin fotoşəklinin xüsusi işlənmiş qaydalar üzrə çəkilməsidir. Bu növ fotoşəkillər $^{1}/_{7}$ ölçüdə ön tərəfdən, sağ yan tərəfdən və şəxsin boyu bərabəri çəkilə bilər. Zəruri hallarda isə başın ¾ hissəsini yana çevirməklə sol tərəfdən fotoşəkli çəkilir.

**Taktiki əməliyyat** – istintaq şəraiti nəzərə alınmaqla cinayət işinin ümumi məqsədinə xidmət edən taktiki məsələlərin həll edilməsi məqsədilə cinayət-prosessual qanunvericiliyinin normalarına riayət etməklə əlaqələndirilmiş şəkildə həyata keçirilən hərəkətlər sistemi başa düşülür.

**Taktiki üsul** – konkret istintaq şəraitində müstəntiqin daha əlverişli, səmərəli hərəkət üsulu və ya optimal davranış xəttidir.

**Taktiki qərar** – istintaq şəraitinə taktiki təsir göstərmək üçün məqsədlərin, üsulların metodların seçilməsidir.

**Trasologiya** – (fransızca. “trase” iz, yunan. “loqos” təlim deməkdir) kriminalistika texnikasının mühüm sahələrindən biri olub, məhkəmə sübutlarını əldə etmək məqsədi ilə təbiət və texniki elmlərin nailiyyətlərinədn istifadə edərək izlərin aşkar edilməsi, qeyd edilməsi, götürülməsi və tədqiq edilməsinin elmi-texniki üsul və vasitələrini müəyyən edir.

**Təhqiqat** – ibtidai araşdırmanın bir formasıdır.

**Tutuşdurma** – ekspertiza obyektlərinin müqayisəli tədqiqatında istifadə olunan texniki üsuludur.

**Taktiki risk** – istintaq hərəkətlərinin keçirilməsində mənfi nəticələrin baş verməsi mümkünlüyü deməkdir.

## Ü

**Ümumi əlamətlər** – obyekti xarakterizə edən bütün əlamətlər nəzərdə tutulur.

**Üzləşdirmə** – əvvəllər dindirilmiş iki şəxsin ifadələri arasında əhəmiyyətli ziddiyyətlər olduqda müstəntiq tərəfindən aparılan istintaq hərəkətidir.

## V

**Vizirləşdirmə** – məhkəmə ballistikasında ətraf mühitə nisbətdə güllənin uçuş tarektoriyasının müəyyən edilməsinin vizual və ya instrumental üsuludur.

**Viktimologiya** – (lat. “victima” allaha qurban verilən canlı varlıq və yunan. “loqos” söz, təlim) cinayətin qurbanı haqqında təlim deməkdir.

## Y

**Yaxın atəş izləri** – bu zaman hədəfə yalnız mərmi deyil, həmçinin atəşin əlavə faktorları təsir edir (sürtülmə kəmərciyi, hədəfin zədələnmə zonası, ütülmə və hiss hissəciklərinin hopma zonası).

**Yazı vərdişi** – yazı icrasının mənimsəmə dərəcəsinin xarakteristikası, habelə bütövlükdə formalaşma dərəcəsi başa düşülür.

**Yazıya əlavə** - saxtalaşdırmanın üsulu olub, sənədin məzmununu ştrixlər (cizgilər), hərflər, rəqəmlər və ya sözlər əlavə edilməsi başa düşülür.

**Yazı xəttinin fərdiliyi** – konkret xəttin eyniləşdirilməsi üçün istifadə olunan təkrarolunmaz əlamətlər məcmusudur.

**Yod trubkası** – yod buxarları vasitəsi ilə əl-barmaq izlərini aşkar etmək üçün qurğudur.

**Yazı xətti** – yazı üçün vərdiş edilmiş hərəkətlər sistemidir.

**Yiv** – odlu silahın lülə kanalının daxili səthində vint şəkilli girintilər kimi müşahidə olunaraq atəş zamanı gülləyə fırlanma hərəkətinin verilməsinə xidmət edir.

## Z

**Zorakı ölüm** – xarici amillərin təsirindən baş verən ölüm deməkdir.

**Zahiri əlamətlər** – insanı fərqləndirməyə (tanımağa) və ya müəyyən qrup şəxslərə aid etməyə imkan verən gözlə görünən xarici görünüşün tam şəkildə və ya onun ayrı-ayrı elementlərinin xarakteristikasıdır.

**Zaman faktoru** – subyektin öz cinayət fəaliyyətində və ya müstəntiqin cinayətin araşdırılması üzrə işində faktlara, hadisələrə, proseslərə təsir göstərən zaman (vaxt) münasibətidir.

**Zorlama** – yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma deməkdir.

## Ədəbiyyat:


1. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı, 1998.
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəllə. Bakı, 1998.
3. Sarıcalinskaya K.Q. "Kriminalistika texnikası". Bakı, 1975.
4. Sarıcalinskaya K.Q. və b. "İstintaq taktikası". Bakı, 1991.
5. Əliyev R.Ə. və b. "Müstəntiqin kriminalistik məlumat kitabı". Bakı, 1998.
6. «Альбом-схем по Криминалистике» под редакцием А.Г.Филиппова и М. П. Хилобок.
7. А.Г.Филиппов и Волынский А.Ф. «Криминалистика». Москва, 1998.
8. «Справочник следователя» I и II часть. Москва, 1991.
9. Белкин Р.С. «Криминалистка». Москва, 1986.
10. Белкин Р.С. Лавров В.П., Лузгин И.М. «Криминалистика». Москва, 1993.
11. Пантелеев И.Ф., Секливанов Н.А. «Криминалистика». Москва,1993.
12. Яблоков Н.П. «Криминалистика». Москва.1995.
13. Аверьянова Т.В., Белкин Р.С. «Криминалистическое обеспечение деятельности криминальной милиции и органов предварительного расследования». Москва, 1997.
14. Образцов В.А. «Криминалистика- курс лекции». Москва,1996.
15. Azərbaycan Respublikası DİN Polis Akademiyasının müdavim və dinləyiciləri üçün "Kriminalistika" fənni üzrə tədris proqramı. Bakı, 1997.
16. Дубравин С. В. «Криминалистическая диагностика». Москва, 1989.
17. «Судебная фотография». Минск, 1985.
18. Русаков М.Н. «Следы преступления», Омск,1988.
19. Солтевский М.В. «Криминалистическая техника и тактика». Киев, 1977.
20. Справочник следователя. «Осмотр места происшествия». Москва, 1982.
21. Зинин А.М., Винниченко И.Ф. «Криминалистическое описание человека». Москва, 1988.
22. Лукьянов Е.Д., Кузьмичев В. С. «Тактические основы расследования преступлений». Киев, 1989.
23. Копылов И.А. «Следственная ситуация и тактическое решение». Москва, 1987.
24. Облаков А.Ф. «Криминалистическая характеристика преступлений и криминалистические ситуации». Хабаровск, 1985.
25. Дубровская Л.П, Лузгин И.М. «Планирование расследования». Москва, 1977.
26. Астапкин С. М. «Тактика обыска и выемки». Москва,190.
27. Абдуллаев И.М., Порубов Н.И., Рагимов Д.И., Сулейманов Д.И. «Тактика допроса обвиняемого в конфликтной ситуации». Баку,1993.
28. Лисиченко В.К. «Методика расследования отдельных преступлений». Киев,1988.
29. «Справочник по предварительному исследованию следов на месте происшествия».Тюмень, 1987.

30. Лавров В.П. «Особенности расследования нераскрытых преступления пришлых лет». Москва, 1972.
31. “Narkomaniya və toksikomaniya haqqında məlumat, onun profilaktikası”. Azərbaycan Respublikası DİN Kİ, NNQMİ və EKİ. Bakı, 1996.
32. Kişiyev A.X. “Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayət işlərinin istintaq xüsusiyyətləri”. Bakı, 1989.
33. Səməndərov F.Y. “Şəxsiyyət əleyhinə edilən cinayətlər”. Bakı, 1997.
34. Степанов В. В. «Расследование взяточничества».Саратов, 1966.
35. Белозеров Ю.Н., Рябоконь В.В. «Производство следственных действий». Москва,1990.
36. Авсюк А.В. «Процессуальные и тактические особенности проверки показаний на месте». Минск,1990.
37. Ефимычев С.П., Кулагин Н.И., Ямпольский А.Е. «Следственный осмотр». Волгоград, 1993.
38. Исраилов М. И. «Расследование поджогов и преступного нарушения правил пожарной безопасности». Ташкент, 1974.
39. Лузгин И.М. «Реконструкция в расследовании преступлений». Волгоград,1981.
40. Филиппов А.Г. «Первоначальные следственные действия при расследования хищений». Москва, 1972.
41. Родинов Л.Д. «Расследование дорожно-транспортных происшествий». Москва, 190.
42. Дубягин Ю.П., Лысов Н.Н., Руденко О.А. «Криминалистичкое учение о признаках внешности человека». Нижний Новгород, 1991.
43. Крикунов А.Е. «Расследование хулиганства». Киев, 1978.
44. Быков В.М. «Особенности расследования групповых преступлений». Ташкент, 1980.
45. Морозов Б.Н. «Особенности криминалистического исследования признаков письменной речи». Ташкент,1985.
46. Лукашевич В.Г. «Тактика общения следователя с участниками отдельных следственных действий». Киев, 1989.
47. Порубов Н.И. «Альбом-схем по криминалистике». Минск, 1985.
48. Клаус Дитер Поль «Естественно-научная криминалистика». Heideiberg, 1981. Москва, 1985.
49. Григорьев В.Н. «Задержание подозреваемого органами внутренних дел». Ташкент,1989.
50. E.Sander. “Olay yerində kriminalistik”. Ankara, 1997.
51. Белкин Р.С. «Криминалистическая энциклопедия». Москва, 1997.
52. Белкин Р.С. «Криминалистика», Учебник для Вузов, Москва, 2000.
53. Филькова О.Н. Справочник эксперта-криминалиста», Москва,1999.
54. Белкин Р.С. «Криминалистика» учебный словарь-справочник, Москва, 1999.
55. “Kriminalistika”. Ali məktəblər üçün dərslik. Prof. K.Q.Sarıcalinskyanın redaktəsi ilə. Bakı, “Hüquq ədəbiyyatı” nəşriyyatı, 1999.

# QEYDLƏR ÜÇÜN

Mahmudov Allahverdi Mirzağa oğlu, Əliyev Bəxtiyar Əbdürəhman oğlu
Kriminalistika: sxemlər, şərhlər, terminlər (tədris-metodik vəsait)
(Azərbaycan dilində)

“QANUN” nəşriyyatı,
Bakı 370033 Ağa Nemətulla küçəsi, 44
E-mail: ms@azdata.net

Naşir: Şahbaz Xuduoğlu
Nəşriyyat redaktoru: Fəxrəddin Ağazadə

Kompyuter dizaynı: Sahib Qəniyev
Korrektor Fərhad Ağayev

Çapa imzalanmışdır:
Formatı 21x29,7. 1/16. Mətbəə kağızı № 1
Fiziki ç/v 11,75. şərti ç/v 16,69
Tirajı 150, sifariş 323
Qiyməti müqavilə ilə